# Türk dövlətlərinin qlobal həmrəyliyi



**Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Türk Dünyasının nüfuzunu, artan iqtisadi-siyasi qüdrətini bir daha diqqətə çatdıraraq Türk Dövlətləri Təşkilatının (TDT) dünya miqyasında ciddi güc mərkəzinə çevrilə biləcəyini bildirib.**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmaları Mərkəzinin rəhbəri Vüsalə Cəfərova bu fikirlə bağlı şərhində hazırda türk dövlətlərinin iqtisadi əlaqələrinin möhkəmləndiyini, qlobal səhnədə daha təsirli mövqe əldə etməyə istiqamətlənən birgə fəaliyyət göstərildiyini vurğulayıb.

**(ardı 7-ci səhifədə)**

## Azərbaycanın uğurlu COP modeli dünyaya örnəkdir




**Ötən əsrin sonlarında tarixi müstəqilliyinə qovuşmuş Azərbaycan dünya birliyinin layiqli üzvü kimi tam sərbəst iqtisadi siyasət yürütməyə başladı.**

Yeraltı və yerüstü sərvətlərinin zənginliyindən maksimum yararlanmağa çalışan gənc Azərbaycan dövləti ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə bir sıra qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı kimi çıxış etdi. Beynəlxalq arenada yüksək nüfuz qazanmış ölkəmiz özünün bitkin enerji siyasətini bütün dünyaya təqdim edə bildi. Bununla da, bir sıra qlobal layihələrin fəal iştirakçısına çevrilən Azərbaycan dünyada etibarlı enerji tərəfdaşı kimi tanınmağa başlandı.

**(ardı 6-cı səhifədə)**

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 04 (30698) 10 yanvar 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti



# “Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır”

## *Prezident İlham Əliyevin strateji hədəf prinsipiallığına baxış*

**“Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. XX əsrin sonu, XXI əsrin ilk illəri bunu sübut edir və göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Bəli, heç bir şey bir yerdə durmur. Heç bir şey olduğu kimi qalmır. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm”.**

Yazımıza ümummilli lider Heydər Əliyevin 13 sentyabr 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Ermənistan Respublikasından olan qaçqınlar və Xocalıdan olan məcburi köçkünlər üçün salınmış qəsəbənin açılış mərasimində böyük uzaqgörənliklə səsləndirdiyi fikirlərlə başlamağımız təsadüfi deyil. Bunun səbəbinə sonda aydınlıq gətirəcəyik.

Hələlik onu bildirək ki, Prezident İlham Əliyevin bu il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi və cəmiyyətimizdə qətiyyət manifesti kimi qəbul edilən müsahibədə toxunduğu vacib mövzulardan biri də Zəngəzur dəhlizi idi. Hətta, Zəngəzur dəhlizinə ən vacib mövzu da deyə bilərik. Bu səbəbdən onun üzərində xüsusi dayanmağa ehtiyac duyuruq. Həm də ona görə ehtiyac duyuruq ki, Zəngəzur dəhlizi, mahiyyətcə, Qərbi Azərbaycana qayıdış ruhumuzun başlanğıc nöqtəsidir. Yeri gəlmişkən, dövlətimizin başçısı müsahibəsində qayıdış məsələsinə də geniş və dolğun münasibətini açıqladı.

**(ardı 3-cü səhifədə)**

## Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycan Prezidentinə zəng edib



**Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Antonio Koşta təyyarə qəzası ilə bağlı dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığını çatdırıb, Avropa İttifaqının bu qəzanın hərtərəfli araşdırılması ilə bağlı ölkəmizin mövqeyini dəstəklədiyini bildirib.

Prezident İlham Əliyev başsağlığına görə təşəkkürünü ifadə edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə Transxəzər-Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən yaşıl enerji dəhlizinin yaradılması layihəsi, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin təmasların davam etdirilməsi razılaşdırılıb.

**Prezidentin Mətbuat Xidməti**

## Qərbi Azərbaycana qayıdış günün tələbidir



Səhifə ⇨ 4

## Türkiyə regionda anti-terror savaşı aparır



Səhifə ⇨ 11

## Neftçi tələbələrin Niderland uğuru



Səhifə ⇨ 10

# Ermənistanın xaç qardaşlarına ümidi öləziyib

## *Hayların məkrli havadarlarının öz tifaqı dağılır*

**Haqqın–ədalətin qarşısında əyri yolda olan kimsə sonadək duruş gətirə bilməz. Bu zaman hansı üsullara əl atmasından asılı olmayaraq fiaskolu finiş qaçılmazdır. Yalanla, dezinformasiya ilə dünya ictimaiyyətini, beynəlxalq təşkilatları bir müddət aldatmaq olar. Amma sonda həmin yalanlarla üfürülmüş “həqiqətlər” sabun “şarları” kimi partlayıb yox olacaq, köksüz və gövdəsini içindən qurd yemiş ağac kimi yıxılıb yerə səriləcək. Hayastan indi bu durumdadır...**

Haqqın–ədalətin Azərbaycanın tərəfində olduğunu görə-görə on illər boyu Ermənistana siyasi-ideoloji, hərbi və maliyyə dəstəyi göstərən “kollektiv Qərb” artıq ciddi seçim qarşısında qalıb. Bu düşərgənin üzvləri torpaqlarını işğaldan azad etmiş, bölgədə söz və güc sahibinə çevrilmiş Azərbaycanı xoşlamasalar belə, reallıq onların üzlərinə dirənib. 30 il ərzində erməni-faşist terroruna məruz qalmağımıza, 1 milyondan çox qaçqın və məcburi köçkünün məhrumiyyətlərə düçar olmasına göz yuman, bu gerçəkliyə, bir dəfə də olsun, səsini çıxarmayan haypərəstlər indi insan haqlarından, ədalətdən dəm vurmağa başlayıblar.




Azərbaycanı beynəlxalq qaydaları, konvensiyaların hansısa normalarını pozmaqda ittiham edən ölkələrin də, onların liderlərinin də cavabları layiqincə verilir. Çünki o düşərgənin iç üzünə yaxşı bələd olan Prezident İlham Əliyev onları yerlərində oturtmağın üsullarını da ələ bilir. İşğala məruz qalan Azərbaycanı haqlı ikən haqsız duruma salmağa çalışan, işğalçı erməniyə dəstək verənlərin dövranı başa çatıb.

**(ardı 4-cü səhifədə)**

# Gürcüstanın Baş naziri Zati-aliləri cənab İrakli Kobaxidzeyə

**Hörmətli cənab Baş nazir,**

Qali rayonunun Saberio kəndində baş vermiş yanğın nəticəsində 5 uşağın həlak olması xəbəri bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olan uşaqların ailəsinə və yaxınlarına, bütün Gürcüstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 yanvar 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident.**

"Azərbaycan Hava Yolları" şirkətinə məxsus sərnişin təyyarəsinin Qazaxıstan Respublikası ərazisində qəzaya uğraması nəticəsində çoxlu sayda insanın həlak olması və yaralanması ilə bağlı xəbəri dərin kədər hissi ilə qarşıladıq.

Zati-aliləri, bu ağır faciə ilə bağlı Sizə, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, Uca Allahdan ölənlərə rəhmət, yaralananların tez zamanda sağalmalarını diləyirik.

Zati-aliləri, Sizə olan böyük hörmət və ehtiramımı qəbul edin.

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

# BMT Azərbaycan Prezidentinin müraciətini rəsmi sənəd kimi yayıb

**Birləşmiş Millətlər Təşkilatının Katibliyi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2024-cü il 5-6 dekabr tarixlərində Bakı şəhərində "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilmiş ikinci beynəlxalq konfransın iştirakçılarına müraciətinin və konfransın yekun sənədini BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədləri kimi yayıb.**

Bu barədə Qərbi Azərbaycan İcmasından bildirilib.

Qeyd olunub ki, Qərbi azərbaycanlıların öz doğma torpaqlarına geri qayıdışı ilə bağlı məsələni hər zaman diqqətdə saxlayan Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan mövzusunun beynəlxalq gündəlikdə profilinin artması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Eyni şəkildə, konfransın yekun sənədinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan İcmasının mötəbər qurum kimi beynəlxalq aləmdə qəbul edilməsi və konfransın nəticələrinin beynəlxalq aləmə çatdırılması baxımından səmərəli addım olub. Bu sənədlərin yayılması, sözügedən illik beynəlxalq konfransın qayıdış hüququ və ümumiyyətlə, beynəlxalq humanitar hüquq sahəsində beynəlxalq aləmdə ən mühüm platformalardan biri kimi qəbul edilməsinə böyük töhfə verir.

Xatırladaq ki, sözügedən sənədlərin yayılması ilə İcmanın təşəbbüsü ilə BMT-nin rəsmi sənədləri kimi yayımlanmış sənədlərin sayı 10-a çatıb.

Qərbi Azərbaycan İcması sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıdış məsələsini beynəlxalq qurumların gündəliyinə təqdim etməkdə davam edəcək. İcma bir daha Ermənistan hökumətini sələflərinin başlatdığı irqi ayrı-seçkilik siyasətindən əl çəkməyə, beynəlxalq hüquq çərçivəsində öhdəliklərini yerinə yetirməyə, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağa və bu məqsədlə Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağa çağırır.

***XQ***

# Milli Məclisin sədri Gürcüstan parlamentinin sədrinə başsağlığı ünvanlayıb

**Milli Məclisin sədri Sahibə Qafarova Gürcüstanda baş vermiş yanğında beş uşağın həlak olması ilə əlaqədar Gürcüstan parlamentinin sədri Şalva Papuaşviliyə başsağlığı məktubu ünvanlayıb.**

Məktubda deyilir: "Gürcüstanın Qali rayonunun Saberio kəndində baş vermiş yanğında beş uşağın həlak olması xəbəri bizi olduqca kədərləndirdi. Bu faciə ilə bağlı acınızı paylaşır, Sizə, həlak olan uşaqların ailəsinə və yaxınlarına, bütün Gürcüstan xalqına öz adımdan və Azərbaycan Respublikası Milli Məclisinin üzvləri adından dərin hüznlə başsağlığı verirəm".

# İƏT Azərbaycanın mövqeyini daim dəstəkləyir



**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanının Şura Məclisinin sədri Şeyx Məhəmməd bin Abdulla əl Aş-Şeyxin dəvəti ilə bu ölkəyə səfər ediblər.**

Səfər çərçivəsində Allahşükür Paşazadə və nümayəndə heyətinin üzvləri yanvarın 8-də İslam Əməkdaşlıq Təşkilatının Ciddə şəhərində yerləşən mənzil-qərargahında qurumun Baş katibi Hissein Brahim Taha ilə görüşüblər.

Görüşdə şeyxülislam Prezident İlham Əliyevin salamlarını İƏT-in Baş katibinə çatdırıb. A.Paşazadə Azərbaycanın 1991-ci ildə – hələ Sovet İttifaqı dağılmamışdan əvvəl İƏT-in üzvü olduğunu vurğulayaraq bildirib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu əlaqələr hazırda Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilir.

Sonra çıxış edən İƏT Baş katibi Azərbaycanın mövqeyini daim dəstəklədiklərini qeyd edərək COP29 tədbirinin uğurla keçirildiyini və konfransda iştirakdan məmnunluğunu bildirib. O, 2026-cı ildə İƏT dövlət və hökumət başçılarının 16-cı Sammitinin Azərbaycanda keçirilməsinin İƏT dövlətlərinin ölkəmizə etimadının göstəricisi olduğunu vurğulayıb. Baş katib şeyxülislamdan onun salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

***XQ***

# Azərbaycan ilə İran arasında milli təhlükəsizliklə bağlı fikir mübadiləsi



**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi Ramil Usubov yanvarın 8-də ölkəmizdə səfərdə olan İran İslam Respublikasının Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Əkbər Əhmədian ilə görüşüb.**

Bu barədə Azərbaycanın Təhlükəsizlik Şurası məlumat yayıb. Bildirilib ki, görüşdə Prezidentin köməkçisi – Prezidentin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycanın İrandakı səfiri Əli Əlizadə və İranın ölkəmizdə müvəqqəti işlər vəkili Seyid Cəfər Ağayi Məryan da iştirak ediblər.

Görüşdə milli təhlükəsizliyin təmin olunması sahəsində həyata keçirilən tədbirlərlə bağlı fikir mübadiləsi aparılıb, terrorçuluğa, narkotiklərin qanunsuz dövriyyəsinə, qeyri-qanuni miqrasiyaya, transmilli mütəşəkkil cinayətkarlığın digər növlərinə qarşı mübarizə məsələləri müzakirə olunub.

İran İslam Respublikasının nümayəndə heyəti ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.

***XQ***

# Ermənistan XİN rəhbəri tarixi saxtalaşdırır

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın yanvarın 8-də mətbuat konfransında Qərbi Azərbaycan İcması və ümumilikdə indiki Ermənistan ərazisindən azərbaycanlıların deportasiyası ilə bağlı səsləndirdiyi iddialar Ermənistan tərəfindən tarixin saxtalaşdırılmasıdır.**



Bunu Azərbaycanın XİN-in mətbuat katibi Ayxan Hacızadə Ararat Mirzoyanın səsləndirdiyi fikirlərə dair şərhində bildirib.

Ayxan Hacızadə qeyd edib ki, ermənilərin son iki yüz il ərzində kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması tarixi faktdır. Mərhələ-mərhələ gerçəkləşdirilən bu plan nəticəsində azərbaycanlılar indiki Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib, 2 mindən çox toponimin adları dəyişdirilib. Yalnız 1948–1953-cü illər ərzində 150 minə yaxın azərbaycanlı indiki Ermənistan ərazisində öz tarixi torpaqlarından kütləvi surətdə və zorakılıqla deportasiya olunub. Bununla yanaşı, 1987–1991-ci illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından növbəti deportasiyası baş verib, nəticədə 250 mindən artıq azərbaycanlı Ermənistandan qovulub. Bütün bunları sübut edən tarixi və hüquqi sənədlər mövcuddur.

Azərbaycan XİN rəsmisinin sözlərinə görə, sonuncu deportasiya zamanı guya azərbaycanlılara qarşı kompensasiya ödənildiyi, onların könüllü şəkildə əraziləri tərk etdikləri barədə Ermənistan xarici işlər nazirinin iddiaları da tamamilə əsassızdır. Yalnız 1987–1991-ci illərdə etnik təmizləmə siyasətinin tərkib hissəsi kimi 216 nəfər azərbaycanlının qətlə yetirilməsi faktları bir daha sübut edir ki, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nə dərəcədə əzabla və qanla həyata keçirilib.

Qeyd edilənlər xüsusunda Ermənistanın Azərbaycanın Qərbi Azərbaycan İcması ifadəsindən istifadə olunmasını "beynəlxalq hüquq pozuntusu", "ərazi iddiası" kimi təqdim etməsi riyakarlıqdır. Ermənistan rəsmilərinin azərbaycanlıların öz torpaqlarına qayıdış hüququnu müxtəlif bəhanələrlə təkzib etməsi, Azərbaycan ərazilərini "erməniləşdirmək" və azərbaycanlıların geri qayıdışına hər vəchlə mane olmaq məqsədinin açıq-aşkar nümunəsidir.

"Ermənistan indiki ərazisində öz doğma torpaqlarından zorla qovulmuş Qərbi Azərbaycan İcmasının nümayəndələrinin hüquqlarını tapdalamaq və onlarla dialoqun hər vəchlə qarşısını almaq əvəzinə, bu icmanın sülh yolu ilə, ləyaqətli və təhlükəsizlik şəraitində geri qayıdış çağırışlarına cavab verməlidir. Ermənistanın "etnik uyğunsuzluq" konsepsiyasından və "etnik təmizləmə əsasında monoetnik dövlət titulu"ndan əl çəkib, dinc birgəyaşayışı seçdiyinin praktiki göstəricisi məhz Qərbi Azərbaycan İcmasının üzvlərinin öz tarixi torpaqlarına qayıtmasına şərait yaratmaqdan keçə bilər", – deyə Ayxan Hacızadə vurğulayıb.

***XQ***



# Aktaudan Azərbaycana yük axını artacaq

**Qazaxıstan mühüm infrastruktur layihəsi olan Aktau limanında konteyner qovşağının tikintisini həyata keçirir.**

Layihə limanın ötürmə qabiliyyətini əhəmiyyətli dərəcədə artırmaq məqsədi daşıyır.

Konteyner qovşağının inkişafı Qazaxıstanın beynəlxalq logistika arenasında mövqelərini gücləndirəcək, Trans-Xəzər marşrutu ilə Azərbaycan, Gürcüstan və Türkiyədən keçən konteyner daşımalarını artırmağa imkan verəcək. Bildirilib ki, bu, Çindən gələn tranzit yüklərinin bir hissəsini Avropaya yönləndirmək imkanı yaradacaq.

Bundan əlavə, limanda dərinləşdirmə işləri planlaşdırılır ki, bu da onun terminal gücünü artıracaq və konteyner daşımalarını daha səmərəli edəcək.

# Qərbi Azərbaycan İcmasının dialoq çağırışı

**Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın dünən mətbuata verdiyi açıqlamasında Qərbi Azərbaycan məsələsi və Ermənistan–Azərbaycan münasibətlərinin tənzimlənməsinə dair ifadə etdiyi fikirlərin bəzilərinə cavab verib. Cavabda bildirilir:**



"Bir daha vurğulayırıq ki, Qərbi Azərbaycan məsələsi ərazi deyil, insan hüquqları məsələsidir. Biz Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmət etdiyimizi dəfələrlə ifadə etmişik. Qərbi Azərbaycan termininə gəldikdə, vurğulayaq ki, bu, tarixi həqiqətlərə əsaslanan və bizim özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdiyimiz anlayışdır.

Qərbi azərbaycanlıların qayıdışına dair Ermənistan və Azərbaycan arasında dövlətlərarası dialoqun sülh müqaviləsinin imzalanmasından sonra aparıla biləcəyi barədə Nikol Paşinyanın məhdudlaşdırıcı şərti yanlışdır. Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq Ermənistanın beynəlxalq hüquqdan və insan hüquqlarından irəli gələn öhdəliyidir. Vurğulayaq ki, bu mövzuda əsas dialoq xətti Ermənistan hökuməti və Qərbi Azərbaycan İcması arasında aparılmalı olan formatdır.

Biz baş nazir Nikol Paşinyanı regionda sülh və əməkdaşlığın bərqərar olunması üçün səmimi səylər göstərməyə, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağa və bu məqsədlə icmamızla dialoqa başlamağa çağırırıq".

***XQ***

# “Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır”

(əvvəli 1-ci səhifədə)



Zəngəzur dəhlizi məsələsi 44 günlük müharibənin yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli Bəyanatın doğurduğu reallıqdır. Yada salaq ki, dövlətimizin başçısı həmin gün xalqa müraciətində sənədlə bağlı təfərrüatları açıqladıqdan sonra, ölkəmizin savaşdan qazandığı ən böyük nailiyyətinin Naxçıvana yol olduğunu xüsusi vurğulamışdı: “Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim şadam ki, qəbul olundu. Beləliklə Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi, - çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü, - faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi”.

Azərbaycan və Rusiya liderləri ilə yanaşı, Ermənistanın baş naziri Nikol Paşinyanın imzasının yer aldığı 10 noyabr 2020-ci il tarixli Bəyanatın 9-cu bəndində göstərilir ki, “bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.



Əlbəttə, üçtərəfli bəyanatda Naxçıvana yol Zəngəzur dəhlizi kimi dəyər qazanmır və bu, müəyyən mənada təbiidir. Zəngəzur dəhlizi ifadəsini siyasi leksikona Prezident İlham Əliyev daxil edib. Dövlətimizin başçısı ötən müddətdəki bir sıra müsahibələrində və açıqlamalarında məsələnin həm Azərbaycan, həm region, həm də bütövlükdə, dünya üçün əhəmiyyətini kifayət qədər ciddi arqumentləşdirib. Ölkəmizin lideri, eyni zamanda, Ermənistan rəhbərliyinin anti-Azərbaycan mövqeyi fonunda Zəngəzur dəhlizinə zidd yanaşmalarına münasibətdə də sərt fikirlər səsləndirib. Məsələn, Prezident Əliyev 2021-ci ildə bildirib: “Zəngəzur dəhlizini biz icra edəcəyik. Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik. İstəməsə də, zorla həll edəcəyik. Necə ki, mən demişdim müharibədən əvvəl və müharibə dövründə ki, öz xoşunuzla rədd olun bizim torpağımızdan, yoxsa zorla sizi çıxaracağıq. Belə də oldu. Zəngəzur dəhlizinin taleyi də eyni olacaq. Bizim əsas rəqibimiz zamandır. Çünki dəmir yolunun çəkilişi, avtomobil yolunun çəkilişi vaxt tələb edir. Ona görə bütün güclər səfərbər edilib ki, bu layihə icra edilsin və beləliklə 101 il bundan əvvəl bizim əlimizdən alınmış Zəngəzura Azərbaycan xalqı qayıdacaqdır”.

Bir daha deyək ki, dövlətimizin başçısının Zəngəzur dəhlizi ilə bağlı güc ritorikasından söz açmasına əsas verən haqqında söz açdığımız və 9-cu bəndini diqqətə çatdırdığımız üçtərəfli bəyanatdır. Nəzərə alaq ki, bu sənəd məğlub Ermənistanın kapitulyasiya aktıdır. Sənədin Naxçıvana yol seqmenti habelə İrəvanın otuz ilə yaxın davam etdirdiyi işğalçılığın, xalqımıza və ölkəmizə vurduğu böyük ziyanın təzminatıdır.

*

Naxçıvana yolun Azərbaycan üçün prioritetlik dərəcəsi həmişə aktual olub. Yəni, məsələ 44 günlük müharibədən əvvəl də strateji mahiyyət daşıyıb. Fikrimizin təsdiqi üçün 2015-ci ilə qısa ekskurs edək və bildirək ki, Prezident İlham Əliyev həmin il fevralın 7-də 51-ci Münxen Təhlükəsizlik Konfransı çərçivəsində “Ukraynadan əlavə – Avropada həll olunmamış münaqişələr” mövzusunda keçirilmiş panel müzakirə zamanı torpaqlarımızın işğaldan azad olunmasının zəruriliyindən söz açmış və demişdi: “Beləliklə, danışıqlar prosesini davam etdirəcəyimizi nəzərə alaraq bu ətraf rayonların bir qisminin geri qaytarılmasına başlanılması mənzərəni dərhal dəyişəcək, hərbi əməliyyatlar dərhal dayanacaq, atəşkəs rejiminə tam riayət olunacaq. Biz artıq Azərbaycan ilə Ermənistan arasında bütün kommunikasiyaların açılacağına dair təklif irəli sürmüşük. Beləliklə, Ermənistanın bizim ərazimizdən dəmir yolu vasitəsilə Rusiyaya çıxışı olacaq. Həmçinin Türkiyə də Ermənistan ilə bütün kommunikasiyalarını açacaq. Beləliklə, biz hərbi əməliyyatların başlanması ilə əlaqədar istənilən potensial riskləri aradan qaldırmış olacağıq və etimad qurmağa başlayacağıq”.

Nəzərə alaq ki, hazırda regional kommunikasiyaların açılmasındakı başlıca halqa məhz Naxçıvana yoldur. Əlbəttə, 2015-ci ildə də Ermənistan Azərbaycanın təklifini qəbul etməmişdi, indi də müharibə məğlubu olmasına baxmayaraq, yenə köhnə “ampluasındadır”. N.Paşinyan üçtərəfli bəyanatı Ermənistanın 44 günlük müharibədəki məğlubiyyətini təsdiqləyən sənəd kimi görmədiyini açıqlayıb. Ölkəmizin isə tələbi kifayət qədər aydındır: Naxçıvana yol maneəsiz olmalıdır. Yəni, orada hansısa gömrük və sərhəd nəzarəti qəbulolunmazdır. Ona görə ki, bu yolun Zəngəzur dəhlizi məntiqi, eyni zamanda, qlobal Orta dəhliz layihəsinin tərkib hissəsidir. O layihənin ki, Cənubi Qafqaz müstəvisində ona cavabdeh tərəf Azərbaycandır.

Ölkəmiz böyük kommunikasiya habında Ermənistanı hansısa söz sahibi kimi tanımır. Çünki bu tanıma gələcək üçün böyük riskdir. Heç kəs təminat verə bilməz ki, İrəvan qlobal layihənin işini pozmaq istiqamətində hansısa addımlar atmayacaq. Ermənistanın işğalçı keçmişi var və özünə bəraət qazandırmaq üçün əməli addım atmayıb, səmimi davranmayıb.

Əsas məqamlardan biri də budur ki, Paşinyan iqtidarı 44 günlük müharibədən sonra Zəngəzur dəhlizi ideyasına qarşı “Dünyanın kəsişməsi” avantürasını irəli sürüb. Yəni, Ermənistan regional kommunikasiyaların açılması ilə bağlı üçtərəfli bəyanatı deyil, məhz bu avantüranı əsas götürməkdədir. Başlıca məqsəd bəllidir. Ölkə regionda açar fiqura çevrilmək iddiasındadır və xaricdəki havadarları mövcud istiqamətdə ona dəstəklərini əsirgəmirlər. Daha böyük məqsəd isə aydındır – 44 günlük müharibədən sonra tarixin zibilliyinə atılmış erməni məsələsini yenidən dirçəltmək, Ermənistandan region dövlətlərinə təzyiq vasitəsi kimi yararlanmaq.

*

Bəli, Azərbaycan Zəngəzur dəhlizi ideyasının gerçəkləşməsində israrlıdır. Prezident İlham Əliyev müsahibəsində bildirib: “Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr bəyanatının müddəalarını yerinə yetirməlidirlər. Orada hər şey açıq-aydın göstərilib. Biz dörd ildən çoxdur ki, səbir göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu, danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik? Yəni, onlar bütün bunları nəzərə almalıdırlar. Mən bir dəfə demişəm, onlar gərək bizi əsəbləşdirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın!”.

Göründüyü kimi, dövlətimizin başçısı fikirləri ilə Zəngəzur dəhlizi məsələsini, eyni zamanda, Azərbaycan və Ermənistan arasındakı sülhün başlıca komponenti elan etdi. Bu, son dərəcə ciddi mesajdır. Ona da diqqət yetirək: Prezident dəhliz məsələsinin üzərinə konkret hansı sualı cavablandırarkən gəldi?

Ölkəmizin lideri Ermənistan tərəfindən artan təhdidlərə, təxribatlara, atəşkəsin pozulması hallarına münasibət əsnasında bildirdi ki, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda çox ciddi qəbul edilməlidir: “Ermənistanda gedən silahlanma prosesi əlbəttə ki, Cənubi Qafqaz üçün yeni təhdid amilidir. Mən artıq bunu demişəm, bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna baxıb heç nə etməyə bilmərik. Mən bunu, eyni zamanda, Ermənistan rəhbərliyinə də dəfələrlə bildirmişdim ki, bu, yeni təhlükə yarada bilər. Eyni zamanda, bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər, çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar”.

Ermənistana havadarlarının göstərdikləri yardımlar üzərində dayanan dövlətimizin başçısı onu da bildirdi ki, ölkənin silahlanması yeni gərginliyə gətirib çıxaracaq. Prezident Əliyev, həmçinin bu silahlanmanın anti-sülh ovqatı yaratdığına diqqət çəkərək, Ermənistanın faşizm dövləti mahiyyətinin üzərində dayandı, fikrini çoxsaylı arqumentlərlə, o cümlədən, ölkənin birinci prezidentinin irqçi açıqlamalarını yada salmaqla əsaslandırdı.

Ölkəmizin lideri bildirdi ki, Ermənistanda etnik təmizləmənin qürur mənbəyi kimi qələmə verilməsi halları qalmaqdadır. Dövlətimizin başçısının fikirlərindən gəlinən qənaət budur ki, hazırda erməni revanşizmi məhz qeyd etdiyimiz tendensiyadan qidalanmaqdadır: “Yəni, bu (faşist) ideologiya orada yaşayır və bunun daşıyıcıları, sadəcə olaraq, bugünkü Ermənistan müxalifəti deyil, Ermənistan iqtidarıdır. Bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna tamaşa edəsi deyilik. Ermənistan silahlanmanı dərhal dayandırmalıdır. Ona silah verən Fransa və digər ölkələr o kontraktlara xitam verməlidir, ləğv etməlidir. Artıq Ermənistana göndərilmiş silahlar geri qayıtmalıdır. Bu, bizim şərtimizdir. İndi kim bunu necə istəyir elə də qəbul etsin. Mən sözümü deyirəm, onlar da bilirlər, onların arxasında duranlar da bilirlər ki, əgər biz nəyisə deyiriksə, deməli, artıq bu məsələyə çox ciddi yanaşırıq”.

Prezident İlham Əliyev Zəngəzur dəhlizi ilə bağlı mövzunun üzərinə gələrkən, habelə, ölkəmizin sülh mqaviləsi ilə bağlı ATƏT-in Minsk qrupunun ləğvi və Ermənistan konstitusiyasının dəyişdirilməsi tələblərindən söz açdı, “əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik” fikrini səsləndirməklə ermənipərəstlərin, xüsusən Fransanın səylərinin mənasızlığını, ABŞ-da Soros dövrünün başa çatdığını, Yaxın Şərqdə Ermənistanın yaxın müttəfiqi olan Əsəd diktaturasının artıq tarixin zibilliyinə göndərildiyini xatırlatdı və rəsmi İrəvana hər şeyi, dünyadakı geosiyasi dəyişiklikləri yaxşı ölçüb-biçməyi, düzgün addımlar atmağı məsləhət gördü. Dövlətimizin başçısı paralel şəkildə Azərbaycanın Ermənistan üçün təhlükə mənbəyi olmadığına əminlik yaratdı.

Bütün bunlardan sonra deyə bilərik ki, Prezident Əliyevin yuxarıdakı sitatda diqqətə çatdırdığımız fikri gündəmə gətirməsində, xüsusən, Zəngəzur dəhlizinin Ermənistanın suverenliyinə maneçilik törətmədiyini açıqlamasında dərin məntiq var. Ölkəmizin liderinin güc amilinin başlıca mahiyyət daşıdığını vurğulamasında da həmçinin.

*

İndi isə yazımıza nə üçün ulu öndər Heydər Əliyevin 2002-ci ildəki çıxışından iqtibasla başlamağımıza aydınlıq gətirək. Tam aydındır ki, güc haqqa və ədalətə əsaslanmalıdır. Naxçıvana yolun Ermənistanın otuz illik işğalının təzminatı olduğunu bildirdik və xatırlatdıq ki, haqqımız 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda əksini tapıb. Ancaq mövcud trayektoriyada ilahi ədalət payı da var. Hesab edirik ki, Prezident İlham Əliyev müsahibəsində Qərbi Azərbaycanla bağlı sualı həm də ədalət prizmasından cavablandırdı.

Dövlətimizin başçısı 2015-ci ildə regional kommunikasiyaların açılması məsələsində Naxçıvana yolu strateji hədəf kimi vurğuladığı, onu regional sülhün başlıca komponenti elan etdiyi kimi, hazırda Qərbi Azərbaycan məsələsinə də eyni vaciblik mahiyyəti üzrə yanaşıb: “Təbii ki, Qarabağın işğalı dövründə biz bu məsələ ilə fəal məşğul ola bilməzdik. Halbuki hələ 10 il bundan əvvəl mən bu mövzunu artıq siyasi gündəliyə gətirmiş oldum və mənim tövsiyəmlə o vaxt Azərbaycan alimləri elmi əsərlər yaratmağa başlamışlar. İrəvan xanlığı haqqında böyük elmi əsər yaradılmışdır və Qərbi azərbaycanlıların keçmişdəki yaşayışı, orada məskunlaşması, tarixi xəritələrin çap etdirilməsi. Bütün bunları biz o vaxt da elə görürdük, çünki bu, bizim haqlı istəyimiz idi. Amma yenə də deyirəm, hər şeyin ardıcıllığı var və sıra artıq gəlib çatıb ki, biz bu məsələ ilə bağlı daha ciddi məşğul olmağa başlamışıq”.

Bəli, tam qətiyyətlə bildirmək olar ki, Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı suala cavabında qaldırdığı məsələlər Zəngəzur dəhlizi ideyasının reallaşmasının ədalət prezumpsiyasıdır. Çünki tarixi faktlar danılmazdır. Dövlətimizin başçısı müsahibəsində onları qətiyyətlə açıqladı: “Hələ XIX əsr rus imperiyasının xəritələrinə baxın. Orada bütün toponimlərin Azərbaycan mənşəli olması göz önündədir, ya da Rusiya imperiyasının XX əsrin əvvəllərində tərtib edilmiş xəritələri. Orada da bütün şəhərlərin adları Azərbaycan mənşəlidir. Orada siz “Sevan gölü” adlı bir göl görməzsiniz. Orada Göyçə gölü yazılıb. Biz deyəndə ki, bu, bizim tarixi torpağımızdır, biz həqiqəti deyirik. Bunu hətta bu yaxınlarda mətbuata çıxmış Ermənistanın birinci faşist prezidentinin çıxışında da özü deyir ki, üç rayonda azərbaycanlılar əksəriyyət təşkil edirdi. Zəngəzurda azərbaycanlılar əksəriyyət təşkil edirdi. Bəli. Əksəriyyət yox, tam azərbaycanlılardan ibarət olan kəndlər idi. Biz XX əsrdə üç dəfə deportasiyaya məruz qaldıq və hər dəfə bu deportasiya böyük fəsadlara gətirib çıxarırdı. 1920-ci ilin noyabrında Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana birləşdirildi. Ondan iki il əvvəl, əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyəti İrəvan şəhərini Ermənistana bağışladı və ondan sonrakı dövrdə xalqımız nə qədər əzab-əziyyət çəkib. Ona görə vaxt gəlib ki, Ermənistan şərait yaratsın, Qərbi azərbaycanlılar öz dədə-baba yurdlarına qayıda bilsinlər. Əlbəttə ki, biz bu məsələdə Ermənistan rəhbərliyindən çox dəqiq və beynəlxalq hüquqa uyğun mövqe gözləyirik. Onlar hələ ki, susmağa üstünlük verirlər. Halbuki biz bu məsələni dəfələrlə dilə gətirmişik və onlardan konkret cavab gözləyirik. Nə vaxt, hansı şərtlərlə azərbaycanlılar o bölgələrə qayıda bilərlər? Xüsusilə nəzərə alsaq ki, azərbaycanlıların yaşadıqları kəndlərin böyük əksəriyyəti indi tamamilə boş qalıb, orada heç kim yaşamır, ora qayıtmaq o qədər də böyük problem olmaz, yəni ki, kimisə oradan köçürtmək lazım olmayacaq. Sadəcə olaraq, təhlükəsizlik zəmanəti verilməlidir. Onların orada yaşama hüququ tanınmalıdır və əlbəttə ki, onların fəaliyyəti üçün şərait yaradılmalıdır. Yəni, bizim tələbimiz bundan ibarətdir və mən ümid edirəm, gün gələcək ki, Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar”.

Əminliklə vurğulaya bilərik ki, tarixi keçmişimizə bağlılıq, onu yaşatmaq və ona sahiblənmək əzmi baxımından nümunəvilik Azərbaycan dövlətinin fəaliyyət dəst-xəttindəki başlıca meyardır. Haqq–ədalətdən söz düşmüşkən isə onu da bildirməliyik ki, üzləşdiyimiz fəlakətlərdə, o cümlədən, soydaşlarımızın Qərbi Azərbaycandan didərgin salınmasında həm toplum olaraq özümüz təqsirkarıq, həm də bizi bu bəlalara mübtəla edənlər məsuliyyət daşıyırlar. Ancaq, böyük ölçüdə, kimdəsə, yaxud kimlərdəsə günah axtarmaq niyyətindən uzağıq. Prezident İlham Əliyev ötən ilin oktyabrında dahi el sənətkarı Aşıq Ələsgərin abidəsinin açılışında bildirmişdi ki, ədaləti bərpa etmək öz işimiz olmalıdır, “heç kim bizim əvəzimizə ədaləti bərpa etməyəcək, heç kimin belə niyyəti də, istəyi də olmamışdır”.

Sonda bir daha bildirək ki, Zəngəzur dəhlizi təşəbbüsü Qərbi Azərbaycana qayıdış ruhumuzun ilk prinsipiallıq meyarı kimi çıxış etməkdədir. Prinsiplərimizə isə hər zaman sadiqik. Prezident İlham Əliyevin müsahibəsində mövzuya dair səsləndirdiyi fikirlər həm də bu sadiqliyin yenidən, özü də uca səslə bəyan edilməsi idi. Zəngəzur dəhlizi və Qərbi Azərbaycana qayıdış dəyişən dünyadan haqq və ədalət nəsibimiz olacaq və buna heç bir şübhə yoxdur.

*Əvəz CAHANGİROĞLU*
*XQ*

# Ermənistanın xaç qardaşlarına ümidi öləziyib

(əvvəli 1-ci səhifədə)

Dörd ildən çoxdur Bakı ilə sülhə gəlmək əvəzinə, Şərqdən–Qərbə, Şimaldan–Cənuba "qarmağını" ilişdirməyə çalışan, üzdə bir cür, arxada başqa cür davranan, nala-mıxa vuran İrəvanın üz tutduqları coğrafiyalardakı dəstəkçilərinin stulları laxlamağa başlayıb. Görünən odur ki, Ermənistan "müttəfiq axtarışı"nın ikinci dövrəsinə uzaqdan deyil, bölgədən başlamağa məhkumdur.

**XQ-yə açıqlamasında Ermənistanın Qərbə bağladığı ümidlərinin boşa çıxdığına diqqəti yönəldən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** bunun səbəbi kimi haypərəst "düşərgəyə" daxil olan siyasilərin öz ölkələrində mövqelərinin xeyli zəifləməsini göstərdi: "Müşahidə olunan reallıq odur ki, ABŞ mediası, analitik mərkəzlər belə bir tezis səsləndirirlər ki, Donald Tramp hakimiyyətdə olduğu dönəmdə Ağ ev Ermənistana deyil, daim Azərbaycana üstünlük verəcək. Bu ehtimalı erməni mətbuatı da gen-bol tirajlamaqla məşğuldur. Əgər xatırlayırsınızsa, hayların xarici işlər naziri Ararat Mirzoyan belə bir bəyanat vermişdi ki, biz ABŞ-la ikitərəfli münasibətləri siyasi dialoqdan siyasi əməkdaşlığa, partnyorluq səviyyəsinə qaldıracağıq. Buna cavab olaraq Dövlət Departamentinin ermənipərəst katibi Antoni Blinken ayrıca açıqlama yaydı. O, Dövlət Departamentinin Mirzoyanın dediyi məsələ ilə bağlı nə müzakirələr apardığını, nə də hansısa sənədi hazırladığını bildirdi. Yəni, hazırda Vaşinqtonun İrəvanla heç bir siyasi əməkdaşlığından söhbət getmir.



Axı, Ermənistan Rusiyanın ənənəvi müttəfiqidir. Bu amili okeanın o tayında da unutmurlar. Belə olan halda, aydın məsələdir ki, Paşinyan komandası Avropa İttifaqından aldığı dəstəyi qoruyub saxlamağa çalışacaq. Halbuki, haypərəst mövqeyi ilə seçilən ittifaqın baş diplomatı Cozep Borrel artıq postunu tərk edib. Onun yerinə gələn Kaya Kallasın hansı siyasi kursu yeridəcəyini zaman göstərəcək.

Sirr deyil ki, Ermənistana uzun müddət ən böyük dəstəyi İran və Rusiya verib. Onu da istisna etmirik ki, rəsmi İrəvan yenə ənənəvi tərəfdaşlarının ətəyindən yapışmağa məhkum olacaq. Bütün hallarda deyə bilərik ki, baş nazir Nikol Paşinyanın avropalı tərəfdaşlarına olan ümidi öləziyib. Buna görə Ermənistan hakimiyyəti dilini bir qədər gödəltməyə məcbur olacaq".

Bəli, Azərbaycan Ermənistanı xaricdəki əsas dayaqlardan təcrid etməyi bacardı. Rəsmi Bakı buna şəffaf, ədalətli və zərgər dəqiqliyi ilə düşünülmüş diplomatiyası sayəsində yeni tərəfdaşların etimadını qazanması, bölgədə və dünyada haqqı müdafiə etməsi sayəsində nail oldu. Artıq dünyanın ən nüfuzlu təşkilatları – BMT, ATƏT, Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası bizim mövqeyimizi dəstəkləyən, yəni haqqı ifadə edən qərar və qətnamələr qəbul etməyə başlayıblar. Azərbaycanın əldə etdiyi uğurları şərtləndirən digər amil müsəlman ölkələri ilə sıx əlaqələr qurması, onlara həqiqəti və reallığı olduğu kimi izah etməyə nail olmasıdır. Axı, Ermənistan təkcə Azərbaycana qarşı yox, bütün müsəlman aləminə qarşı təcavüzkar siyasət yürütməklə məşğuldur. Məscidləri dağıdan, İslam dəyərlərini təhqir edən birisi müsəlman ölkələri ilə necə dost ola bilər? Onlara qucaq açan müsəlman ölkəsini isə yalnız riyakar və satqın adlandırmaq olar.

*

Biz bu günə səbirlə, addım-addım irəliləyib yetişdik. Günün reallığı isə hamının gözü qarşısındadır. Siyasi tabloda görünən mənzərəyə fikir verin: dünənə qədər Ermənistanı dəstəkləyən dövlətlər bu gün onunla məsafəli davranmağa üstünlük verirlər. Qatı ermənipərəst Fransa prezidenti Emmanuel Makronun Azərbaycanın qarşısında acizliyini etiraf etməyə məcbur olması bir yana, Bakıdan müəyyən məsələdə ona yardım göstərməsini istəyir. Kanadanın ermənipərəst baş naziri Castin Trüdo istefadan yaxasını qurtara bilmədi. ABŞ-da Co Bayden administrasiyası – Soros dönəmi ömrünü başa vurmaq üzrədir. Yaxın Şərqdə



Ermənistanın tərəfdaşı sayılan Bəşər Əsəd hakimiyyətinə birdəfəlik son qoyuldu. Yəni, tərəfdaşlarının sıraları seyrəldikcə İrəvanın səsi hülqumunda ilişib qalır...

Azərbaycanı üstün mövqeyə çatdıran həmin addımlardan bəzilərinə nəzər yetirməyimiz yerinə düşər. 2024-cü ilin yazında Ermənistanı Qazax rayonu istiqamətində anklavda qalmış 4 kəndimizi qaytarmağa vadar edən amillər hansılar idi? Azərbaycan Prezidentinin qətiyyətli, prinsipial və məqsədyönlü siyasəti, Vətən müharibəsindəki Zəfərimiz və lokal antiterror əməliyyatının Xankəndidəki separatçılar və İrəvandakılar üçün şok effekti verən nəticələri.

"Kollektiv Qərb"in, xüsusilə Fransanın Ermənistanı silahlandırmasının və bunun Cənubi Qafqaz üçün yeni təhdid amilinə çevrilməsinin qarşısının alınması istiqamətində Bakının atdığı qətiyyətli addımları da deməliyik. Azərbaycanın irəli sürdüyü şərtlər: Ermənistanın silahlandırılması dərhal dayandırılmalı, silahlar geri qaytarılmalı və bütün hərbi təmaslara xitam verilməlidir. Əks-təqdirdə bu proses Ermənisatana yaxşı heç nə vəd etmir. Bunun qarşısında ABŞ, Fransa və Avropa İttifaqı Ermənistan platformasının yaradılması ideyasına yenidən baxmağa başladı. Onların İrəvanla çoxtərəfli danışıqlar formatına son qoymasına da az qalıb.

Başını itirmiş Paşinyan komandası Ermənistanın keçmiş dövlət başçılarını məhşər ayağına çəkməklə daxili auditoriyanın diqqətini xarici siyasətdəki uğursuzluqlardan yayındırmaqla məşğuldur.

Bu zaman dövriyyəyə Ermənistanın eks-prezidenti Levon Ter-Petrosyanın 32 il bundan əvvəl –1993-cü ildə erməni milli hərəkatının hərbi qolu olan "Yerpaka" üzvləri qarşısında çıxışında səsləndirdiyi fikirlər buraxılır. Müstəqil Ermənistanın tarixində, guya, ən ağıllı rəhbər, "demokrat prezident" kimi ad çıxrmış Ter-Petrosyanın məlum açıqlaması işğalçı hayların Azərbaycana qarşı planlı şəkildə həyata keçirdikləri etnik təmizləmə siyasətinin növbəti təsdiqi sayılmalıdır. Ermənistanın birinci prezidenti çıxışında bunları demişdi: "Biz Ermənistanı da, Artsaxı da Azərbaycan türklərindən təmizlədik. Son 600 ildə erməni xalqının edə bilmədiyini siz etdiniz".

İndi öz soydaşlarının ittiham obyektinə çevrilmiş Suriya ermənisi çıxışında daha sonra bildirib: "Ermənistanı azərbaycanlılardan ona görə təmizlədik ki, onlar hədəflərimizə çatmağa əngəl ola bilərdilər. Ermənistanın 3 rayonunda 170 min azərbaycanlı çoxluq təşkil edirdi. Azərbaycanlılar Zəngəzurda da çox idilər. Əgər onları təmizləməsəydik, Sovet İttifaqı süquta uğrayan kimi həmin bölgələrdə problemlər əmələ gələcəkdi. "Dağlıq Qarabağdan" kənarda, Azərbaycanın müxtəlif bölgələrində yaşayan 300 min ermənинin köçüb Ermənistana gəlməsi də bizə lazım idi. Əgər onlar Azərbaycanda qalsaydılar, Bakı girov kimi bizə qarşı istifadə edəcək, tarixi missiyamızı reallaşdırmağa imkan verməyəcəkdi. Bununla biz həm də demoqrafik problemimizi həll etmiş olduq".

*

Erməni faşizminin üzə çıxan yeni faktlarından biri kimi Ermənistana 20 il başçılıq etmiş "Qarabağ klanı"nın – Koçaryan və Sarkisyan iqtidarlarının gecikmiş etirafları sayıla bilər. İndi tam əminliklə deyə bilərik ki, 1988-ci ildə Sumqayıt hadisələri, 1990-cı ildə Azərbaycanın müxtəlif bölgələrində törədilən "poqrom"lar və bunların sayəsində etnik qarşıdurma səviyyəsinə qaldırılmış "Dağlıq Qarabağ" münaqişəsi Qərbin dəstəklədiyi məkrli hay ssenarisinin tərkib hissələri idi.

Hayların ikinci prezidenti Robert Koçaryanın 22 il bundan əvvəl Avropa Şurasının tribunasından azərbaycanlılar və ermənilərin genetik uyğunsuzluğu barədə dediklərini, üçüncü prezident Serj Sarkisyanın ingilis jurnalisti Tomas de Valla Xocalı soyqırımını qəsdən törətdiklərini etiraf etməsini yalnız "arxalı köpəy"in qurdun üstünə yeriməyə sürət etməsi ilə müqayisə etmək olar. Amma arxa-dayaqdan məhrum olan köpəyin çaqqal aqibəti yaşaması kimi sonluğu da var.

Hələ də özünü Qərbdəki artıq psevdo-dəstəkçilərinə "sülh göyərçini" kimi təqdim etməyə çalışan N.Paşinyanın 2018-2019-cu illərdə Azərbaycanın ünvanına "qazlı-qazlı" ultimatum verməsi, Cıdır düzündə üzünü Bakı səmtinə tutub əzələ nümayiş etdirməsi də "kollektiv Qərb"in şirin vədlərindən xumar olmuş hayın sayıqlamaları idi. Bəs dikbaş baş nazirin hərbi ritorikası harada qaldı?

*

Sadaladıqlarımız Ermənistanın haradan-haraya və necə gəldiyini əyani şəkildə göstərən reallıqlardır. Bəli, Ermənistanın bu gün acınacaqlı vəziyyətlə üzləşməsinin, ağır duruma düşməsinin başlıca səbəbi məhz güvəndiyi həmin xarici qüvvələrdir.

Əgər Ermənistanı dəstəkləyənlər onu vaxtında işğalçılıqdan çəkindirməyi bacarsaydılar, haylar bugünkü acınacaqlı vəziyyətlə üzləşməzdilər. İndi də xarici himayədarlarına səslənməkdən usanmayan Ermənistan iqtidarı əbəs yerə kənardan gələn dəstəyə ümid edir. Ermənilər birdəfəlik başa düşməlidirlər ki, onların taleyi Rusiyanın, Fransanın, ABŞ-ın, yaxud İranın deyil, öz əllərindədir. Sadəcə, o əli qaranlığa deyil, işığa, barıt qoxusu gələn tərəfə yox, sülhə uzatmağı bacarmalıdır. Burada çətin nə var ki?

*İmran BƏDİRXANLI*
*XQ*

# Qərbi Azərbaycana qayıdış günün tələbidir



**Hazırda Azərbaycan dövlətinin qarşısında dayanan əsas məsələlərdən biri də 1988-1989-cu illərdə indi Ermənistan adlanan ərazidən – tarixi yurd yerlərindən qovulan soydaşlarımızın geri qaytarılması ilə bağlıdır. Məsələ xüsusilə Vətən müharibəsinin başa çatmasından sonra, yəni son 4 ildə aktiv şəkildə gündəmə gətirilir və bu istiqamətdə fəal siyasi-diplomatik iş aparılır. Bu da təsadüfi deyil. Çünki Qarabağ və Şərqi Zəngəzur erməni tapdağı altında olduğu dövrdə ölkəmizin əsas gücü, potensialı və fəaliyyəti işğal faktının aradan qaldırılmasına yönəlmişdi.**

Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra əsas hədəflərimizdən biri Qarabağda hələ də qalmaqda olan separatçı xunta rejiminin varlığına son qoymaq, dövlət suverenliyini bərpa etmək idi. 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri sayəsində bu məqsədimizə də nail olduq. Bundan sonra Qazax rayonunun işğal altındakı kəndlərimizin qaytarılması prioritet məsələyə çevrildi. Məlumdur ki, Azərbaycan Prezidentinin ötən ilin fevralında Ermənistan baş naziri qarşısında qoyduğu tələbdən sonra rəsmi İrəvan 2024-cü ilin aprelin 19-da həmin kəndləri qaytarmağa məcbur oldu. Bundan sonra Qərbi Azərbaycan məsələsinin aktiv şəkildə gündəliyə gətirilməsinə başlanıldı.

Əlbəttə, bu istiqamətdə proseslərin 2020-ci ildən sonra, yaxud elə 2024-cü ildə başlandığını iddia etmək ciddi yanlışlıq olardı. Qərbi Azərbaycanla bağlı ideoloji xəttin formalaşmasının 10-15 illik tarixçəsi var. Hələ 2011-ci il iyulun 5-də keçirilən Dünya azərbaycanlılarının III qurultayında Prezident İlham Əliyev demişdir: "Tarix tarixdir. 1978-ci ildə Qarabağda məskunlaşmalarının 150 illiyini qeyd edən ermənilər yaxşı bilirlər ki, onlar bu torpaqlara qonaq kimi gəlmişlər. Nəinki Qarabağ, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında formalaşıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi ərazimizdir. Xəritəyə baxsaq görərik ki, vaxtilə Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana vermək nəticəsində böyük türk dünyası coğrafi cəhətdən parçalandı. Yəni, Zəngəzurun Ermənistana verilməsinin çox böyük mənfi mənası var idi. Biz indi iddia etmirik ki, bu torpaqlar Azərbaycana birləşsin. Halbuki hər bir azərbaycanlı, hər bir vətəndaş, hər bir uşaq öz tarixini bilməlidir. Bilməlidir ki, bu bölgələr tarixi Azərbaycan torpaqlarıdır. Məsələnin həlli üçün, əlbəttə, bütün amillər nəzərdən keçirilməlidir. Tarix bəllidir. Bu bizim torpağımızdır, nəinki Dağlıq Qarabağ və digər bölgələr. Beynəlxalq hüquq normaları tam şəkildə bizim mövqeyimizi müdafiə edir..."

Prezident İlham Əliyevin qurultaydakı çıxışı ilə bu mövzu artıq siyasi gündəliyə gətirilmiş oldu. Dövlətimizin başçısının tapşırığına əsasən elə həmin illərdə Qərbi Azərbaycana qayıdış məsələsi ilə bağlı ideoloji xəttin formalaşmasına, məsələnin elmi əsasları üzərində iş aparılmasına başlanıldı. Cənab İlham Əliyevin tövsiyəsi ilə o vaxt Azərbaycan alimləri elmi əsərlər ərsəyə gətirməyə başladılar. İrəvan xanlığı haqqında böyük elmi əsər yaradıldı. Qərbi azərbaycanlıların keçmişdəki yaşayışı, orada məskunlaşması araşdırıldı, tarixi xəritələr çap etdirildi. Amma bunlar hələ belə deyək, nəzəri fəaliyyətlər idi. Daha ciddi şəkildə praktik işlərin görülməsinə isə son illərdə start verilib. İlk növbədə, ölkəmizdə fəaliyyət göstərən, Qərbi Azərbaycandan olan bir neçə ictimai qurum vahid təşkilat çərçivəsində birləşdi. Qərbi Azərbaycan İcmasının fəaliyyəti daha da təkmilləşdi.

İcma bir çox beynəlxalq təşkilatlarla təmaslar yaradıb və bu məsələ artıq beynəlxalq gündəliyə daxil edilib. Elə dünən yayılan məlumatda bildirilirdi ki, BMT katibliyi Prezident İlham Əliyevin 2024-cü il dekabrın 5-6-da Bakıda "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilmiş ikinci beynəlxalq konfransın iştirakçılarına müraciətini və konfransın yekun sənədini BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədləri kimi yayıb. Beləliklə, birmənalı şəkildə demək mümkündür ki, bu məsələ artıq həm beynəlxalq leksikona, həm də beynəlxalq gündəliyə salınıb. Bundan əlavə, 2024-cü il sentyabrın 1-də keçirilmiş növbədənkənar seçkilər əsasında formalaşmış Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu formalaşdırılıb və fəaliyyət göstərir.

Azərbaycan Prezidenti yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı bu məsələ ilə bağlı da aydın mesajlarını verdi. Bildirdi ki, bu gün biz 300 min Qərbi azərbaycanlının o bölgələrə qayıtmalı olduğunu deyirik. Amma bütövlükdə o bölgədən çıxmış və bu gün Azərbaycanın müxtəlif bölgələrində yaşayanların və onların nəvələrinin, nəticələrinin sayı 300 mindən bir neçə dəfə çoxdur: "...Ona görə vaxt gəlib ki, Ermənistan şərait yaratsın, Qərbi azərbaycanlılar öz dədə-baba yurdlarına qayıda bilsinlər. Əlbəttə ki, biz bu məsələdə Ermənistan rəhbərliyindən çox dəqiq və beynəlxalq hüquqa uyğun mövqe gözləyirik. Onlar hələ ki, susmağa üstünlük verirlər. Halbuki biz bu məsələni dəfələrlə dilə gətirmişik və onlardan konkret cavab gözləyirik. Nə vaxt, hansı şərtlərlə azərbaycanlılar o bölgələrə qayıda bilərlər? Xüsusilə nəzərə alsaq ki, azərbaycanlıların yaşadıqları kəndlərin böyük əksəriyyəti indi tamamilə boş qalıb, orada heç kim yaşamır, ora qayıtmaq o qədər də böyük problem olmaz, yəni ki, kimisə oradan köçürtmək lazım olmayacaq. Sadəcə olaraq, təhlükəsizlik zəmanəti verilməlidir. Onların orada yaşama hüququ tanınmalıdır və əlbəttə ki, onların fəaliyyəti üçün şərait yaradılmalıdır. Yəni, bizim tələbimiz bundan ibarətdir və mən ümid edirəm, gün gələcək ki, Qərbi azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar".

Ancaq biz Ermənistan rəhbərliyindən Qərbi azərbaycanlıların öz yurdlarına qayıda bilməsi üçün çox dəqiq və beynəlxalq hüquqa uyğun mövqe gözlədiyimiz bir zamanda baş nazir Nikol Paşinyan və onun komandasına daxil olan şəxslər məsələyə öz xislətlərinə uyğun reaksiya verdilər. Əvvəlcə, ölkənin xarici işlər naziri Ararat Mirzoyan dilə gəldi. O, yanvarın 8-də ötən ilin yekunlarına dair keçirdiyi mətbuat konfransında cəfəng fikirlər səsləndirdi. Mirzoyan erməni ictimai-siyasi çevrələrində mövcud olan narrativləri təkrarlayaraq olduqca uğursuz müqayisə apardı. Dedi ki, Qarabağdan "məcburi köçkün düşmüş" ermənilərdən fərqli olaraq, azərbaycanlılar Ermənistanı kifayət qədər sivil şəkildə (?) tərk ediblər. Ararat tipik erməni həyasızlığına salaraq iddia edib ki, guya, 100 azərbaycanlı ailəsi öz mənzilini sata bilib, 12 mindən çoxu mənzilini Azərbaycanda yaşayan ermənilərlə dəyişdirib, 160 mindən çox insan isə Ermənistan hökumətindən təzminat (?) alıb. "Buna görə də hüquqlar tükənib və azərbaycanlıların qaytarılması məsələsi bizim gündəmimizdə deyil" – deyə bildirib.

Ölkənin baş naziri N.Paşinyan isə dünən "Facebook" səhifəsində bununla bağlı paylaşım edib. Qeyd edib ki, Azərbaycan qaçqınların hüquqlarını Qərbi Azərbaycan şüarı altında (?) müzakirə etməkdə israrlıdır. Guya, Azərbaycan qaçqınlar məsələsi ilə beynəlxalq hüququn subyektindən, suveren dövlətdən, yəni Ermənistandan istifadə edərək onun ərazi bütövlüyünü şübhə altına almağa, guya, ərazi iddiaları irəli sürməyə çalışır.

Beləliklə, aydın olur ki, özünü Avropa demokratiyası yolu ilə gedən ölkə kimi təqdim edən Ermənistan Qərbi Azərbaycandan zor gücünə qovulmuş 300 mindən çox azərbaycanlının fundamental insan hüquqlarını həyata keçirməsinə imkan verməkdə maraqlı deyil. Paşinyan bu insanların dilindən onların problemlərini eşitmək istəmir. Bu fakt bir daha Paşinyanın demokratiya maskasını yırtır və onun Ermənistanın əvəlki faşist rəhbərliyindən fərqlənmədiyini göstərir. Paşinyan onu da bilməlidir ki, Qərbi Azərbaycana qayıdış hər hansı ərazi iddiasında olmaq demək deyil. Bu məsələyə insan hüquqları nöqteyi-nəzərindən yanaşmaq lazımdır və rəsmi Bakı bu məsələni gündəlikdən çıxarmayacaq. Eyni zamanda, ATƏT, Avropa Komissiyası da bu məsələ ilə bağlı öz mövqeyini bildirməlidir. Çünki söhbət yüz minlərlə insanın hüquqlarının bərpası məsələsindən gedir.

**Politoloq Yeganə Hacıyeva** XQ-yə bildirdi ki, tarixən dünyanın diqqət mərkəzində



olan regionumuzda istər XIX əsrdə, istərsə də XX əsrin əvvəllərində qlobal güclərin maraqlarının təmin edilməsində könüllü maşa rolunu oynayan Ermənistan həmin proseslərdə icraçı qismində iştirak etməklə öz çirkin siyasətini həyata keçirmək üçün geniş imkanlar əldə edib. Həmin proseslər çərçivəsində Qərbi Azərbaycandan olan soydaşlarımıza qarşı bir neçə mərhələdə deportasiyalar həyata keçirilib: "Statistik və arxiv sənədləri ilə təsdiqlənən məlumatlara əsasən göstərilən dövrlərdə ümumilikdə, Qərbi Azərbaycandan olan 1,5 milyon soydaşımız deportasiyaya məruz qalıb. Ermənistanda azərbaycanlıların yaşadıqları 940 yaşayış məntəqəsindən 698-nin adı dəyişdirilib, həmin proses Qərbi Azərbaycandan olan soydaşlarımızın tam deportasiyasından sonra yekunlaşıb. Ümumilikdə isə soydaşlarımıza qarşı milli mənsubiyyət zəminində həyata keçirilən deportasiya və soyqırımı siyasəti onların məcburi köçürülməsi, milli-dövlət birləşmələrinin ləğvi, milli-ərazi sərhədlərinin və onların adlarının dəyişdirilməsi terror və zorakı üsullarla, cinayətlərlə müşayiət olunub".

Politoloq qeyd edi ki, Azərbaycan isə Ermənistandan fərqli olaraq Vətən müharibəsindən sonra Xankəndi və ətraf ərazilərdə yaşayan erməni əsilli vətəndaşların reinteqrasiyası prosesi istiqamətində tədbirlərə başladı, həmin ərazilərdəki erməni icmalarına müraciətlər ünvanlandı, dəfələrlə dövlət səviyyəsində onların Azərbaycan vətəndaşları olduğu bildirildi. Hər zaman götürdüyü öhdəliklərə sadiq qalan Azərbaycan bu məsələdə də humanist yanaşma tətbiq edir: "Ölkəmizin erməni əsilli vətəndaşlara qarşı sərgilədiyi münasibəti Ermənistan da nümayiş etdirməli, Qərbi Azərbaycandan olan soydaşlarımızın öz doğma yurd-yuvalarına qayıdıb orada yaşaması məsələsinə müsbət yanaşmalı və milli, etnik mənsubiyyətə görə ayrı-seçkilik ideologiyasını aradan qaldırmalıdır. Görünən odur ki, xəmiri riyakarlıq, vəhşilik və mənimsəmə ilə yoğrulan ermənilərin reallıqlarla barışmaq, insanpərvər yanaşma prinsiplərinə gözucu da olsa baxmaq niyyəti yoxdur. Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasına da adət edilən reaksiyanı verən ermənilər BMT-nin həmin konsepsiyanı rəsmi sənədi kimi yaymasına mane ola bilmədilər. Bunun əsasında BMT-nin Qərbi azərbaycanlıların hüquqlarının bərpa olunması, siyasi, iqtisadi, habelə mədəni və mənəvi ənənələrinə hörmət prinsipi dayanır. Bu, Qərbi azərbaycanlıların haqlarının bərpa olunması istiqamətində onların tarixinə və fəlsəfəsinə əsaslanan, xüsusən də öz torpaqlarına, ərazilərinə və sərvətlərinə olan ayrılmaz hüquqlarına hörmətlə yanaşmanın təşviq edilməsi istiqamətində bir mərhələdir".

*Səxavət HƏMİD*
*XQ*

# Liderlik strategiyasında yeni nüanslar

*Prezident İlham Əliyevin telekanallara müsahibəsinin aktual məqamları*



### I məqalə

**Mötədillik sizin başqa alternativinizin olduğu halda fəzilətdir.**

***Henri KİSSİNCER***

## Liderliyə yeni yanaşma zərurəti

Müasir siyasi təlimlərdə dünyanın ümumi mənzərəsinin mürəkkəbliyi, riskliliyi, qeyri-müəyyənliyi və ziddiyyətliliyi haqqında geniş yazılır. Demək olar ki, həmin xüsusiyyətlər bütövlükdə dünyanın geosiyasi və siyasi dinamikasının müəyyənedici parametrləri kimi təqdim edilir.

Bu iddianın elmi əsaslılığı ilə işimiz yoxdur. Ancaq bir özəlliyi qəbul etmək gərəkdir: XXI əsrin siyasi, geosiyasi olaylarını, liderlik xüsusiyyətlərini öncəki yanaşmalar çərçivəsində adekvat dərk etmək prinsipcə imkansızdır!

Bütün dünyanın yeni elmi və politoloji yanaşmalara ehtiyacı vardır. Obrazlı desək, real proseslər mövcud yanaşmaların nəzəri və metodoloji sərhədlərinə "sığmır". O cümlədən, liderliyin xarakteristikasında mövcud politoloji kriteriyaların hüdudlarının "o tərəfində" axtarışlara ehtiyac yaranmışdır.

Bu vəziyyət müasir liderologiyada ən azından iki məsələni aktuallaşdırır. Birincisi, liderliyin təhlilində universal kriteriyaların mövcud olub-olmadığı bir daha araşdırılmalıdır. İkincisi, tarixi dövrün özəllikləri ilə yanaşı, liderin fəaliyyət göstərdiyi region və konkret ölkə faktoru ciddi surətdə nəzərə alınmalıdır.

Bu faktorların fonunda ötən dövrlərdə formalaşmış təlimlərin prizmasında XXI əsrdə liderliyin xarakteristikasına yanaşmaq həmişə qüsurlu olacaqdır. Həmin prizmada biz İlham Əliyevin liderlik strategiyasında özünü göstərən "yeni sintez" prinsipinin təhlili üçün iki politoloji məqama diqqət etməyi zəruri hesab edirik.

Onlardan biri realpolitik və idealpolitik təlimlərinin indiki mərhələdə münasibətləridir. Digəri isə siyasətdə, beynəlxalq münasibətlərdə və geosiyasətdə "qüvvələr balansı" və "maraqlar balansı" anlayışlarının məna transformasiyaları ilə bağlıdır.

## Realpolitik və idealpolitik: münasibətlərin dinamikası

Məqalənin ümumi nəzəri konstrukt təsiri bağışlamaması üçün qısaca praktiki xarakterli bir sıra fikirlərin üzərində dayanaq. "Realpolitika" almancadan tərcümədə "praktiki", "gerçək" siyasət mənalarını verir. Elə diplomatik və politik siyasəti nəzərdə tutur ki, konkret faktlara, vəziyyətə, situasiyanın reallıqlarına əsaslanır. Bu zaman bu və ya digər dərəcədə ideoloji, əxlaqi və etik önqaydalar arxa plana keçə bilər. Həmin aspektdə realpolitika realizmlə kəsişir.

Siyasi realizmdə beynəlxalq münasibətlərdə qüvvələrin balansı, milli maraqlar və məqsədlər xüsusi yer tuturlar. İkinci dünya müharibəsindən sonra siyasi realizm əksər aparıcı dövlətlərin xarici siyasət kursunda dominant oldu. Bu siyasi kursun fəlsəfi, geosiyasi və siyasi-nəzəri tədqiqinə də ciddi diqqət yetirilir, bununla bağlı geniş müzakirələr aparılır.

Onu vurğulayaq ki, realpolitikanın O.fon Bismark, H.Kissincer, Z.Bzejinski, D.Syaopin, Ş.de Qoll, Li Kuan kimi tərəfdarları olmuşdur.

İdealpolitikanın xarici siyasət kontekstində daxili siyasət fəlsəfəsini beynəlxalq fəaliyyətdə ciddi surətdə nəzərə almağı ehtiva edir. Konkret olaraq, idealpolitika milli dövlətin özünün müəyyən etdiyi prinsiplər və dəyərlər əsasında fəaliyyəti əsas tutur. Bu mövqeyin ifrat formaları da meydana gələ bilir. Məsələn, geosiyasətdə "Vesternizm" adlanan və Qərb dəyərlərinin mütləq surətdə (xoş və ya zor yolu ilə) başqalarına qəbul etdirməyi ifadə edən yanaşma mövcuddur.

Təcrübə göstərdi ki, ayrılıqda realpolitika və idealpolitika heç də həmişə dövləti uğurlu etmir. Bunun fonunda XXI əsrin ilk onilliklərində Henri Kissincerin Qərb dövlətlərinin xarici siyasəti ilə bağlı bir təklifi maraq doğurur.

## Kissincerin sintez cəhdi

ABŞ-ın Əfqanıstan və Yaxın Şərq siyasətinin iflasa uğraması Qərb geosiyasi fikrində səbəblərin araşdırılması ehtiyacını artırdı. H.Kissincerin qənaətinə görə, burada başlıca səbəb Qərbdə liderliyin böhranı ilə bağlıdır. Onun da siyasi-nəzəri qüsurunu realizmlə idealizmin sintezinin xarici siyasətdə yoxluğu təşkil edir. Buna görə də H.Kissincer realpolitika ilə idealpolitikanın Qərb üçün çox aktual olduğu fikrini irəli sürmüşdü.

Ancaq indiki vəziyyət də göstərir ki, Qərbdə bu problemi real olaraq həll edə bilməyiblər. Yəni realpolitika ilə idealpolitikanın sintezini gerçəkdən həyata keçirə bilən liderə Qərb dövlətlərində rast gəlinmir. Görünür, praktikada bunu reallaşdırmaq çox sayda mürəkkəb faktorlarla bağlıdır. Onu həll etmək yeni liderlik keyfiyyətləri tələb edir. O cümlədən, siyasətdə qüvvələr balansı ilə maraqlar balansının yeni dinamikasına nail olmaq lazım gəlir.

## Qüvvələr və maraqlar balansı

"Qüvvələr balansı" anlayışı geosiyasətdə ümumi halda müxtəlif güc mərkəzləri arasında təsir dairəsinin bölünməsini ifadə edir. Əsas məqsəd hər hansı dövlət və ya dövlətlər qrupunun dominantlığını neytrallaşdırmaqdan ibarətdir. Ona görə də geosiyasətdə qüvvələr balansında dövlətlərin təsir səviyyəsinin uzlaşdırılması prinsipial rol oynayır.

"Maraqlar balansı" başlıca olaraq dövlətin və ya dövlətlər qrupunun regional və ya qlobal səviyyədə milli maraqları optimal nəzərə almağı ifadə edir. Bu, özlüyündə qarşılıqlı fəaliyyətdə olan subyektlərin maraqlarının uyğunlaşdırılmasını tələb edir. Hər bir müstəqil dövlətin lideri üçün bu, yaradıcı prosesdir və xüsusi yanaşma tələb edir.

İndi Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 7-də Azərbaycan telekanallarına verdiyi müsahibədə ifadə etdiyi fikirlərin işığında vurğulanan məqamlara nəzər salaq.

## COP29 realpolitika ilə idealpolitikanın sintezində

Azərbaycan Prezidentinin liderlik təcrübəsində milli maraqlar və onun fonunda qüvvələr balansının təmini ayrıca yer tutur. Bu məsələ daha geniş miqyasda İlham Əliyevin realpolitika ilə idealpolitikanın çox uğurlu sintezinə nail olması ilə əlaqəlidir. Dövlət başçısı və lider kimi, onun fəaliyyətində həmin məqam əyani surətdə öz əksini tapmışdır və bu proses davam edir.

Bu tezisin doğruluğuna 2024-cü ildə Bakıda keçirilən COP29-un nümunəsində əmin ola bilərik. Prezident İlham Əliyev COP29-u təşkil etməyin Azərbaycan üçün siyasi və geosiyasi mənasının yerli televiziya kanallarna verdiyi müsahibədə dolğun ifadə etmişdir. Xüsusi olaraq vurğulamışdır ki, "...bizim üçün COP29 böyük bir çağırış və böyük imkan idi. Bizim vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi. Əlbəttə, biz tam dərk edirdik ki, Azərbaycan istixana qazlarının emissiyası baxımından o qədər də böyük paya sahib deyil və bu işdə dünyanın bir araya gəlməsində mühüm rol oynaya bilməz. Lakin hesab etdik ki, beynəlxalq təşkilatlarda fəaliyyət təcrübəsi və şaxələndirilmiş xarici siyasət bizə körpülər qurmaqda yardımçı olacaq".

Bu fikirlərin məntiqi strukturunu realpolitika ilə idealpolitikanın sintezində məna çalalarına malik olan tezislər təşkil edir. Onların üzərində geniş dayanaq.

## Böyük çağırış və geniş imkan

COP səviyyəsində hər hansı tədbirin təşkilinin təməlində həmişə müəyyən ciddi çağırış olur. Onların ümumi çətirini, məlumdur ki, iqlim dəyişikliyi təşkil edir. Daha konkret olaraq isə dünya miqyasında müəyyən səbəblərdən atmosferin çirklənməsinin kritik həddə yaxınlaşması prosesinin qarşısının alınması təşəbbüsləri ön plana çıxarılır. Bunlar o deməkdir ki, mahiyyətcə COP tədbiri qlobal çağırışlarda dünya miqyasında təşkilatlanmış formada kollektiv reaksiya verə bilməkdən ibarətdir.

Azərbaycanı bu cür qlobal miqyasda aktual olan və bəşəriyyəti əhatə edən çağırış kontekstində fərqləndirmək ciddi əlamətdir. Bu o deməkdir ki, BMT Azərbaycan dövlətinin rəhbərliyinə, aparılan siyasətə və əldə edilən nəticələrə inanır. Həmin bucaq altında da Prezident İlham Əliyevin vurğuladığı "böyük imkan" ifadəsinin siyasi, geosiyasi və diplomatik mənaları aydın olur.

İlham Əliyev məharətli siyasi lider kimi bəşəri miqyasda aktual olan çağırışa müstəqil Azərbaycan üçün böyük imkan aspektində reaksiya verməsi zəruriliyini rəsmi Bakının dərindən dərk etdiyini aydın ifadə etmişdir. Bu məqamda müasir mərhələdə qlobal çağırışları müstəqil dövlətçilik üçün yeni imkanlara çevirmək kimi əhəmiyyətli liderlik özəlliyi ifadəsini tapır. Onun politoloji anlamı vurğuladığımız realpolitika ilə idealpolitikanın gerçəkçi və nəticəverici sintezinə nail olmaqla sıx bağlıdır. Yəni məsələnin nəzəri-politoloji aspektinin aktuallığını inkar etmədən həlledici məqamın liderin real olaraq fəaliyyəti ilə bağlılığını dərk etməyimiz lazımdır.

Real siyasət meydanında qlobal çağırışla müstəqil dövlətin imkanlarının qarşılıqlı əlaqəsində, təbii ki, nəzəri-politoloji məna önəmlidir. Çünki konseptual səviyyədə çağırışla müstəqil milli maraqların uyğunlaşdırılması nümunəsi mütləq olmalıdır. Əslində, dünya miqyasında məhz həmin kontekstdə tədqiqatçılar qlobal çağırışlarla, milli maraqların və qüvvələr balansının harmoniyasının nəzəri modelini hələ müəyyən edə bilməmişlər. Bunun əsas səbəbi kimi politoloji təlimlərdə qüvvələr balansı ilə maraqlar balansı arasında münasibərlərin lazımi səviyyədə konseptuallaşmaması göstərilir. Məhz həmin prizmadan problemə yanaşanda bir liderin praktiki təcrübəsinin önəmini həm də nəzəri-konseptual kontekstdə anlamaq olar. İlham Əliyevin liderlik fəaliyyətinin COP29 fraqmenti buna görə politoloji araşdırma üçün qiymətli mənbədir.

Bəs burada başlıca siyasi-diplomatik məqam nədən ibarətdir?

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

## Təqvim yada salır

**Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamədə elan edilmiş prinsiplər – Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı. 1920-ci ilin yanvarında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanındı.**

# 105 il əvvəl…
# Paris Sülh Konfransında

*Nə yaxşı ki, o zaman Emmanuel Makron yox idi*

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətindən**

**Bakı şəhəri, 29 dekabr 2000-ci il**

Əsas məqsədimizə keçməzdən öncə sərlövhədəki "nə yaxşı ki" ifadəsini azı iki – üç dəfə təkrar eləmək zərurəti yaranır. "Nə yaxşı ki" informasiya texnologiyaları bu şəkildə inkişaf etdirilib və hamımız üçün əlçatandır. "Nə yaxşı ki" Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi mövcuddur və mütəxəssislərimiz oradan istifadə edərək milli tariximizin bütün səhifələri barədə geniş oxucu kütləsinə lazım olan materialları çatdırırlar. "Nə yaxşı ki" son iki əsrdəki ilk müstəqil dövlətimizin beynəlxalq aləmdə tanınması faktının 105 illiyini işğaldan, separatçılıqdan, terrordan, təxribatlardan azad edilmiş qüdrətli Azərbaycan dövlətində, Zəfər bayrağı altında qeyd edirik.

Bu bir faktdır ki, milli tariximizin ən dəyərli səhifələrindən biri Azərbaycan Xalq Cümhuriyyərinin elan edilməsi idi. Ancaq XX əsrin əvvəlləri elə bir dövr idi ki, müstəqilliyini elan etmiş ölkənin öz yolunu davam etdirə bilməsi üçün hansısa hegemon dövlətlərin "razılığı" olmalı idi. Başqa sözlə, bu müstəqillik beynəlxalq aləm tərəfindən tanınmalı idi. Nə yaxşı ki, siyasətçi və diplomatlarımızın yorulmaz və səmərəli

Qafqazda bolşevik təhlükəsi ilə bağlı yaranmış vəziyyət Azərbaycanın və Gürcüstanın müstəqilliyinin tanınmasını təxirəsalınmaz etmişdi. Bu məqsədlə Böyük Britaniyanın təşəbbüsü ilə 1920-ci il yanvarın 10-da Paris Sülh Konfransı Ali Şurasının sessiyası çağırıldı. Müttəfiqlərin Ali Şurası Böyük Britaniyanın xarici işlər naziri Lord Kerzonun təklifi ilə qəbul edilmiş qərarda göstərilirdi ki, "müttəfiq və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini birlikdə de-fakto səviyyəsində tanıyırlar". Bildirilir ki, Yaponiya bu qərara fevralın 7-də qoşulmuş, ABŞ isə qərara qoşulmaqdan rəsmi olaraq imtina etmişdi.

1920-ci il yanvarın 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət edilmiş, Azərbaycanın de-fakto tanınması barədə Paris Sülh



fəaliyyəti nəticəsində gənc müstəqil dövlətimizin dünya ictimaiyyəti tərəfindən tanınmasına da nail olmuşduq. Bu il yanvarın 10-da həmin tanınmanın 105 illiyini qeyd edirik.

…Yuxarıda adını çəkdiyimiz mənbələrə istinad edən alimlər yazırlar ki, çar Rusiyasının süqutundan sonra məhz həmin ərazidə yeni yaranmış müstəqil dövlətlər kimi, Azərbaycan Xalq Cümhuriyyəti də dünya dövlətləri tərəfindən tanınmaq, beynəlxalq birliklərin bərabərhüquqlu üzvü olmaq, respublikanın suverenliyini və ərazi bütövlüyünü təmin etmək baxımından Paris Sülh Konfransına böyük ümid bəsləyirdi.

Xatırladaq ki, Paris Sülh Konfransı (18 yanvar 1919–21 yanvar, 1920-ci il) – Birinci Dünya müharibəsindən sonrakı dünyanın taleyini həll etmək məqsədilə "Antanta" ölkələri və ABŞ-ın Parisdə çağırdıqları böyük sülh toplantısı idi. Tədbirdə 27 ölkə təmsil olunurdu. Məğlub ölkələr və Sovet Rusiyası konfransa dəvət almamışdılar. Konfransda aparıcı rolu "Böyük dördlük" – ABŞ prezidenti Vudro Vilson, Böyük Britaniyanın baş naziri Lloyd Corc və Fransa baş naziri Jorj Klemanso və İtaliya baş naziri Vittorio Orlando oynayırdılar. Məqsəd Almaniya və məğlub dövlətlərlə sülh müqavilələrini hazırlamaq idi.

Qeyd edilir ki, Azərbaycan hökumətinin nümayəndələri Qafqazdakı müttəfiq qoşunlarının komandanlığı ilə danışıqlar zamanı gənc müstəqil dövlətimizin həmin beynəlxalq sülh konfransında iştirakına təminat almışdılar. Üstəlik, general Tomson Azərbaycan hökumətinə yazılı şəkildə bildirmişdi ki, bütün mübahisəli ərazi məsələləri sülh konfransının qərarı ilə həll ediləcəkdir. Beləliklə, 1918-ci il dekabrın 26-da təşkil olunmuş yeni Azərbaycan hökumətinin ilk addımı dekabrın 28-də Paris Sülh Konfransına göndəriləcək nümayəndə heyətinin tərkibini və statusunu müəyyənləşdirmək oldu. Azərbaycan parlamentinin sədri Əlimərdan bəy Topçubaşov sülh konfransına gedəcək heyətin başçısı, Məmməd Həsən Hacınski isə onun müavini təyin edildi.

Tarixi sənədlərdə oxuyuruq ki, 1919-cu ilin dekabrında Əlimərdan bəy Topçubaşov başda olmaqla Versaldakı Azərbaycan diplomatik missiyası Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər Cəmiyyətinə qəbul edilməsi barədə memorandum hazırlayıb cəmiyyətin katibliyinə təqdim etmişdi. Azərbaycan məsələsi Millətlər Cəmiyyətinin üçüncü komissiyasının müzakirəsinə verilmiş, komissiyanın qoyduğu şərtlər daxilində Cənubi Qafqaz respublikaları de-yure tanınmadığı və aralarında ərazi məsələləri sabit olmadığı üçün onların Millətlər Cəmiyyətinə qəbul edilmələri məsələsi müvəqqəti dayandırılmışdı.

Ancaq 1920-ci ilin əvvəllərində Konfransının rəsmi qərarı Əlimərdan bəy Topçubaşova təqdim olunmuşdu. Yəqin ki, diqqətli oxucu buradakı mühüm tarixi faktın fərqinə vardı. Birinci dünya müharibəsində qalib gəlmiş ölkələr Cənubi Qafqazda Azərbaycan və Gürcüstan adlı iki dövlət tanıyırdılar. Ermənistan adlı dövlət isə onlar üçün yox idi. Yəni qədim Azərbaycan torpaqlarında yaradılmış qondarma Ermənistan dövlətinin Cənubi Qafqaza Rusiya tərəfindən sırıdıldığını yazanlar tamamilə haqlıdırlar.

Bildirilir ki, Azərbaycanın müstəqilliyinin de-fakto tanınması barədə məlumatı Azərbaycan hökumətinə Böyük Britaniyanın Qafqazdakı səlahiyyətli nümayəndəsi bildirmişdi. Onun yanvarın 12-də Tiflisdən göndərdyi teleqram alınan kimi Azərbaycan hökumətinin təcili iclası çağırılmış, yanvarın 13-də bu mühüm hadisə barədə hökumət məlumatı elan edilmişdi. Eyni zamanda, yanvarın 14-nün bütün Azərbaycanda bayram günü olduğu bildirilmişdir. Paytaxtda nümayişlərin, Azərbaycan Ordusunun hərbi paradının və Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin təntənəli iclasının keçirilməsi haqqında qərar qəbul edilmişdi. Yanvarın 14-də isə hökumətin sədri Nəsib bəy Yusifbəylinin "Azərbaycan vətəndaşlarına müraciət"i elan olunmuşdu.

Xatırladılmalı başqa bir məqam isə ondan ibarətdir ki, Azərbaycan parlamentinin yanvarın 14-də keçirilən təntənəli iclasında Böyük Britaniya, Gürcüstan, Estoniya və Polşanın diplomatik nümayəndələri də iştirak edirdilər. Təbrik nitqləri, müstəqilliyin tanınması ilə bağlı təbrik teleqramları dinlənildi.

Daha bir mühüm məqama diqqət yetirək. Parlamentin həmin iclasının sonunda ədliyyə naziri Xəlil bəy Xasməmmədov Azərbaycanın müstəqilliyinin tanınması münasibətilə amnistiya elan etmək haqqında hökumətin qərarını oxudu. Bu fakt isə ilk milli dövlətimizin ruhundakı humanizm, insanpərvərlik prinsiplərindən xəbər verirdi.

Bu sətirləri ulu öndər Heydər Əliyevin fikirləri ilə başladığımız kimi, elə onun arqumentləri ilə yekunlaşdırırıq: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

***İttifaq MİRZƏBƏYLİ***



# Azərbaycanın uğurlu COP modeli dünyaya örnəkdir

**(əvvəli 1-ci səhifədə)**

Zaman sübut etdi ki, Azərbaycan bəşəriyyətin, dünya adlı ümumi evimizin tərəqqisi naminə bütün qlobal məsələlərdə həmrəy olmağa qadirdir və bunun üçün kifayət qədər potensiala malikdir. Elə dünya dövlətləri planetimizin gələcəyini təhlükə altına alan karbon emissiyaları ilə mübarizəni prioritet elan edəndə də ölkəmiz bu çağırışa birincilər sırasında qoşulub.

Yeri gəlmişkən, 1992-ci ildə Ümumdünya Yer Sammitində İqlim Dəyişikliyi üzrə BMT-nin Çərçivə Konvensiyası qəbul olunub. Azərbaycan Respublikası Milli Məclisi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını 1995-ci ildə ratifikasiya edib. Bununla ölkəmiz istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yenilənməsi, milli məlumatların hazırlanması kimi öhdəliklər götürüb və bu öhdəlikləri sistemli şəkildə yerinə yetirilib.

1997-ci ildə qəbul edilmiş Kioto protokolu 2008-ci ildən 2012-ci ilə qədər müəyyən ölkələr üçün istixana qazlarının azaldılmasını tənzimləyirdi. 2016-cı il aprelin 22-də isə Paris konfransı zamanı qlobal iqlim dəyişiklikləri ilə mübarizə sahəsində daha mükəmməl bir sənəd qəbul edilib. 16 giriş bəndi və 29 maddədən ibarət qısa müqavilə olan Paris Sazişi prosessual (sənədin qüvvəyə minməsi meyarlarını əhatə edən) və əməliyyat maddələrindən (yumşaldılma, uyğunlaşma və maliyyəni əhatə edən) ibarətdir.

Xatırladaq ki, ölkəmiz Paris Sazişinə 2016-cı ildə imza atıb. Ötən müddətdə sazişin əsas iştirakçılarından birinə çevrilmiş Azərbaycan Respublikası 1990-cı illə müqayisədə istixana qazı emissiyalarını 2030-cu ilə qədər 30 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaqla bağlı milli hədəflərini müəyyənləşdirib. Dünya enerji məkanında gedən proseslərdən geridə qalmamaq üçün isə Azərbaycanın misilsiz potensialı var. Belə ki, təsdiqlənmiş proqnozlara görə, ölkəmizin quru ərazisində 37 qiqavatlıq külək və günəş enerjisi, Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir. Yeri gəlmişkən, Beynəlxalq Maliyyə Korporasiyası da Azərbaycanın Xəzər dənizindəki 157 min meqavatlıq bərpaolunan enerji potensialını yüksək qiymətləndirib.

Məlum olduğu kimi, son illər Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilib. Bu da təsadüfi deyil. Çünki dünyanın neft-qaz ölkəsi kimi tanınan Azərbaycan Avropa İttifaqının prioritet elan etdiyi “yaşıl keçid” platformasının reallaşmasına da mühüm töhfələr verməyə çalışır. 2022-ci ildən etibarən isə ölkəmizdə bərpaolunan enerji layihələrinin icrasına başlanılıb. Artıq 230 meqavatlıq “Qaradağ” Günəş Elektrik Stansiyası tam gücü ilə fəaliyyət göstərir. Bu ilin sonlarında işğaldan azad olunmuş Cəbrayıl rayonunda 240 meqavatlıq “Şəfəq” Günəş Elektrik Stansiyasının, gələn il isə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının istismara verilməsi planlaşdırılır.

Bundan əlavə, ötən il iyunun 4-də Xəzər neft-qaz sərgisi zamanı Prezident İlham Əliyevin iştirakı ilə ümumi gücü 1 qiqavat olan üç böyük layihənin təməli qoyulub. Həmin layihələrə Biləsuvarda 445 meqavatlıq, Neftçalada, Bankə qəsəbəsində 315 meqavatlıq günəş və 240 meqavatlıq “Abşeron–Qaradağ” külək elektrik stansiyaları daxildir. Artıq 760 meqavat gücündə günəş elektrik stansiyalarının tikintisinə başlanılıb. Biləsuvar və Neftçala günəş elektrik stansiyalarının isə 2026-cı ilin ilk rübündə istifadəyə verilməsi planlaşdırılır. Heç şübhəsiz, bütün bunlar Azərbaycan hökumətinin bərpaolunan enerji sektorunun inkişafına verdiyi əhəmiyyətin göstəricisidir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirib ki, ölkəmizin yaşıl gündəliyi qlobal yaşıl keçidə tam uyğundur. Biz artıq bir çox işlər görmüşük və yaxın gələcəkdə nəzərdə tutulmuş çoxsaylı layihələrimiz var.

Heç şübhəsiz, “yaşıl” enerji layihələrinin icrası ölkəmizə olan inamı bir qədər də artırır. Elə COP29 kimi böyük bir tədbirə ev sahibliyinin Azərbaycana həvalə olunması da məhz bu inamdan irəli gəlirdi. Dövlət başçısı müsahibəsində COP29-u ölkəmiz üçün böyük bir çağırış və böyük imkan kimi dəyərləndirərək deyib: “Bizim vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi. Əlbəttə, biz tam dərk edirdik ki, Azərbaycan istixana qazlarının emissiyası baxımından o qədər də böyük paya sahib deyil və bu işdə dünyanın bir araya gəlməsində mühüm rol oynaya bilməz. Lakin hesab etdik ki, beynəlxalq təşkilatlarda fəaliyyət təcrübəsi və şaxələndirilmiş xarici siyasət bizə körpülər qurmaqda yardımçı olacaq”.

Məlum olduğu kimi, 29-cu beynəlxalq iqlim konfransının ölkəmizdə keçirilməsi ilə bağlı qərar 2023-cü il dekabr ayının sonunda BMT-nin İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının Dubayda keçirilmiş 28-ci sessiyasında qəbul olunmuşdu. Belə bir mötəbər tədbirə hazırlaşmaq üçün isə Azərbaycanın cəmi 11 ay vaxtı var idi. Buna baxmayaraq, ölkəmiz hazırlıq işlərinin öhdəsindən layiqincə gələrək konfransa uğurla ev sahibliyi etdi. Yerli televiziya kanallarına müsahibəsi zamanı bu mühüm məqama toxunan dövlətimizin başçısı bildirib ki, 2023-cü ilin dekabrında, COP29-a ev sahibliyi etmək imkanını əldə edən kimi bu mövzunun mahiyyəti ilə daha dərindən məşğul olmağa başladıq: “Səmimi desəm, buna qədər biz prosesdə o qədər də fəal iştirak etmirdik. Bu işdə uğura nail olmaqda ən böyük maneə Qlobal Cənub və Qlobal Şimal arasında olan etimadsızlıqdır – ətraf mühiti ən çox çirkləndirən ölkələr və bundan əziyyət çəkən ölkələr. Biz disbalansı görürük – iqlim dəyişikliyi nəticəsində bəzi ölkələrin mövcudluğu təhlükə altındadır. Emissiya baxımından onların payı 0,1 faizdir, lakin onların, xüsusilə də kiçik ada dövlətlərinin həyatı və gələcəyi təhlükə altındadır. Yəni, biz hazırlıq işlərinə başladıq və Qlobal Cənub çərçivəsində olduqca fəal iş apardıq. Biz 4 il ərzində Qoşulmama Hərəkatında sədrlik etmişik. Bu, böyük uğur idi və üzv dövlətlərin yekdil qərarı ilə bizim sədrliyimiz daha bir il uzadıldı. Eyni zamanda, Avropa siyasətində fəal iştirak edən bir ölkə kimi Azərbaycan Avropa İttifaqının 10 üzv ölkəsi ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb və qəbul edib. Biz hesab etdik ki, bu uğurla nəticələnə bilər”.

Dövlət başçısının qeyd etdiyi kimi, COP29-a uğurla ev sahibliyi etmək üçün hazırlıq və məzmun istiqamətlərində çoxsaylı çətinliklərin olmasına rəğmən,




yekun nəticə bunun bir uğur hekayəsi olduğunu sübut etdi. Cəmi 11 ay ərzində ölkədə hazırlıq işləri yüksək səviyyədə yerinə yetrildi. Beynəlxalq iqlim konfransının keçirilməsi üçün paytaxtımızda ideal məkan yaradıldı. Bakı Olimpiya Stadionunun ərazisində nəhəng qurğular inşa edildi, 200 min kvadratmetrə yaxın qapalı arena konfrans iştirakçılarının ixtiyarına verildi. Eyni zamanda, logistika, nəqliyyat, yerləşmə, mehmanxanaların sertifikatlaşdırılması, qonaqların yerləşdirilməsi üçün yerlər müəyyənləşdirildi. Bütün bunların nəticəsi idi ki, COP29-da iştirak etmək üçün qeydiyyatdan keçmiş 197 ölkədən olan 76 min iştirakçı Azərbaycanın yüksək səviyyəli hazırlığından tam məmnun qaldı.

Bununla belə, ölkəmizin uğurlarını gözü götürməyən bəzi beynəlxalq qüvvələr tədbirdən öncə yersiz boykot cəhdləri ilə çıxış etdilər. Prezident İlham Əliyev məlum müsahibəsində bu barədə söhbət açaraq deyib: “Bu, olduqca gözlənilməz idi. Hesab edirəm ki, bu tədbirə ev sahibliyi etmiş heç bir ölkə bu dərəcədə müqavimətə rast gəlməmişdir. Lakin biz bunun da öhdəsindən gələ bildik. Boykot uğursuz oldu. Baxmayaraq ki, bəzi ölkələr, xüsusilə də Fransa əlindən gələni edirdi ki, tədbiri gözdən salsın. Həmkarlarımdan aldığım məlumata görə, Fransa prezidenti şəxsən onlara zəng edərək Bakıya getməməyi tövsiyə edirmiş. Yəni, liderlərin buraya səfər etmələrinin qarşısını almaq üçün hətta belə vasitəyə də əl atılmışdır. Lakin bu da uğursuz oldu. Səksən dövlət və hökumət başçısı Bakıya səfərə gəldi və bu, bir daha Azərbaycanın etibarlı tərəfdaş olduğunu nümayiş etdirdi”.

Bununla yanaşı, dövlət başçısı Bakı iqlim konfransının Avropa Komissiyası prezidentinin iştirak etmədiyi ilk COP olduğunu diqqətə çatdıraraq deyib ki, bu, gözlənilməz olsa da, bir neçə ay əvvəl onun paytaxtımıza gələcəyi təsdiq edilmişdi. Prezidentin vurğuladığı kimi, COP29 çərçivəsində Avropa Komissiyasının təşəbbüsü əsasında Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya liderlərinin iştirakı ilə “yaşıl” kabel layihəsinə həsr edilmiş xüsusi sessiyanın təşkili də nəzərdə tutulmuşdu. Avropa Komissiyasının bu addımını COP29-un keçirilməsinə xələl gətirmədiyini vurğulayan Prezident İlham Əliyev COP-a üzv olan tərəf kimi Avropa Komissiyasının iştirak etməməsinin çoxsaylı suallar doğurduğunu diqqətə çatdırıb. Bununla belə, dövlət başçısı BMT-nin Baş katibinin COP29-un açılışında və bağlanışında iştirak etmək üçün Azərbaycana iki dəfə səfər etməsinin təqdirəlayiq addım hesab edib.

Ölkə Prezidenti yerli televiziya kanallarına müsahibəsində COP29-un uğurlu nəticələrini bir daha şərh edərək bildirib ki, çoxları bunu Bakı nailiyyəti adlandırır: “Mən bununla razıyam. Çünki, təqribən, 10 il ərzində tərəflər karbon bazarı ilə bağlı razılığa gələ bilmirdi və COP-un ilk günlərində artıq uğur əldə edildi – karbon bazarına dair Paris Sazişinin 6-cı maddəsi üzrə razılıq əldə edildi. Bu, əhəmiyyətli uğur idi və hər kəs bundan məmnun qaldı. Yəni, on il ərzində razılaşdırıla bilinməyən məsələ Bakıda öz həllini tapdı”.

Heç şübhəsiz, Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29-dan gözləntilər olduqca yüksək idi. Xüsusən iqlim maliyyələşdirilməsi ilə bağlı Bakı konfransına böyük ümid bəslənilirdi. Bu səbəbdən də Bakı iqlim konfransının əsas mövzularından biri maliyyələşmə məsələsi idi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, gözləntilər 1 trilyon dollar civarında olsa da, bu, tamamilə qeyri-real rəqəm idi: “Nailiyyət isə ondan ibarət oldu ki, biz qarşıdan gələn illər üçün nəzərdə tutulmuş məbləği 3 dəfə artıra bildik. Çünki COP29-dan əvvəl razılaşdırılmış rəqəm 100 milyard dollar idi. Burada – Bakıda biz onu 300 milyard dollara çatdırdıq. Yəni, kimsə iddia edirsə ki, bu, uğursuzluq idi, bu, ədalətsizlikdir. Bu, nailiyyət idi və bu, gələcək üçün bir miras oldu”.

Bütövlükdə isə, Azərbaycan COP29-da 14 təşəbbüs irəli sürüb. Bu amilin də ölkəmizin iqlim məsələsinə nə qədər ciddi yanaşdığının bariz nümunəsi idi. Bütövlükdə, ölkəmizin COP-la bağlı uğurlu model yaradılmasına nail olduğunu vurğulayan Prezident İlham Əliyev müsahibəsində bu məqama toxunaraq qeyd edib ki, digər COP tədbirlərində istifadə olunacaq daha bir miras hazırkı, keçmiş və gələcək COP-a ev sahibliyi edən ölkələr arasında “Troyka” mexanizmidir. Bunun bir sinerji yaratdığını vurğulayan dövlət başçısının sözlərinə görə, Azərbaycan Birləşmiş Ərəb Əmirliklərinin təcrübəsindən istifadə etdi. Bu il Braziliyada keçiriləcək COP30 zamanı isə son iki iqlim konfransının əldə etdiyi təcrübələrə yeni uğurlar əlavə olunacaq.

***M.YAQUBZADƏ***
***XQ***

# Minimum əməkhaqqı artımı ümumi rifahı yüksəldəcək



## Bununla iqtisadi sektorlarda maaşlar da artacaq

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi dövlət başçısının “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” Sərəncamı ilə 2025-ci ilin yanvar ayından reallaşan növbəti sosial islahatlara həsr olunan “İslahat icmalı” hazırlayıb.**

Mərkəzin iqtisadi təhlil şöbəsinin müdir müavini Elnur Ələkbərov bununla bağlı bildirib ki, 3 milyon nəfəri əhatə edəcək sosial paket 2019-cu ildən indiyədək qəbul edilən 5-ci sosial islahat zərfidir. Yeni sosial paket əvvəlki islahatların məntiqi davamı olaraq əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının yaxşılaşdırılması məqsədi daşıyır. Sosial islahatlar əməkhaqqı artımlarını, pensiya, sosial müavinət və təqaüdlərin artırılması tədbirlərini nəzərdə tutur.

Elnur Ələkbərovun sözlərinə görə, ümumilikdə, bu islahatlar çərçivəsində 700 min və daha çox vətəndaş əməkhaqqı, təxminən, 1,1 milyon nəfər pensiya, 1,2 milyon nəfər isə sosial müavinət və təqaüd artımlarından faydalanacaq. Bu tədbirlər daha çox aztəminatlı ailələr üçün əhəmiyyətli olacaq, onların maddi vəziyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərəcək və müxtəlif iqtisadi sektorlarda orta aylıq nominal əməkhaqlarının yüksəlməsinə səbəb olacaq.

Qeyd edək ki, Prezident İlham Əliyev ötən il dekabrın 23-də “Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” Sərəncam imzalayıb. Sənədə əsasən, Azərbaycanda minimum aylıq əməkhaqqının məbləği yanvarın 1-dən 400 manat müəyyən edilib.

Minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən adıçəkilən sərəncam imzalananadək isə 345 manat olub.

***XQ***

# Türk dövlətlərinin qlobal həmrəyliyi

## Birgə ÜDM 1,5 trilyon dollara çatıb

(əvvəli 1-ci səhifədə)

O, eyni zamanda, dövlət başçısının bəyanatının türk dünyasının potensialını tam şəkildə üzə çıxarmaq və iqtisadi inteqrasiyanı sürətləndirmək məqsədi daşıdığını diqqətə çatdırıb.

V. Cəfərovanın sözlərinə görə, Şərq–Qərb, Şimal–Cənub nəqliyyat və kommunikasiya xətlərinin qovşağında yerləşən, Avrasiyanın mərkəzində geniş coğrafiyaya, zəngin təbii sərvətlərə malik olan və eyni etnik mənsubiyyətin şərtləndirdiyi bu təşkilat türk dövlətlərinin qlobal proseslərə təsirini möhkəmləndirir. TDT dövlətlərində ötən ilin 9 ayı ərzində orta hesabla 4,5 faiz iqtisadi artımın qeydə alınması və bu artımın qlobal orta ümumi daxili məhsul (ÜDM) artımını, təxminən, 2 dəfə üstələməsi regionun iqtisadi gücünün möhkəmləndiyini bir daha sübut edir.

Həmin dövrdə TDT üzv ölkələrinin birgə ÜDM-i, təxminən, 1,456 trilyon ABŞ dolları təşkil edib ki, bu, qlobal ÜDM-in 2,7 faizini təşkil edir. Bununla yanaşı, sözügedən müddətdə TDT üzv dövlətlərinin ümumi ticarət dövriyyəsi 868 milyard ABŞ dollarına çatmaqla qlobal ticarət həcminin 3,37 faizi həcmində qiymətləndirilir ki, bu da regiondaxili iqtisadi əlaqələrin gücləndiyini və ticarət dinamikasında artımı göstərir.

Mərkəz rəhbəri əlavə edib ki, 2021-ci ildə qəbul olunan "Türk Dünyası 2040 Vizyonu" və xüsusilə "TDT-nin 2022-2026 illər üzrə Strateji Yol Xəritəsi" iqtisadi inteqrasiyanın dərinləşdirilməsini, ticarət maneələrinin aradan qaldırılmasını və infrastruktur layihələrinin inkişafını əsas məqsəd kimi qarşıya qoyur. Nəqliyyat və enerji sektorlarında əməkdaşlıq bu sənədin prioritet sahələrindəndir və həm regional, həm də beynəlxalq ticarətin artırılmasına xidmət edir.

Bişkek şəhərində TDT Dövlət Başçılarının "Türk Dünyasının gücləndirilməsi: iqtisadi inteqrasiya, davamlı inkişaf, rəqəmsal gələcək və hamı üçün təhlükəsizlik" şüarı altında keçirilən 11-ci Zirvə görüşündə "Birləşmiş Dayanıqlı Gələcək" qətnaməsinin qəbul edilməsi Türk Dünyasının birliyini gücləndirmək və qarşılıqlı əməkdaşlığı artırmaq baxımından mühüm mərhələ idi.

Türk dövlətləri arasında xüsusilə bərpa olunan enerji sahəsində əməkdaşlıq strateji əhəmiyyət kəsb edir. Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Bakıda COP29 tədbirində "yaşıl" enerji sahəsində bağlanmış strateji tərəfdaşlıq sazişi, Xəzər dənizinin altından keçirilməsi planlaşdırılan bərpa olunan enerji kabeli layihəsinin icrası Türk Dünyası ölkələrinin qlobal enerji bazarlarında önəmli yer tutmasını gerçəkləşdirə bilər. Prezident İlham Əliyev bu əməkdaşlığın təkcə bu 3 ölkə üçün deyil, həm də Avropa və digər regionlar üçün strateji əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr Türk Dünyasının inteqrasiyası üçün əsas təməl daşıdır. 2023-cü ildə ticarət dövriyyəsi 8 milyard ABŞ dolları olub, Azərbaycanın Türkiyəyə etdiyi yatırımlar isə 20 milyard dolları keçib. Bu əməkdaşlıq Cənub Qaz Dəhlizinin inkişafı ilə regionun qlobal ticarət şəbəkələrinə inteqrasiyasını sürətləndirir.

V. Cəfərova daha sonra qeyd edib ki, Türk dövlətləri arasında kapital axını da artmaqdadır. Azərbaycan son 20 ildə, xüsusən neft və qaz sahələrində əhəmiyyətli xarici sərmayə cəlb edib. G20 üzvü olan Türkiyə isə Avropa və Asiya bazarlarından kapital cəlb edərək regional iqtisadiyyata töhfə verib. Mərkəzi Asiya ölkələri, xüsusən Qazaxıstan, Özbəkistan və Türkmənistan bazar islahatları və sənayeləşmə ilə bu prosesdə önə çıxıb.

Turan Xüsusi İqtisadi Zonası (XİZ) layihəsi Türk dövlətləri arasında ticarət və sərmayə əlaqələrini gücləndirəcək və regionda yeni inkişaf perspektivləri açacaq. Bu zonada yüksək texnologiya, logistika və istehsalat sahələrinə sərmayə cəlb edilməsi iqtisadi diversifikasiya strategiyaları ilə uyğunlaşır.

Türk Dünyasının iqtisadi inteqrasiyasında Orta Dəhlizin əhəmiyyətini vurğulayan V. Cəfərova bildirib ki, bu dəhliz region ölkələrinin qlobal ticarət şəbəkələrinə qoşulmasını sürətləndirir və yeni ticarət yollarının açılmasına şərait yaradır. Dünya Bankının hesablamalarına görə, növbəti onillikdə Orta Dəhlizin inkişaf potensialı əhəmiyyətli dərəcədə artacaq və 2030-cu ilə qədər Çinin qərb sərhədindən Avropaya qədər olan səyahət vaxtı 2 dəfə azalacaq, yük daşımalarının həcmi 3 dəfə artaraq 11 milyon tona çatacaq. Bu baxımdan Zəngəzur dəhlizinin açılması Orta Dəhliz üçün əlavə strateji önəm kəsb edir. Çünki bu dəhliz ən qısa məsafə ilə əlaqəni təmin edərək həm regional, həm də beynəlxalq ticarətin daha da inkişafını sürətləndirəcək.



Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılmasının Türk Dünyasında iqtisadi əlaqələri daha da möhkəmləndirəcəyini qeyd edib. Bu dəhliz təkcə region ölkələrinin deyil, həm də Avropaya və daha geniş bazarlara çıxışı asanlaşdıracaq Orta Dəhlizin əhəmiyyətli "hub"ına çevrilmək potensialına malikdir. Dövlətimizin başçısının vurğuladığı kimi, Türk Dünyasını geniş coğrafiya, insan resursları, təbii sərvətlər, nəqliyyat–kommunikasiya xətləri və birlik birləşdirir ki, bu faktorlar ümumi iqtisadi inkişafı sürətləndirəcək və qarşılıqlı faydalı əməkdaşlığı artıracaq.

Qeyd edək ki, TDT-nin 2009-cu ildə Naxçıvan şəhərində keçirilən Zirvə görüşündən indiyədək qurum səmərəli bir inkişaf yolu keçib. Ötən müddətdə TDT 160 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyada və qlobal miqyasda güclü təşkilat kimi tanınıb. Prezident İlham Əliyevin TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan edib. Dövlətimizin başçısı ötən il fevralın 14-də yenidən ölkə Prezidenti seçilməsi münasibətilə keçirilən andiçmə mərasimindəki çıxışında bu quruma üzv bütün ölkələrlə qardaşlıq münasibətləri olduğunu və dövlət siyasətimizin bu təşkilatı gücləndirmək məqsədi daşıdığını bildirib.

Prezident İlham Əliyev daha sonra vurğulayıb: "İslam Əməkdaşlıq Təşkilatı da həmişə – həm işğal dövründə, həm işğaldan sonra, həm də İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı zamanı və ondan sonra Azərbaycanın yanında olub. Azərbaycan bu təşkilatın dəyərli üzvüdür". Bu, Prezident İlham Əliyevin türk dünyasına verdiyi xüsusi önəmin, türk dövlətləri ilə əməkdaşlığın Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olmasının, eləcə də türk birliyi və həmrəyliyinin, TDT-nin bundan sonra da inkişaf edərək möhkəmləndirilməsinə əminliyin parlaq ifadəsidir.

Vətən müharibəsindən dərhal sonra qarşıya düşməndən təmizlənən torpaqlarda yaşayış məntəqələri salmaq, kənd təsərrüfatına yararlı sahələri minalardan təmizləyərək rəqəmsal və ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaq kimi önəmli bir vəzifə qoyulub. TDT ölkələrinin iş adamlarında dost təəssübkeşliyinə əsaslanaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında investisiya imkanları ilə tanış olmaq və bu coğrafiyada ən yaxşı təcrübə və texnologiyaları tətbiq etmək marağı da buradan irəli gəlib.

Hazırda Azərbaycan dövlətinin gələcəyə yönələn əsas hədəfi işğaldan azad olunan əraziləri bərpa edərək həmin torpaqların dəyər zəncirinə inteqrasiyasını təmin etməkdir. Bu gün düşməndən təmizlənən yaşayış sahələrində böyük miqyasda bərpa-quruculuq işləri aparılır, minalar təmizlənir, yeni yollar, "ağıllı şəhər" və "ağıllı kənd"lər salınır. TDT-yə üzv ölkələr, xüsusilə, qardaş Türkiyə tərəfindən bu prosesdə fəal iştirak etmək diqqətdə saxlanılır.

TDT-nin Azərbaycana etimadı, diqqəti həm də respublikamızın dünya ölkələri üçün hazırda prioritetə çevrilən iqlim dəyişikliyi, su və torpaq ehtiyatlarının azalması, yüksək səviyyəli urbanizasiya kimi problemlərlə üzləşdiyi bir vaxtda respublikamızın bu çağırışlara biganə qalmaması ilə əlaqədardır. Çünki TDT üzv ölkələrdə, eləcə də Azərbaycanda yeni texnologiya və həllərin tətbiqi istiqamətində təcrübə mübadiləsi aparmaqla dayanıqlı inkişafa maraqlıdır.

# Ağdam Sənaye Parkı genişlənir

***Burada 97 milyon manat investisiya ilə 380 nəfərlik daimi iş yeri yaradılıb***



**İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə yaradılan Ağdam Sənaye Parkının qarşısında işğaldan azad edilmiş ərazilərin bərpası, sənaye potensialının inkişaf etdirilməsi, ən əsası isə Qarabağa köçürülən əhalinin məşğulluğunun təmin olunması mühüm vəzifələr kimi qoyulub.**

Parkda indiyədək ümumi investisiyaların həcmi 271 milyon manat olan 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Sənaye zonasında, ümumilikdə, 2 min 400-dən çox iş yerinin yaradılması nəzərdə tutulub. Hazırda burada görülən işlərə 97 milyon manata yaxın investisiya yatırılıb, 380 nəfərlik daimi iş yeri yaradılıb.

Bu gün sənaye parkında 9 müəssisə fəaliyyət göstərir. Burada istehsal edilən məhsullardan işğaldan azad olunan ərazilərdə aparılan tikinti-quraşdırma işlərində istifadə edilməklə yanaşı, daxili bazarda da satışı həyata keçirilir. Artıq ixrac istiqamətində də uğura imza atılıb. Belə ki, sənaye parkında istehsal edilən divar kağızlarının Gürcüstana ixracı həyata keçirilib ki, bu da ölkəmizin divar kağızı istiqamətində xaricə ilk satışıdır. Bundan başqa müəssisə tərəfindən MDB ölkələrinə, Türkiyə, İraq və s. ölkələrə divar kağızlarının ixracı istiqamətində danışıqlar aparılır.

Sənaye parkının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunublar.

Ağdam Sənaye Parkında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma aiddir.

# 6 KOB "Startap" şəhadətnaməsi aldı

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən daha 6 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib. Bununla da "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 188-ə çatıb.**

KOBİA-dan "XQ"-yə verilən məlumata əsasən, "Startap" şəhadətnamələri "Sampler" MMC-nin onlayn marketinq platforması, "Professor Rahimov Academic Medical Center" MMC-nin proqram təminatı, fərdi sahibkar Aytac Mütəllimovanın özünəxidmət köşkləri, "Vita Travel" MMC-nin onlayn platforma, "Suber" MMC-nin mobil tətbiq, "Buylink" MMC-nin rəqəmsal tövsiyə proqramları üçün marketinq tətbiqi layihələrinə təqdim edilib.

KOB subyektləri şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edilir.




**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti aparılan bazar araşdırmalarının nəticəsində "Capital Maritime and Trading Corp" gəmiçilik şirkətinin istismarında olan məhdudiyyətsiz üzmə imkanlarına malik "Aframax" tipli növbəti tankerini donanmasına daxil edib. Tankerin təhvil-təslimi ilə bağlı AXDG və "Capital Maritime and Trading Corp" şirkətinin nümayəndələri arasında müvafiq sənədlər imzalanıb.**

# Bir tankerimiz də beynəlxalq yükdaşımalara qoşulub



Gəmiçilikdən verilən məlumata görə, yeni tankerin yükgötürmə qabiliyyəti (dedveyti) 115 min 500 ton, uzunluğu 249,95 metr, eni 44 metr, bortunun hündürlüyü isə 21,2 metrdir. Sürəti 16 uzelə çatan gəmi neft və neft məhsullarının təhlükəsiz və səmərəli daşınmasını təmin etmək üçün ən son standartlara uyğun tikilib. Ekoloji baxımdan beynəlxalq tələblərə cavab verən tanker yanacaq sərfiyyatında qənaətcildir və yüksək təhlükəsizlik sistemləri ilə təchiz edilib.

Qeyd edək ki, 100 faiz AXDG-yə məxsus "Aframax" tipli tankerin alınması layihəsi qurumun mənfəəti, daxili bazarda buraxdığı istiqrazlardan əldə olunmuş vəsait və yerli banklardan cəlb edilmiş kredit hesabına maliyyələşdirilib. Gəmi müqavilə əsasında 3 illik müddətə Braziliyanın milli neft-qaz şirkəti olan "Petrobras"a taym-çarterə verilib. Beləliklə, onun həmin dövrdə istismarı təmin edilib. Təhvil-təslimdən sonra tanker ilk yükünü Braziliyadan Sinqapur və Malayziyaya çatdırıb. Yaxın günlərdə isə onun Malayziyadan Səudiyyə Ərəbistanına doğru növbəti səfəri planlaşdırılır.

2023-cü ildən indiyədək beynəlxalq sularda 5-i "Aframax" tipli tanker, 2-si "Handysize" tipli quru yük gəmisi olmaqla, ümumilikdə, 7 iritutumlu gəmi istifadəyə verilib. "Aframax" tipli tankerlərdən 4-ü AXDG və ARDNŞ tərəfindən yaradılan birgə müəssisə tərəfindən alınıb. "Xəzərdənkənar hövzələrdə fəaliyyətin genişləndirilməsi və bununla da, yerli gəmiçilik xidmətlərinin ixracı ilə ölkəyə kənardan daxilolmalara töhfə verilməsi AXDG-nin əsas hədəflərindən biridir və bu istiqamətdə fəaliyyət növbəti dövrlərdə də davam etdiriləcək", – deyə məlumatda bildirilib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Hay nasizmi faşizmdən 30 il əvvəl yaranıb

## *Yaxud müasir erməni irqçiliyinin tarixi kökləri və özəllikləri*

**Erməni millətçiliyinin əsasını XIX əsrdə Grigori Artsruni qoyub. O, Tiflisdə nəşr etdirdiyi “Mşak”(Rəncbər) adlı qəzetdə Osmanlı idarəçiliyindəki erməniləri üsyana səsləyirdi. Yazdığı məqalə və kitablarında Artsruni türkləri, kürdləri və müsəlmanları alçaldır, ələ salırdı. Erməni ideoloqlarının həmin illərdəki nəşrlərində yaşadığı ölkəyə qarşı xaricdən dəstək almaq, fanatik və təcavüzkar düşüncələr təbliğ olunurdu. Artsruni 1879-cu il mayın 11-də Tiflisdə “İş adamları klubu”nda çıxışına “Bu qədər geniş mədəni qabiliyyətləri olan ermənilər nə üçün özlərindən min qat geri qalan barbar boylar üzərində hakimiyyətə nail olmayıblar?” sualıyla başlayır və deyirdi ki, ermənilər qonşu millətlərin hamısından, hətta xristian millətlərdən tamamilə fərqlənir və mədəni qabiliyyətləri ilə seçilirlər: “Digər millətlər sonda o qənaətə gələrək erməniləri özlərinə rəhbər seçəcəklər. Çünki erməni ağlı və qabiliyyəti ilə onların hamısından üstündür”.**



Artsruni bir əsərində türkləri və kürdləri qiymətləndirərkən yazırdı: “Nə türklərin, nə də vəhşi kürdlərin keçmişi, tarixi, ədəbiyyatı, məktəbləri, iqtisadi istehsal ruhu və iş qabiliyyəti var. Təbiət bütün xalqlara eyni cür qabiliyyətə sahib beyin verməyib. Türklərin və kürdlərin mədəniyyətə və sənətə meyilləri yoxdur. Dilləri var, ancaq çox geri və primitivdir. Bu dillərdə ən yaxşı ehtimalla orta məktəb təhsili verilə bilər”.

Hay “tarixçisinə” görə, mədəni “ari və semit irqləri” sırasında olan ermənilər Kiçik Asiyada bu xüsusiyyətlərinə görə qəsdən barbarların idarəsi altına verilib. Avropa səhvini düzəltməlidir.

Artsruni erməni millətçiliyinin ideoloji təməllərini qoyduğu kitablarında kürdlərin əsas məşğuliyyətlərinin oğurluq, talançılıq olduğunu bildirir. “Ermənilərlə birlikdə yaşayan kürdlər hər zaman onların xidmətində çalışmış, hətta müsəlman olsalar da, erməni kilsəsinə gəlib “anlamazlıqlarından” peşman ol-



duqlarını ilə bağlı dualar etmişlər” – yazan Artsruniyə görə, kürdlər üçün din anlayışı yoxdur: “Kürdlər ermənilərin ən etibarlı əlaltısı olub, ancaq əllərinə fürsət düşən kimi xidmət elədiyi ağasının evini yağmalamış, onu öldürmüş, həyat yoldaşına, qızlarına təcavüz etmiş, malmülkünü talamış və yandırmışlar”.

Türklərə gəlincə, Artsruniyə görə, onlar tənbəl və kütbeyindirlər və ermənilərin hesabına yaşamışlar: “Kasıb və ya varlı, fərqi yoxdur, türk qadını kişilərin ehtirasını söndürmək və hərəmlərini bəzəmək üçün doğulmuşlar. Müsəlmanlar arasında nə bir usta var, nə də qabiliyyətli bir fəhlə. Ermənilər çalışqan bir xalqdır, müsəlmanlar isə bunun tam tərsidir. Göründüyü kimi, ermənilər bir tərəfdən quldur kürdlərlə, digər tərəfdən tənbəl, rüşvətxor türklərlə əhatə olunublar”.

Artsruninin “Ekonomiçeskoye polojeniye turetskix armyan” (“Türkiyə ermənilərinin iqtisadi durumu”) kitabını yazmaqda məqsədi dünyanın, xüsusən Rusiyanın diqqətini Türkiyə ermənilərinin yaşadığı bölgənin təbii zənginliklərinə və böyük iqtisadi potensialına çəkmək olub. Bu kitabla Artsruni ermənilərin özlərini də bu sərvətlərə sahib olmaq üçün üsyana çağırır. Kitabda “zalım müsəlmanlara qarşı qisas duyğularını oyandırmaq niyyəti” açıq bildirilir.

Grigori Artsruni nəşr etdirdiyi “Mşak” qəzetini bu ideologiyanın yayılmasında vacib vasitə olaraq istifadə edib. O, bu qəzetə öz həmfikirlərini – Raffini, Arpiar Arpiaryanı, Leonu, Mkrtıç Portukalyanı, Mikael Varandyanı cəlb edərək irqçi ideologiyanı yaymaq üçün onların yazılarından faydalanıb. 1880-ci illərdə erməni ideoloji hərəkatındakı önəmli şəxslər bu qəzetə yazılar göndərirdilər. O dövrdə erməni milli ideologiyası məhz bu qəzetin ətrafında formalaşırdı.

Bu, anti-türk ovqatını dərinləşdirən açıq düşmənçilik ideologiyası idi. Ermənilərin Cənubi Qafqazdakı ərazi iddialarının ideoloji təməlləri o illərdə quyulub. Yaranan erməni milli komitə və təşkilatları, siyasi partiyaların ideoloji qaynağı “Mşak” qəzetində formalaşdırılan erməni milliyətçiliyi idi. 1885-ci ildə Fransada yaranmış "Armenakan", 1887-ci ildə Cenevrədə yaradılan "Hnçak" və 1890-cı ildə Tiflisdə əsası qoyulan "Daşnaksütyun" millətçi partiyalarının ideya istiqaməti Artsruni və onun ardıcıllarının nəzəriyyəsindən qaynaqlanırdı. Bu partiyalar Osmanlı İmperiyası və İrandan qaçmış ermənilərin yaşadığı əraziləri birləşdirmək üçün bütün vasitələrdən, ən əsası isə qiyam və terror aktlarından geniş istifadə etməyi qarşılarına məqsəd qoymuşdular. Müxtəlif ərazilərdə erməni quldur qrupları üsyana başlamışdılar. “Mşak”da gedən yazılarda bütün ermənilər bu üsyana təşviq olunurdu. “Hnçak” partiyasının proqramında bu fikir xüsusi vurğulanırdı: "Bütün şəraitlərdə türkləri və kürdləri məhv etmək və öz xalqının rifahına xəyanət etmiş ermənilərə aman verməyərək onlardan qisas almaq" (Hnçak” partiyasının proqramı, “Hnçak” qəzeti, 23 may 1893-cü il).

Artsruninin irəli sürdüyü ideyalar daşnakizmin də əsasını təşkil edir. Karinyanın daşnakizmin “Əsas İncili” kimi xarakterizə edilən “Ekonomiçeskoye polojeniye turetskix armyan” kitabı ilə təcavüzkar erməni millətçiliyinin nəzəri cəhətdən ortaya çıxdığının şahidi oluruq.

“Daşnaksütyun” heç də “Hnçak” partiyasından fərqli deyildi. O da nasist tipli partiya kimi Almaniya Milli Sosialist Partiyasının ideologiyasını onlardan 30 il əvvəl formalaşdırmışdı. Partiyanın hədəflərinə çatmaq proqramında bunlar vardı: 1) silahlı qiyam; 2) yalnız ermənilər arasında yox, bütün xalqlar arasında inqilabi fikrin formalaşması üçün intensiv iş aparmaq; 3) ermənilərin silahlanması və təşkilatlanması; 4) hökumət adamlarının fiziki cəhətdən aradan götürülməsi, terror.

**(ardı var)**

***Qfi ıı ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

**Epidemioloji durum**

# “65 yaşlı” virus yenidən peyda olub

## *Pandemiya təhlükəsi isə yoxdur*

**Yeni ilin ilk günlərində Çin Xalq Respublikasının Xəstəliklərə Nəzarət və Profilaktika İdarəsi insan metapnevmovirusunun (HMPV) geniş yayılması barədə məlumat verib.**

Eyni zamanda, Ermənistanın Xəstəliklərə Nəzarət və Qarşısının Alınması üzrə Milli Mərkəzi də bildirib ki, ölkədə həyata keçirilən epidemioloji sistem çərçivəsində aparılan laboratoriya müayinələri nəticəsində 2023-cü ildə 10, 2024-cü ilin yanvar–aprel aylarında isə 50 metapnevmovirusa yoluxma halı müəyyən edilib. Aprel ayından indiyədək aparılan laborator müayinələrlə metapnevmovirus aşkar edilməyib. Simptomları bütün kəskin respirator infeksiyalara xas olan virus insanlar arasında təşviş yaradıb. Gün keçdikcə yoluxmalar haqqında yeni xəbərlər yayılır. Son vaxtlar ölkəmizdə də, həm uşaqlar, həm də böyüklər arasında viral infeksiyaya yoluxmada kəskin artım müşahidə olunur.

**İnfeksiya ilə bağlı Tibb Universitetinin professoru, tibb elmləri doktoru Musa Qəniyevdən metapnevmovirus barədə elmi-tibbi açıqlama verməsini xahiş etdik. Professor bugünkü durumun hələ 5 iyun 2023-cü ildə onun etdiyi xəbərdarlığı təsdiqlədiyini söylədi:**

– Elmi təhlil DNT və ya RNT əsaslı epidemik xarakterli viral infeksiyanın növbəti dalğasının 2024-cü ilin payızın son, daha böyük ehtimalla isə 2025-ci ilin ilk (yanvar– fevral) aylarına təsadüf edəcəyini mütləq şəkildə təsdiq edir.

Bəli, dekabr ayından başlayaraq öskürək, yüksək temperatur, “kataral vəziyyət”, səsin tutulması, halsızlıq, bütün bədəni bürüyən ağrı ilə müşahidə olunan viral infeksiya, demək olar ki, hər bir evin, ailənin arzuolunmaz qonağıdır. Bununla bağlı kəskin bronxit və pnevmoniya kimi ağırlaşmaların da artdığı sirr deyildir.

Həmvətənlərimizi ən çox narahat edən, son günlər Çində eyni klinik simptomlar verən yeni bir virusun – metapnevmovirusun epidemik xarakterli artımı və bunun, ölkəmiz də daxil olmaqla, dünyaya yayılaraq yeni bir pandemiyaya səbəb olma qorxusudur. Digər xüsusi narahatlığa səbəb olan hal isə dekabr ayının sonunda Tayvandda Money UDN nəşrində bu virusunun letallıq əmsalının 43 faizə yaxın olması haqqında söylənilən iddiadır. Yəni infeksiyaya yoluxanların düzgün müalicə almaması, yaxud yanaşı xəstəlikləri olması səbəbindən 43 faizi dünyasını dəyişir.

Rəsmi olaraq ölkəmizdə bu virusa yoluxmanın qeydə alınmadığı bildirilir. Əvvəla, unutmamalıyıq ki, biz sərhədlərin şəffaflaşdığı qloballaşan bir dünyada yaşayırıq. Odur ki, dünən dünyanın istənilən bir nöqtəsində hər hansı bir viral infeksiyaya yoluxma halı baş veribsə, sabah onun ölkəmizə və ya dünyanın istənilən bir yerinə daşına biləcəyi mümkündür. Bu səbəbdən də bu və ya digər infeksiya qonşu ölkələrdə var, hələ bizdə yoxdur və ya olmayacaq demək yanlışlıqdır.

**– Yəni, yeni virusun ölkəmizə də gəlib çıxması gözlənilir?**



– Gəlin, öncə, metapnevmovirus haqqında danışaq. Əvvəla, bu heç də söylənildiyi kimi yeni bir virus deyil. O, tənəffüs yolu infeksiyası törədə bilən və ümumi sayı 200-dən artıq olan virus ailəsi üzvlərindən biridir. Bu virus 2001-ci ildən, yəni Niderlandda 28 nəfər uşağın bu virusa yoluxduğu tarixdən deyil, 1959-cu ildən – yəni düz 65 ildir ki, yol gəlir. İki genotip (A və B) və hər birinin iki subtipi olan bu virus dünyanın hər yerində var. Cinsindən və irqindən asılı omayaraq, insanlar arasında bu virusa yoluxma daim baş verib və yenə müşahidə edirik. Yoluxmanın fəsli sıçrayışlarına gəlincə isə bu, təbii və qanunauyğun bir haldır.



Virusun genom quruluşunda istər nöqtə, istərsə də xromosom parçalarının ayrılması kimi daha ciddi mutasiyalar indiyədək müşahidə edilməmişdir. Virusun genom quruluşunda nukleinlərin sıralanma ardıcıllığı isə, təqribən, 43 faiz nisbətində eyni ailədən olan respirator– sinsitial viruslarda (tənəffüs yolu infeksiyası törədən) olduğu kimidir.

Virusun xüsusən uşaqlar və yaşlı şəxslər üçün qorxulu olması tamamilə səhv iddiadır. Qəti şəkildə bildirirəm ki, bütün yaş qrupunda olan insanlar bu virusa həssasdır, yoluxa bilər və yoluxur.

Uşaqlara gəlincə, birincili uşaqlıq yaş dövrünün sonuna qədər (6 yaş) əksər, ikincili yaş dövrünün (9–10 yaş) sonuna qədər isə bütün uşaqlar metapnevmovirus infeksiyasına yoluxur və sağalırlar. Yəni burada faciə kimi təqdim ediləcək qeyri-adi bir məsələ yoxdur.

**– Təhlükə nə vaxta qədər davam edəcək?**

– Müxtəlif illərdə bu infeksiya zamanı aşağı tənəffüs yolunun xəstəlikləri ilə, yuxarı nəfəs yolu yoluxması arasında fərqlilik müvafiq olaraq 10,2 – 36 faiz və 1 –5 faiz nisbətində olub. Bu araşdırma risk qrupunda olan xəstələrin (immun sistemi zəifləmiş, üzülmüş və s.) müqayisəli göstəricilərinin təhlili əsasında aparılıb.

Hazırkı virus infeksiyası ekliptik hərəkət boyunca ardıcıl növbələşən 3 dalğa şəklində davam etməlidir. İndi mövcud olan 1-ci dalğa, yanvar ayının ikinci yarısına kimi saxlanılacaq. Sonra fevral ayının 1-ci ongünlüyünə qədər (2-ci dalğa) yoluxma sabitləşəcək, ikinci ongünlükdən etibarən (3-cü dalğa) kəskin zəifləmə olacaq. Nəhayət, mart ayının 2-ci ongünlüyündən etibarən sporodikləşmə və sönmə baş verəcək.

**– Sizcə, aparılan müalicələrdə yanlışlıq olurmu? Təcrübə göstərir ki, 3–5 günlük müalicə təsirsizdir.**

– Xəstələnmə zamanı fəsadlaşma və ya ikincili mikrob infeksiyası baş vermədiyi halda antibiotik, antibakterial dərman maddələri, eləcə də insanların çox sevdiyi “sistem vurdurmaq” əks-göstərişdir. Yoluxmanın ilkin başlanğıcında və davam etdiyi müddətdə müalicə prinsipi, bütün hallarda, inteqrativ təbabətin tövsiyə etdiyi meyarlar (dəstəkləyici və sanogenetik terapiya) üzrə aparılmalıdır. Bütün viral infeksiyalara yoluxma zamanı tətbiq edilən müalicə üsulu keçərlidir.

**– Virusdan qorunmaq üçün nə tövsiyə edirsiniz?**

– Xəstə olmayan şəxsin infeksiyaya yoluxmamaq üçün maska taxması məsləhət deyil. Viral infeksiyalardan qorunmanın əsas yolu isə həmişə dediyim kimi, görüşərkən öpüşmək kimi vərdişdən əl çəkilməsidir. Uşaqları öpmək isə viral infeksiyaların fəsli artımı dövründə, ümumiyyətlə, yolverilməzdir.

***Hazırladı:***
***ZH ÜSEYN***
***XQ***

# 3 yeni bina standartı qəbul edilib

**İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyindəki Azərbaycan Standartlaşdırma İnstitutu binaların informasiya modelləşdirməsi ilə bağlı 3 dövlət standartı qəbul edib.**




İnstitutdan aldığımız məlumata görə, həmin dövlət standartlarının qəbulunda məqsəd tikinti layihələrində vaxt və maliyyə itkilərinin azaldılması, resursların daha düzgün planlaşdırılması, səmərəliliyin artırılması, inşaat və istismar mərhələlərində məlumatların vahid platformada dəqiq, eləcə də şəffaf şəkildə inteqrasiyalı idarə edilməsindən ibarətdir.

Qeyd edək ki, dövlət standartlarının layihələri Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, o cümlədən Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılıb, “Tikinti materialları, məmulatları və konstruksiyaları”nın standartlaşdırılması üzrə Texniki Komitənin iclasında müzakirə olunub. Eyni zamanda, Standartlaşdırma İnstitutu layihələri təsdiq edərək standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fondu və Reyestrinə daxil edilib.

***XQ***



# Avropada meymunçiçəyi fəallaşıb

**Ötən il baş qaldırıb sonra səngiyən meymunçiçəyi yenidən Avropada görünüb.**

Xarici mətbuatın yaydığına görə, Fransa Səhiyyə Nazirliyi ölkədə virusun “Clade1b” ştammına ilk yoluxma olduğunu qeydə alıb. Yoluxma Bretan regionunda olub.

Deyilənə görə, xəstə ölkədən kənarda olmayıb. Lakin Afrikadan qayıtmış 2 insanla ünsiyyətdə olub. Hazırda onunla təmasda olanların kimliyi araşdırılır.

“Clade” ştammı Konqoda bu yay alovlanıb. Virusun əlamətləri titrəmə, səpmə, dəridə qaşınma, qızdırmadır. Virus cinsi əlaqə və bədən təması ilə keçir. Haqqında söhbət açılan ştam, meymunçiçəyinin ağır variantıdır. Onun insana yoluxması ilə bağlı Hindistan, Britaniya və Almaniya da məlumat vermişdi.

Rusiyalı alim Aleksandr Ginzburq bildirib ki, məhz mutasiyalar meymunçiçəyinin yalnız təmasla deyil, həm də hava-damcı yolu ilə yoluxmasına səbəb olacaq.

***XQ***

## Qayıdışın növbəti ünvanları

**Son dövrlərdə həm Azərbaycan, həm də Ermənistan mətbuatında ən çox müzakirə olunan mövzulardan biri də Sədərək rayonunun Kərki kəndinin Azərbaycana qaytarılması haqqındadır.**

# Kərkililər də yurd həsrəti ilə yaşayırlar

Ötən əsrin 90-cı illərində ermənilərin işğalçılıq siyasətinin ilk hədəfi olan Kərkinin işğalı Bakıdakı 20 Yanvar faciəsinin, eyni zamanda Sədərəyə silahlı basqınlarının başlanğıcı olub. Və indiyədək Naxçıvanın yeganə işğal altında olan bu kəndinin sakinləri də muxtar respublikanın, o cümlədən Azərbaycanın müxtəlif yaşayış məntəqələrində məskunlaşmağa məcbur olublar.

Amma kərkililərin ən çoxu Kəngərli rayonunun ərazisində salınmış Yeni Kərki kəndində yerləşiblər. Elə kərkililərlə görüşümüzdə hələ də işğal altında saxlanılan Kərkinin keçmiş günlərindən, niyə strateji əhəmiyyət daşıdığından, sakinlərin ora qayıdışından danışdıq.

"Xəritəyə baxdıqda, Kərki kəndi Naxçıvandan aralı düşmüş kiçik bir ada kimi görünür. Amma əslində kəndimizin 940 hektara yaxın ərazisi olub. Ərazidəki "Sulu zağa", "Bəzirxana", "Köhnə Kərki", "Dəlik daş", "Sənəm zağası", "Gavurqala", "Cəhənnəm dərə", "Şırran", "Qızıl daş", "Qurdbaba", "Qırmızı güney", "Şurut bulağı" kimi toponimlər bu kəndin qədim türk yurdu olduğunu sübut edir. Sədərəkdən Kərkiyə qədər 8 kilometrdir.

Əslində, kəndə qədər olan və ətraf ərazilər də bizim torpaqlarımız olub. Amma sovetlər birliyi dövründə bu torpaqlar hissə-hissə bizdən alınaraq Ermənistana birləşdirilib. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 5 may 1938-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikasının Kərki kəndinin ətrafındakı torpaqların da xeyli hissəsi Ermənistana verilib. Tarixi sənədlərdə də bu fakt öz əksini tapıb ki, o zaman Azərbaycan Mərkəzi İcraiyyə Komitəsində çalışan ermənilər təkcə Kərki kəndinin yerləşdiyi çox kiçik bir ərazini Azərbaycanın tərkibində saxlamaqla kənd ətrafındakı 900 hektardan artıq bir ərazini saxta sənədlərlə rəsmiləşdirmişdilər. Beləliklə, kənd Naxçıvan Muxtar Respublikasından tam təcrid olunaraq ada şəklinə düşmüşdür".

Bu sözləri Kərki kənd sakini, uzun illər kənd icra nümyəndəsinin müavini vəzifəsində çalışmış Elşad Məmmədov deyir. Elşad müəllim bunu da əlavə edir ki, 1988-ci ildən başlayaraq məlum hadisələrin gündən-günə daha da intensivləşməsi Kərkidən də yan keçmir. Kəndə edilən hücumların dəf edilməsində yerli sakinlərlə yanaşı, Şərurdan, Sədərəkdən də köməyə gəlirlər. 1989-cu ilin sonlarında Sədərəkdən Kərkiyə gedən yolun kəsilməsi, ərzaq ehtiyatının tükənməsi vəziyyəti daha da mürəkkəbləşdirir.

Nəhayət, son günə qədər kəndi tərk etməyən kərkililər 1990-cı il yanvarın 15-də rus hərbçilərinin təkidli tələbi ilə axşam saat 6-7 radələrində doğma yurdu tərk etmək məcburiyyətində qalırlar. Yanvarın 18-də isə 3-ü polis əməkdaşı olmaqla, kəndin əli silah tutan sonuncu sakinləri Kərkini tərk etməyə məcbur olur. Beləliklə, SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə muxtar respublikanın Sədərək rayonunun Kərki kəndi ermənilərə verilir.





Kərki kənd sakini, hazırda Yeni Kərkidə bələdiyyə sədri vəzifəsində işləyən Paşa Əhmədov bildirir ki, 400-dən çox sakinin yaşadığı Kərkidə 78 ev var idi. Kəndin səfalı təbiəti olub. İndi fotoşəkillərdə kəndin arxa hissəsində görünən dağ Tejgar dağıdır. O dağın zirvəsində Habil-Qabil ocağı deyilən bir yer də var idi ki, kənd sakinləri orada qurban da kəsərdi. Kərki kəndinin 10 hektara yaxın alma və armud bağı var idi. Burada elə gözəl almalar yetişirdi ki, həmin almaları həm İrəvana, həm də Naxçıvana satmaq üçün aparırdılar.

Bir də kəndimizdə çox insanın məşğuliyyəti gülçülük idi. Kənd sakinlərindən Əziz Abbasov, Əli Məmmədov, İslam İsmayılov, Abbas Vəliyev və digərlərinin gül istixanaları var idi. Burada yetişdirilən gülləri satış üçün ən çox Rusiyaya göndərirdilər. Mal-heyvan saxlayan da az deyildi. Bundan başqa, hər il kəndimizdə pioner düşərgəsi təşkil olunurdu. Şərurdan, Sədərəkdən gələnlər çox olurdu.

Eyni zamanda, kəndimizin təbii gözəlliyi də turizm baxımından cəlbedici idi. Sədərək tərəfdən gələndə Kərkinin girəcəyində bir "Koroğlu" restoranı var idi. Həmin restoranı kənd sakinlərindən Əli Vəliyev, Əli Orucov və Adil Bağırov işlədirdi. Bu restoran heç zaman müştərisiz olmurdu. Yoldan keçən ermənilər də tez-tez bura gəlirdilər.

Paşa Əhmədov deyir ki, ermənilərin kəndə hücumu rus hərbçilərinin gözü qarşısında baş verirdi və ilk hücumda kəndi yandırmaqla başlamışdılar. Kəndin aşağı hissəsindən başlayan yanğın sonra silahlı hücumla davam etdirilmiş və elə həmin atışmada bu hücuma rəhbərlik edən Tiqran adlı erməni öldürülmüşdü. Daşnaksütyunun Vedi bölgəsinin rəhbəri olan Tiqranın ölümündən sonra ermənilər bu kəndi sonralar onun şərəfinə Tiqranaşen adlandırmağa başladılar.




Həmin dövrdə qüvvələr nisbəti də eyni deyildi. Ermənilərdə döyüş üçün bütün lazımi silahlar olsa da, bizdə yalnız ov tüfəngləri idi. Bir də kəndimizdən Oruc adlı bir nəfər var. O, ruslardan qalma mərmi lülələrindən bir əldəqayırma top düzəltmişdi. Kustar üsulla hazırlansa da, həmin top ermənilərin kəndə ilk hücumunun dəf olunmasında böyük rol oynamışdı və onları bərk qorxutmuşdu. Ertəsi gün rus hərbçiləri gəlib kənddə o topu axtarırdılar.

Yeri gəlmişəkən, bələdiyyə sədrindən söhbətləşmək üçün kəndin ən yaşlı sakinini də soruşuruq. O isə kəndin ən yaşlı sakininin Mənaf Bağırov olduğunu bildirir və hazırda onun Qax rayonunun Turaclı kəndində yaşadığını deyir.

Digər sakin Cəlaləddin Cəfərov isə deyir ki, doğma yurd həsrəti kərkililəri hər zaman düşündürüb. 30 ildən çox zaman keçsə də, bu gün də Kərkinin həsrətini çəkir, doğulub böyüdüyü kəndin küçələri, dağı, düzü, yaylası gözünün önündən getmir. 1990-cı ildə kənddən çıxan Cəfərovlar ailəsi bir müddət Şərur rayonunda xəstəxana binasında məskunlaşıblar. Sonra isə Yeni Kərkidə əlavə evlər tikildikdən sonra ailələri burada yerləşib.

Yeri gəlmişkən, onu da qeyd edək ki, indiki Yeni Kərki kəndi ötən əsrin 90-cı illərində əvvəlcə gənclər üçün bir qəsəbətipli layihə olaraq salınmağa başlanılıb. Amma sonralar məlum ictimai-siyasi hadisələr səbəbindən burada Kərki kəndindən köçmək məcburiyyətində qalanlar yerləşdirilib. İlk olaraq 36, sonra əlavə 8 fərdi ev tikilərək sakinlərə verilib. Ötən müddət ərzində isə kənddə zəruri infrastruktur layihələri həyata keçirilib, məktəb, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Müsahiblərimiz bildirirlər ki, Kərki kəndi Ermənistan üçün də mühüm strateji əhəmiyyət kəsb etdiyindən onlar bu kəndin Azərbaycana qaytarılmağından ehtiyat edirlər. Çünki Ermənistanın şimaldan cənuba uzanan əsas yolu Kərkidən keçir. Kəndin Azərbaycana qaytarılması onların bu yola nəzarət etməsinin qarşısını alır. Amma biz inanırıq ki, tezliklə Kərki bizə qaytarılacaq və hər birimiz ora qayıdacağıq. Biz yenidən o səfalı yerlərimizi əkib-becərəcək, sahmana salacağıq. Vətən müharibəsində qazandığımız Zəfərdən sonra kərkililərin buna inamı daha da artıb.

Bəli, kənd sakinlərinin fikirlərinə biz də qoşuluruq. Buna da inanırıq ki, kərkililərlə bağlı növbəti yazımızı elə Kərkinin özündə hazırlayacağıq.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin Naxçıvan müxbiri*

## Xeyir-bərəkət aləmi

# "Nənəmin təndiri" – milli mətbəx brendi

*Xalqımızın çörəkbişirmə mədəniyyəti UNESCO-nun qeyri-maddi irs siyahısında da yer alıb*

**Xalq sənətlərinin başqa yönlərindən fərqli olaraq milli mətbəximizdə qədim etnik əlamətlər daha güclüdür. Xalq mətbəxinin müxtəlif nemətləri yarandığı və yaşadıldığı ərazinin coğrafi, tarixi şəraiti ilə sıx bağlı olub.**

İnsanların astronomik düşüncəsi belə milli mətbəxdə müəyyən izlər qoyub. Səma cisimlərinə bənzər çörək növləri belə təsəvvürlərdən qaynaqlanıb. Bir ərazidə yaranmış mətbəx nümunələri həmin yerin köklü əhalisinin qədim dünyagörüşünü (iqlim fərqliliyi, coğrafi yerləşmə, ənənə və s.) əks etdirməklə həmin dövrün önəmli çalarlarını günümüzədək yaşadıb. Bəli, mətbəx amilləri qədim mədəniyyət örnəkləri olaraq günümüz üçün böyük önəm daşıyır.

Mətbəx məhsullarının ən geniş yayılmış növlərindən olan, hətta süfrələrin "olmazsa-olmaz"larından sayılan, əvəzsiz neməti hesab olunan un və ondan hazırlanan məhsulların ən üstün nümunəsi çörək, eləcə də onun növləridir. Çörək ondan istifadə edən insanın "qarnını ən rahat doyuran" nemət kimi Tanrının insan övladına bəxş etdiyi misilsiz nemətdir. "Çörək bol olarsa, basılmaz Vətən", – deyən böyük şairimiz Səməd Vurğunun parlaq ifadə etdiyi həqiqəti sonradan istedadlı şair Akif Əhmədgil "Basılmaz sərçəsi tox olan Vətən" misrası ilə bir az da bədiiləşdirib.

Ulu babalarımızın yetişdirdiyi buğdanın una çevrildiyi dəyirman, bərəkət ətirli nənələrimizin bu undan çörək bişirdikləri təndir zaman-zaman ellərimizdə müqəddəslik ünvanları kimi urvatlı tutulub. Bu yaddaşla bu gün "Nənəmin təndiri" milli mətbəx brendinə çevrilib.




Türk xalqlarında çörəyin hazırlanması məqamları və texnologiyasının özünəməxsus yönləri var. Eləcə də qədim tarixi qədər milli-mənəvi dəyərləri olan Azərbaycan xalqının da çörək mədəniyyəti ilə bağlı özünəxas yanaşmasını ifadə edən söz yaradıcılığı örnəkləri günümüzə gəlib çatıb. Ümumiyyətlə, çörəkbişirmə adət və texnologiyası Azərbaycan xalqında çox qədim etnik psixoloji-fəlsəfi dünyagörüşə dayanmaqla yanaşı, coğrafi, mədəni, eləcə də tarixi özünəməxsusluğu ilə də seçilir.

Azərbaycanda çörəkbişirmənin qədimliyini ifadə edən faktlardan biri də xalqın mənəvi mədəniyyətini əks etdirən onun şifahi sözlü sənətdir. Ağız ədəbiyyatımızda çörəyin müqəddəsliyini əks etdirən yetərincə söz yaradıcılığı nümunələri: atalar sözləri və məsəllər, deyimlər, inanclar, sınamalar, lətifələr, bayatılar, andlar, alqış-qarğışlar, mərasim elementləri və s. yaradılıb.

Müxtəlif mərasimlərdə çörəyin həmin mərasimin əsas elementi kimi dəyərləndirilməsi insanların bu əvəzsiz neməti əldə etməsi, onu qoruması, həyat mənbəyi kimi dəyərləndirməsi, ümumiyyətlə, bu qidanın məişətindəki gərəkliyi anlamasını ifadə edən düşüncələrdən qaynaqlanır. Mərasimlərdə hazırlanan çörəklərin özünün də xalq təfəkküründə dərin rəmzi çalarları var.

Məsələn, "toy çörəyi" adı ilə tanınan, bu şənliyin əsas adətlərindən hesab olunan çörəkbişirmə mərasimi elin köməyi və dəstəyi olmadan həyata keçməyib. Toya bir-iki gün qalmış evin qadını kəndin əliduzlu arvadlarını çörək bişirməyə dəvət edərdi. Belə dəvəti alan hər qadın çörək bişirməyə gəlməyi özünə borc bilərdi.

Etnoqrafik araşdırmalarda göstərilir ki, toy sahibi çörəkbişirənlər üçün qabaqcadan kiçik hədiyyələr hazırlayar, hər birinə iş zamanı geyinmək üçün önlük bağışlardı. Çörəkbişirməyə yığışmış kəndin qadınları şənliyədək lazım olan qədər çörəyi bişirib qurtarardılar. Bir qayda olaraq, belə iməciliklər özü də çal-çağırsız keçməzdi. Qız-gəlinlərlə bərabər, şair təbli qadınlar da bayatı deməkdə yarışardırlar. Söylənilən bayatılar toy məclisinin məzmununa, gəlinlərə və çörəkbişirənlərə həsr edilərdi.

Xalq arasında toy mərasimində çörəkbişirmə ənənəsini özündə ifadə edən şifahi sözlü sənət örnəkləri də günümüzədək yaşayıb. Bir el bayatısında da məhz bu adətin izlərinin qorunduğunu müşahidə edirik:

**Ulduz gəlin, ay gəlin,**
**Yoxdur sənə tay gəlin.**
**Qardaşının toyudur,**
**Nazik yuxa yay, gəlin.**

"Çörək açan qapını heç kəs aça bilməz", – deyən ulularımız çörəyin sülhü bərqərar edən nemət olduğunu nəzərdə tutublar. Qədim ənənələrdə aralarında uzun zaman umu-küsü yaranmış ailələr, tayfalar barışıq üçün biri digərinin evinə əlində çörəklə gedərmiş. Belə olduqda qarşı tərəf gələnə qapısını xoşluqla açar, arada olan umu-küsünü elə oradaca unudardı. Ellərimizdə əziz qonaqları duz-çörəklə qarşılamaq adəti indi də yaşayır.



Günümüzdə bunun izləridir ki, toy günü gəlin yeni evə gələndə onun başı üzərində çörək kəsilər. Bu, evə yeni qədəm qoyan gəlinin özü ilə ruzi-bərəkət gətirməsi inancı ilə yanaşı, həm də mehribanlıq, dostluq, sülh gətirəcəyi arzusunu və inancını da ifadə edir.

Folklorumuzda insanın psixoloji-fəlsəfi dünyagörüşünü, mənəvi aləmini çox aydın ifadə edən, çörəyin müqəddəsliyini bir daha təsdiq edən deyimlər, atalar sözləri və məsəllər, eləcə də sözün sehri qüvvəsinə inamı xarakterizə edən alqış-qarğışlar, inanc-sınama örnəkləri yetərincədir:

Çörəyi daşdan çıxmaq; çörəyi qulağına yemək; çörəyinin dəlisi / çörəyinin düşməni (bədxərclik); çörəyi yeməmiş şükrünü eləyir; çörək tapmır yeməyə, soğan yeyir ki, iştahası açılsın; çörəyi yağdadı; çörəyi dizinin üstündədir; itə də bir çörək borcludur; çörəyi ərşə çəkilmək; çörək itirən olma; təknən boş qalmasın; təknən bin-bərəkətli olsun!

Ordubadın Üstüpü kəndində çörəksaxlama ənənəsi etnoqrafik əşyaların da formalaşmasına təsir edib. Belə ki, çörəyi həm keyfiyyətli qoruyub saxlamaq, həm də onun israfının qarşısını almaq üçün daraba deyilən dolablardan istifadə olunur.

Çörəyin müxtəlif növləri vardır. Bunlardan lavaş adlanan nazik qatlı çörəyi qurudaraq uzun müddət saxlamaq olur. Buna Azərbaycanın bəzi ərazilərində yuxa da deyirlər. Naxçıvanda məxsusi olaraq lavaşla yeyilən xörək növləri də var. Və lavaşa bükülərək hazırlanan yemək növü isə dürmək adlanır.

Çörəyi bişirmək üçün ən optimal və qədim vasitə təndirdir. Təndir hazırlanması və ondan istifadə də Azərbaycanın regionlarlında müxtəlif fərqli məqamlarla izlənilir. Naxçıvanda təndirdə bir çox bayramlara xas olan çörək növləri bişirilir. Buna Naxçıvanın şəhər əhalisi, Şərur, Şahbuz və s. ərazilərdə yaşayan əhali "çöçə" (kökə) deyir. "Çöçə"lərin içərisi müxtəlif ərzaqlardan hazırlanan içliklə doldurulur.

Ümumiyyətlə, çörəkbişirmə adəti və təndir sənətkarlığı Azərbaycan xalqının qədim milli ənənələri içərisində özünəməxsus yer tutur. Bu ənənənin qorunması və yaşadılması təkcə milli deyil, həm də bəşəri önəm daşıyır. Elə buna görə də ötən il "Azərbaycanın təndir sənətkarlığı və çörəkbişirmə üsulu" UNESCO-nun qeyri-maddi irs siyahısına daxil edildi.

Bu yerdə bir el deyimi də yada düşür: Ulu Tanrı heç vaxt xalqımızı çörəklə imtahana çəkməsin. İlk günlərimi yaşadığımız yeni ildə də çörəklə yanaşı, bütün nemətlərimiz bol, evlərimiz-ellərimiz ruzili-bərəkətli olsun!

*Aytən CƏFƏROVA,*
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent*

Firuzə Məmmədli – 85

# Milli poeziyamızın Firuzəsi

**Adının mənası çox nadir və qiymətli daşı ehtiva edən Firuzə Məmmədli Azərbaycan poeziyasının nadir istedad sahibi olan qadın təmsilçisidir. Qədim dövrlərdən zərgərlikdə istifadə edilən firuzə bərəkət və var-dövlət rəmzi hesab edilir. Bu adı daşıyan xanım şairimiz də elə öz poetik nəfəsi ilə milli ədəbiyyatımızı zənginləşdirir.**

Firuzə Məmmədli 1940-cı il yanvarın 10-da Xaçmaz rayonunun Canaxır kəndində dünyaya göz açıb. Orta məktəbi gümüş medalla bitirəndən sonra Quba tibb məktəbində oxuyub. Amma ədəbiyyata sevgisi üstün gəlib və o, Bakıda APİ-nin (indiki ADPU) filologiya fakültəsinə daxil olaraq ali təhsilini fərqləmə diplomu ilə başa vurub. Bir müddət institutun Naxçıvan filialında, eyni zamanda oradakı pedaqoji məktəbdə çalışıb. 1970-ci ildə APİ-nin Azərbaycan dilçiliyi kafedrasına keçirilib. Yurdumuzun şimal, şərq və qərb guşələrində görüb-götürdüklərini, hiss və həyəcan yaşantılarını qəlbinin süzgəcindən keçirərək gözəl poetik nümunələrə çevirib. Şair olmaqla bərabər, tərcüməçi, ədəbiyyatşünas, publisist kimi tanınıb.

İlk dəfə onun şeirlərini, təxminən, 40–45 il əvvəl "Azərbaycan" jurnalından oxumuş və xeyli təsirlənmişdim. "Bahar ritmləri"ndə yaz duyğularını bir rəssam kimi sözlə çox gözəl çəkmişdi:

**Elə cilvələnir aşığın təbi,**
**Əli üzülmmir saz ətəyindən.**
**Açır boxçasını axır ki düzlər,**
**Bənövşə tökülür yaz ətəyindən.**



Artıq yarım əsrdən çoxdur ki, sərasər paytaxtda yaşayıb-yaradan Firuzə Məmmədli həm zərif qadın duyğularının, həm də əsl vətəndaş mövqeyinin tərcümanına çevrilib. İndiyədək 37 kitabı çap olunub. "Gümüşü damla" ilə "Ömrün axarı"nı tutub, "Yetkinliy"ini "Savaş fəsli" sayıb "Bir qarış ucalıq"la öyünüb, qalib ədası ilə "Nə yaxşı yaxamda söz medalım var", – deyib və görüb ki, elə həmişəki kimi, "Dünya gözəlliklə dolu"dur. 10 cildlik "Seçilmiş əsərləri" isə onun poetik, firuzeyi mineral daşları kimi diqqət çəkib və layiqli dəyər qazanıb.

**Deyən, darısqaldı fikrimin yolu,**
**Odur ki, dilimdən fışqırıb çıxır.**
**Ahıl duyğuların əsarətindən**
**Deyərsən, kəlmə yox, muştuluq çıxır.**

Ədəbi həyata tükənməz yaradıcılıq enerjisi ilə qoşulan, gözəl hekayə və povestlərin də müəllifi olan Firuzə xanım bir filoloq kimi, könlünü elmi fəaliyyətdən də əsirgəməyib. "Yusif Vəzir Çəmənzəminlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi adını alıb. Müxtəlif illərdə "Bədii dilin estetik mənbələri" (dərs vəsaiti), "Y.V.Çəmənzəminlinin tarixi romanlarının ("Qızlar bulağı" və "Qan içində") dil və üslub xüsusiyyətləri" (monoqrafiya), "Azərbaycan dilinin linqvistik poetikası və mətnin təhlili" (proqram), "Azərbaycan dilinin linqvistik ekvivalentlər" (dərs vəsaiti) ilə müəllimlik, alimlik bacarığını da sərgiləyə bilib.

İnamla "Aşacağam zaman adlı sədləri" deyən Firuzə Məmmədli 1992-ci ildə Türkiyədə düzənlənən beynəlxalq şeir müsabiqəsinin "Əlişir Nəvai" mükafatını qazanıb. Daha sonralar Beynəlxalq "Rəsul Rza", "Qızıl kəlmə", "Nəsimi" mükafatlarına layiq görülüb. "Tərəqqi" medalı, "Əmək" ordeni də, xarici ölkələrdə keçirilən şeir şölənlərinin, müsabiqələrin xüsusi diplom və sertifikatları da onun ömür yoluna işıq saçan qəndillərə dönüb. Onun İstanbulda nəşr olunan "Söz pilləkəni" adlı şeirlər toplusu qardaş ölkədə maraqla qarşılanıb.

**Yaddaşımda nə ki vardı, cəm etdim,**
**Gündüzləri gecələrə şam etdim.**
**Vərəqləri qələmimlə şum etdim,**
**Sözüm bitib-tükənmədi, nə yaxşı!**

Azərbaycan qadın şairləri antologiyasında halal-hümmət yerini layiqincə tutan Firuzə Məmmədli Məhsəti Gəncəvi, Natəvan, Heyran xanım, Kəminə, Aşıq Pəri, Ağabəyim Ağa, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Hökumə Bülluridən qəbul etdiyi estafeti ürəklə daşıyıb irəli aparan qələm sahibidir.

Ədəbiyyatımızın ağbirçəyi, poeziyamızın Firuzəsi şeirlərinin birində deyir: "Vaxtın məndə əriyən saatına quruldum". Arzu edirik ki, bu saatın həyat dolu səsi hələ uzun illər sonra da eşidilsin.

*Əli NƏCƏFXANLI*
*XQ*

Unutsaq, unudularıq

# Muğam bilicisi, ustad ifaçı

**Beynəlxalq Muğam Mərkəzində "Nadir muğam ifaçıları" layihəsi çərçivəsində muğam sənətinin dərin bilicisi və sevilən xanəndə, Xalq artisti Hacıbaba Hüseynovun xatirəsi ehtiramla anılıb.**





BMM-nin direktoru, Əməkdar artist Sahib Paşazadə rəhbərlik etdiyi sənət məbədində mütəmadi olaraq ustad xanəndələrin, muğam ifaçılarının xatirəsinə həsr olunan tədbirlərin keçirildiyini diqqətə çatdırıb. O deyib ki, Azərbaycan muğam və qəzəl sənətinə əvəzsiz töhfə verənlərdən biri də Hacıbaba Hüseynov olub. Görkəmli sənətkarın yaratdığı çoxsaylı təsniflər musiqi irsinə daxil olub və muğam ifaçılığında geniş yayılıb: "Hacıbaba Hüseynov xalq yaradıcılığına da böyük diqqət verib. Azərbaycanın müxtəlif bölgələrində, habelə Türkiyə və İraqda oxunan xalq yaradıcılığı nümunələrini təsniflərdə istifadə edib, beləliklə, xalqdan topladığını yenilənmiş şəkildə xalqa qaytararaq bu sənət əsərlərinin tanınmasına və sevilməsinə zəmin yaradıb".

Mərasimdə Əməkdar incəsənət xadimi, xanəndə Aqil Məlikov, Əməkdar artist Mirnazim Əsədullayev Hacıbaba Hüseynovla bağlı xatirələrini bölüşüblər. Bildirilib ki, Azərbaycan muğam məktəbinin təbliği və inkişafında Hacıbaba Hüseynovun özünəməxsus yeri var. "Rast" muğamının "Üşşaq", "Hüseyni", "Novruzi ravəndə", digər muğamlarda olan "Şah Xətai" şöbələrinin ilk ifaçısı o olub. Hacıbaba Hüseynovun təşəbbüsü ilə "Bayatı Şiraz" muğamının "Dilrüba" şöbəsi dərsliyə əlavə olunub.

Natiqlər, həmçinin gənc muğam ifaçılarının yetişməsi istiqamətində bir müəllim kimi Hacıbaba Hüseynovun yorulmaz qeyd ediblər.

Xalq artisti Teyyub Aslanov, Əməkdar incəsənət xadimi Aqil Məlikov, BMM-nin solistləri Hüseyn Məlikov, Məmməd Nəcəfov, xanəndə Elbrus Niftəliyev 105 yaşlı unudulmaz sənətkarın repertuarından rəngarəng ifalar təqdim edib, könülləri oxşayıblar. Xanəndələri tarzən Rövşən Qurbanovun rəhbərliyi ilə BMM-nin solistlərindən ibarət instrumental heyət, Əməkdar artist Əliağa Sədiyevin rəhbərliyi ilə "Xarıbülbül" muğam qrupu və Əməkdar artist Emil Əfrasiyab müşayiət ediblər.

*XQ*

# Neftçi tələbələrin Niderland uğuru

**Bakı Ali Neft Məktəbinin "CLIMASEL" layihəsi Niderlandın "Startupbootcamp" akselerasiya proqramında ən yaxşı 30 layihə arasında yer alıb. Tələbələrimizin işi enerji və ətraf mühit kateqoriyasında 2 min layihə arasından seçilib.**

Layihənin təqdimatı BANM-ın kimya mühəndisliyi ixtisasının III kurs tələbələri Xəyalə Miriyeva və Fatimə Nəsirova ediblər. Həmçinin layihənin işlənməsində ali məktəbin İnnovasiya və Tədqiqatlar Mərkəzinin böyük mühəndisi Elmar Əsgərzadə, kimya kafedrasının müəllimi Aysel Məmmədova və SOCAR Türkiyə Strateji Planlaşdırma və Korporativ Performans üzrə mütəxəssisi Güllü Hüseynli (BANM məzunu) iştirak ediblər.

Qalib "CarbonX" komandasına 25 min avro investisiya ayrılıb, eləcə də komanda 3 aylıq akselerasiya proqramında iştirak etmək hüququ qazanıb.

"CLIMASEL" layihəsi binalarda enerji sərfiyyatını azaldan və sabit temperaturun qorunmasını təmin edən bioəsaslı faza dəyişən materiallar əsasında hazırlanan panellər istehsal edir.

**Elmar Əsgərzadə XQ-yə müsahibəsində dedi ki, "CLIMASEL" tələbələrin yaratdığı və iqlim dəyişikliklərinə qarşı müasir texnologiyalara yönəlmiş innovativ startap layihəsidir:**






– Layihə enerjiyə qənaət edən texnologiyalarla ətraf mühitə mənfi təsirləri azaltmağı hədəfləyir. Startapın əsas məhsulu əsma tavanlar üçün enerjiyə qənaət edən panellərdir. Bu panellər temperatur dəyişikliklərinə reaksiya verərək istiliyi saxlamaq və yaymaq qabiliyyətinə malikdir. Bu mexanizm həm enerji sərfiyyatını azaldır, həm də otaqların daha təbii və komfortlu temperaturda qalmasını təmin edir. Hesablamalara görə, "CLIMASEL" panellərinin tətbiqi ilə kondisioner sistemlərinin iş yükü 25 faizə qədər azaldıla bilər. Bir sözlə, "CLIMASEL" panelləri, xüsusilə enerji sərfiyyatını azaltmaq istəyən müasir cəmiyyət üçün ideal texnologiyadır və yay aylarında kondisioner sistemlərinə alternativ olaraq ekoloji cəhətdən daha səmərəli seçim təşkil edir.

"CLIMASEL" layihəsinin fərqliliyini diqqətə çatdıran böyük mühəndis qazanılan investisiyanın təyinatına da aydınlıq gətirdi. Öyrəndik ki, həmin vəsait layihənin pilot testlərinin həyata keçirilməsinə və komandanın 3 aylıq akselerasiya proqramında iştirak xərclərinin ödənilməsinə yönəldilib. Yenilikçi komanda bu texnologiyanın həm Azərbaycanda, həm də beynəlxalq bazarda böyük biznes potensialına malik olduğuna inanır. Hazırda əsas hədəf, panellərin prototiplərinin təkmilləşdirilməsi və onların pilot testlər üçün şirkətlərə təqdim edilməsidir.




**Layihənin təqdimatını həyata keçirən tələbələr bildirdilər ki, "CLIMASEL" komanda işinin və yorulmaz səylərin bəhrəsidir. Xəyalə Miriyeva dedi:**

– Biz binalarda enerji sərfiyyatını azaltmaq və daha yaşıl gələcəyə töhfə vermək üçün müasir texnologiyalar və bioəsaslı materiallardan istifadə etməklə mühüm addım atmışıq. Prosesdə bizə dəstək olan BANM-ın rəhbərliyinə, müəllimlərimizə və həmkarlarımıza dərin minnətdarlığımı bildirirəm. İnanıram ki, bu uğur gələcəkdə daha böyük nailiyyətlərin başlanğıcı olacaq.

**Fatimə Nəsirova isə akselerasiya proqramına qəbul olmağı ilə həyatında yeni bir mərhələnin başladığını söylədi:**

– Bu imkanı əldə etdiyim üçün özümü çox xoşbəxt hiss edirəm. Mentorumuz Elmar Əsgərzadə hər zaman yanımızda oldu, ideyalarımızın inkişafı üçün bizi ruhlandırdı və dəyərli tövsiyələr verdi. Mən kimya mühəndisliyi ixtisasını seçəndə düşünürdüm ki, cəmiyyətimiz üçün dayanıqlı inkişaflara necə töhfə verə bilərəm. Akselerasiya proqramına qəbul olunmaq və burada reallaşdıracağım ideya arzuma bir addım daha yaxınlaşmağıma imkan yaratdı.

Biz də gənclərimizin uğurlarına sevinir, yanvar və mart aylarında keçiriləcək növbəti mərhələlərdə müvəffəqiyyət arzulayırıq.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*

Rafiq Səməndər - 75

# Yazdım ki, sözüm qala...

**Tanınmış yazıçı-dramaturq, Əməkdar jurnalist Rafiq Səməndər bu gün ömrünün 75 illik zirvəsindən geriyə vüqarla boylanır. Yüzlərlə qənimət ssenarinin, 20 bədii əsərin və 25 pyesin müəllifi olan bu ləyaqətli söz adamı əsərləri ilə özünəməxsusluq qazananlardandır.**

Rafiq Səməndərlə eyni televiziyada çalışmışıq. Uca boyu, şux, yaraşıqlı görkəmi var. Baxışlarından daim qayğı yağır.

Hələ 80-ci illərdə şöhrətli və hörmətli olmasına çoxumuz həsəd aparırdıq. Mən idman proqramlarında redaktor olsam da, bir gözüm elə hey onun işlədiyi ədəbi-dram



verilişləri redaksiyasında idi. Nəhayət, 1992-ci ildə həmin redaksiyaya keçdim, amma 1 il sonra Rafiq müəllim AzTV-ni tərk etdiyi üçün onunla sıx ünsiyyət qurmaq istəyim arzu olaraq qaldı. Buna baxmayaraq, indi də köhnə qələmdaşlarla söhbət edəndə, azman televiziyaçılardan söz düşəndə onun adını birincilər sırasında çəkirik. Çünki teleməkanda silinməz izi qalanlardandır.

Rafiq Səməndər oğlu Ələddinov 1950-ci ildə, yanvarın bu günü Qubada doğulub. 40 yaşını qeyd etməsindən düz 10 gün sonra sovet imperiyası Bakıda "Qanlı şənbə" hadisələrini törədib və Rafiq Səməndər bu mövzuda yazan ilk müəllif olaraq, "Şəhidlər" kitabını ürəyinin qanı, gözünün yaşı ilə araya-ərsəyə gətirib. Qısa vaxt ərzində 146 şəhid haqqında isti-isti, təsirli elegiyalar yazıb. Xalq şairi Bəxtiyar Vahabzadənin ön söz yazdığı, Hidayət Orucovun redaktorluq etdiyi və 150 min tirajla çap olunan, sətirlərindən qan sızan həmin kitabı ilə Rafiq Səməndər imzası ölkədə daha geniş tanınıb. Bakı Dövlət Universitetinin professoru, tanınmış jurnalist Cahangir Məmmədli deyib ki, Rafiq Səməndər öz "Şəhidlər"i ilə şəhidlik haqqında yazılacaq kitabların məktəbini qoyub.

…Yanvarın 20-dən bir neçə gün sonra həmin kitab üçün material toplayarkən o özü də, az qala şəhid olacaqdı. Bu barədə dedikləri: "Səhər tezdən, təxminən, saat 6-7 radələrində Hövsana bir şəhid ailəsi ilə görüşə gedərkən üzlərindən zəhrimar yağan 3 rus əsgəri məni saxladı. İdarə etdiyim maşının pəncərəsinin şüşəsini aşağı salıb jurnalist vəsiqəmi onlara təqdim etdim. Sərxoş əsgərlərdən biri həmin sənədi hirslə əlimdən vurub yerə saldı. Dedim, daha bunların əlindən salamat çıxa bilməram. İstədim, maşını sürüb aradan çıxım. Elə mən bu düşüncədə ikən onlardan biri maşının baqajını açmağı tələb etdi. Orada bir neçə şüşə pivə görən kimi elə bil dünyanı onlara bağışladılar..."

Bir dəfə isə adını demədiyi dırnaqarası ziyalılardan biri onu aldadaraq Bakının hərbi komendantı Dubinyakla görüşdürmüşdü ki, hədə-qorxu gəlsinlər və şəhidlər haqqında kitab yazmaqdan çəkindirsinlər. Amma Dubinyak söhbətin sonunda Rafiq Səməndərə komendant saatında şəhərdə hərəkət eləmək üçün icazə kağızı vermişdi. Elə bunun da sayəsində "Şəhidlər" kitabı üçün sərbəst material toplaya bilib və toplu cəmi bir neçə aya nəşr olunub.

Rafiq Səməndər Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində ali təhsil alıb və 1-ci kursdan teleradioda müxbirlik edib. Sonra ştata götürülüb, tədricən irəliləyib və baş redaktor, birlik rəhbəri kimi fəaliyyət dairəsi genişlənib. Daha sonra "BMTİ" telekanalında, "Yurd" jurnalında, "Lider" televiziyasında məsul vəzifələrdə çalışıb. 2005-ci ildən İctimai Televiziya və Radio Yayımları Şirkətində "Ədəbiyyat və İncəsənət" departamentinin, "Xüsusi layihələr üzrə department"in direktoru və "Carçı" film yaradıcılıq birliyinin baş redaktoru olub. Yarım əsr televiziya səhnəsində çalışsa da, heç vaxt aparıcılıq etməyib, amma bir çox aparıcı onu özünün ustadı sayır. Çünki o, jurnalist peşəkarlığı, əqidə saflığı ilə daim fərqlənib.

Rafiq müəllimin zəngin filmoqrafiyası "Çətin məsələ" ilə başlayıb, "Dalan" və "Döngələr"dən keçib, onu "Babadağ"a ucaldıb, "Azərbaycan mayakları" cərgəsinə qoşub. "Yaşar Nuri olduğu kimi..." bioqrafik, gülüş ustası Hacıbaba Bağırovun iştirakı ilə çəkilmiş "Sonqulunun sərgüzəştləri", Xalq artistləri Nəsibə Zeynalova, Səyavuş Aslan, Zərnigar Atakişiyevanın həvəslə oynadıqları məşhur "Yuxu" kimi film və film-tamaşaların ssenari müəlliflərindəndir.

Qələm dostumuzun "Girovlar" adlanan çox maraqlı kitabında Qarabağ hadisələrindən bəhs edilir. Güman ki, ruhən həm də əsl televiziyaçı olduğuna görə onun yazdıqları canlı dialoqları, sadədən sadə cümlələrinin güzgü effekti ilə yetərincə təsirli olur.

Rafiq Səməndərin yubileyi ilə əlaqədar dünən ona zəng edib təbriklərimi çatdırdım. Novxanıdakı bağ evində dincələn yazıçı-publisist yaradıcılıq planları barədə sualımın cavabından yayınsa da, oxucular üçün nə isə yeni bir sürpriz hazırladığını düşündüm. Çünki bekar qala bilmədiyindən xəbərdaram.

Sağlıq olsun!

*Ə.DOSTƏLİ*
*XQ*

Günün qəhrəmanlığı

# Təyyarə qəzasının unudulmaz epizodu

## *Hökumə dayanmadan təkrarlayırdı: “Hər şey yaxşı olacaq”*

**Sübxonkul Rəhimov dekabrın 25-də AZAL-a məxsus Bakı– Qroznı reysilə uçan “Embraer 190” təyyarəsinin qəzaya uğrayan sərnişinlərindən biridir. Tacikistan əsilli bu insan 24 ildir Rusiyada yaşayır və bu ölkənin vətəndaşıdır. Qəza ərəfəsində təyyarənin göyərtəsindən çəkilmiş videoda Sübxonkulun uca səslə Allaha dua etməsi və kəlmeyi-şəhadət oxuması sosial şəbəkələrdə hamını duyğulandırdı.**



O, qəzada yüngül xəsarətlər alan 29 nəfərdən biridir. Sübxonkulun çəkdiyi video ilə bələdçi Hökümə Əliyevanın qəhrəmanlığı da ictimailəşdirildi.

Yəqin ki, Sübxonkul Rəhimov “Allahu Əkbər!” deyib həmin videonu çəkməsəydi, heç kim Hökumənin qəhrəmanlığına bu qədər yaxından şahid olmayacaqdı. Bəlkə də, sərnişinlərdən kimsə Hökumənin həmin vaxt göstərdiyi şücaət barədə haradasa, nəsə danışacaqdı. Amma onun “Hər şey yaxşı olacaq!” sakitləşdirici nidası indiki kimi yaddaşlara köçməyəcəkdi. Tacik sərnişin həmin anları videoya almaqla Hökumə Əliyevanın qəhrəmanlığını yaddaşımızda əbədiləşdirdi…

Sübxonkul Rəhimov sağ qalmış sərnişin kimi mediaya açıqlamasında AZAL-ın təyyarəsinin qəzaya uğramasından əvvəl baş verən hadisələrdən, habelə qəza vəziyyətində olan təyyarənin sərnişinlərinə kömək edən ekipajın qəhrəmanlığından danışıb: “Mürgüləyirdim, sonra hiss etdim ki, təyyarə yüksəlir. Gözlərimi pəncərənin şüşəsindən açıb aşağıya baxanda duman olduğunu gördüm. Belə başa düşdüm ki, təyyarəmiz ikinci dövrəni vurur və biz eniş edəcəyik”.

Pilotların manevrləri belə təsəvvür yaradıb ki, onlar təyyarəni ikinci dəfə endirməyə çalışırlar: “Mən aşağıda Qroznı şəhərinin olub-olmadığını dəqiq deyə bilmərəm, çünki dumandan görünmürdü”. Sübxonkulun sözlərinə görə, sonra partlayış səsi eşidilib və silkələnmə nəticəsində təyyarədəki oksigen maskalarının bir qismi yerə düşüb: “Təyyarə şiddətlə silkələndi, sonra yüksəlməyə başladı və bu, xeyli davam etdi. Bir qədər sonra təyyarə daha aşağıdan uçmağa başladı. Sonra hava aydınlaşdı və dəniz göründü, amma təyyarə, nədənsə, yırğalana-yırğalana uçurdu. Həmin anda mənə elə gəldi ki, partlayış səsindən sonra təyyarə idarəolunmaz hala düşüb, sanki, “asılıb yellənir”. Ardınca hiss etdim ki, təyyarə çətinliklə də olsa idarə olunmağa başlandı”.

Həmin anlarda təyyarədəki sərnişinlər həyəcana düşüblər. Artıq hamı başa düşüb ki, təyyarə ağır qəza vəziyyətindədir. Və həmin dəqiqələrdən Sübxonkul Rəhimov dualar oxumağa, kəlmeyi-şəhadət söyləməyə başlayıb, daha sonra oturduğu kresloda namaz qılıb. Təyyarə qəza enişi edərkən əmələ gələn partlayış və zərbənin dalğası onu oturduğu yerdən xeyli geri atıb, başından zərbə alıb, amma huşunu itirməyib.

“Gözlərimin önündə bir yanğın olduğunu xatırlayıram, bir növ sarı alov var idi, sonra bir neçə saniyə keçdi, hər şey sakitləşdi, mən sağ qalmağımdan şoka düşdüm”, – deyə S.Rəhimov aviagəminin qəzaya uğramasından sonrakı faciəli anları xatırlayıb.

Təyyarənin quyruğu yerə dəyərkən zərbə onu xeyli uzağa atıb. Həmin anadək S.Rəhimov təyyarənin arxa hissəsində 39-cu oturacaqdakı yerdə əyləşibmiş.

Videoda o, azərbaycanlı stüardessa Hökümə Əliyevanın iradə və əzmindən də danışıb. Onun sözlərinə görə, stüardessa vəzifə borcunu axıra qədər məharətlə yerinə yetirib, sərnişinləri sakitləşdirməyə çalışıb, özünü itirməyib, qorxmayıb: “Özünü çox təmkinli aparırdı. Səsi mənim çəkdiyim videoda eşidilir. O, azərbaycanca danışır, hamını sakitləşdirməyə çalışır, hər şeyin yaxşı olacağını deyirdi. Hər şeyi təlimatlara uyğun olaraq, son ana qədər salondakı insanları vahiməyə, qorxuya düşməməyə çağırırdı”.

Həmin kadrlarda stüardessanın üzü görünməsə də, səsi eşidilir, bələdçi xanım azərbaycanca deyir ki, hamı sakit olsun, yerində otursun, ara keçiddə dayanmasın, kəmərini bağlasın: “Mən onun göstərişinə əməl etdim və kreslonun söykənəcəyinə sıxıldım”.

Qəzadan bir neçə dəqiqə sonra S.Rəhimov təhlükəsizlik kəmərindən azad olub. Ətrafda qarışıqlıq yaranıb, kimsə inildəyib, kimsə ayağa qalxıb salondan çıxmağa çalışıb. O, qəzadan sonra sağ qalan digər xanım stüardessanın yaralandığını, bələdçi kişinin isə qeyri-müəyyən vəziyyətdə olduğunu və çətinliklə danışa bildiyini görüb: “Mən onlardan soruşdum ki, burada ehtiyat çıxış varmı, onun yerini göstərin ki, açaq. Salonu duman bürümüşdü, onlar hələ özlərinə tam gəlməmişdilər və mən cavab ala bilmədim. Sonra kresloda düşüb qalan və inildəyən iki qadına kömək etməyə çalışsam da, bacara bilmədim… Az sonra hadisə yerinə təcili yardım gəldi”.

S. Rəhimov Qazaxıstanın hadisə yerinə çatan xilasetmə briqadalarının operativliyinə, xəsarət alan sərnişinlərə yardımın vaxtında təşkilinə görə minnətdarlığını bildirib.

*Hazırladı:*
*Zərifə BƏŞİRQIZI*
*XQ*

XQ-nin poçtu

# İtkin ana tapıldı

**Hörmətli redaksiya, uzun illərdir ki, yaddaşsızlıqdan (amneziya xəstəliyi) əziyyət çəkən anam Səmayə Muradovanın bir neçə gün əvvəl evdən çıxaraq geri qayıtmaması, itkin düşməsi ailədə ciddi narahatlıq, həyəcan yaratmışdı. Axtarışlarımız isə heç bir nəticə verməmişdi.**

Müvafiq axtarış, araşdırma aparmaq üçün DİN-nin 102 çağrı mərkəzinə zəng etdik. Yaşadığımız ərazidə yerləşən Səbail Rayon Polis İdarəsinin 8 saylı bölməsinə yönləndirilən əməliyyat qısa müddətdə narahatlığımıza son qoydu. Bölmənin baş təhqiqatçısı, polis mayoru Ramil Lətiflinin və əməliyyat müvəkkili, polis leytenantı Qasım İsmayılovun həyata keçirdikləri operativ tədbirlər nəticəsində itkin düşən anam tapılaraq evimizə gətirildi.

Hörmətli redaksiya, yüksək peşəkarlıq göstərərək ailəmizi bu narahatlıqdan qurtaran polis əməkdaşlarına qəzetiniz vasitəsilə minnətdarlığımızı bildiririk. Doğrudan da, mənim polisim məni qoruyur.

*Mehriban QULİYEVA,*
*Gülbala Əliyev küçəsi,*
*dalan 2, ev 9*

# Şahdağda Xizək Alpinizmi üzrə Dünya Kubokunun açılışı keçirilib



**Şahdağ Turizm Mərkəzində Xizək Alpinizmi üzrə Dünya Kubokunun açılış mərasimi keçirilib.**

Beynəlxalq Xizək Alpinizm Federasiyasının baş katibi Cordi Kanals Azərbaycanın yarışın təşkili üçün gördüyü hazırlıqları və bu idman növünün inkişafına verdiyi dəstəyi yüksək qiymətləndirib. Azərbaycan Qış İdman Növləri Federasiyasının vitse-prezidenti Florian Zengstşmid ölkəmizin 2022-ci ilin oktyabrından Beynəlxalq Xizək Alpinizmi Federasiyasının üzvü olduğunu vurğulayıb. Şahdağ Turizm Mərkəzinin sədri Rüstəm Nəcəfov, Dünya Kubokunun Azərbaycanda keçirilməsini ölkənin idman tarixi üçün mühüm hadisə adlandırıb.

Qeyd edək ki, Dünya Kuboku 2026-cı ildə keçiriləcək Qış Olimpiya Oyunlarına lisenziya qazanmaq üçün kvalifikasiya yarışlarından biri hesab olunur. Yarış, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Beynəlxalq Xizək Alpinizmi Federasiyası, Azərbaycan Qış İdman Növləri Federasiyası və Şahdağ Turizm Mərkəzinin təşkilatçılığı ilə yanvarın 10-dan 13-dək keçiriləcək.

Turnirdə 26 ölkədən 130-a yaxın idmançı iştirak edir. Yarışlar sprint, vertikal və individual növlərdə keçiriləcək. Azərbaycanı bu turnirdə Nəzrin Qəribova və Seyid Sədrəddinov təmsil edirlər.

*XQ*

Beynəlxalq həyat



# Türkiyə regionda anti-terror savaşı aparır

**Ötən il dekabrın 8-də Suriyada qanlı Başər Əsəd rejiminin tarixin arxivinə əbədi gömülməsindən sonra region xalqlarını onillər boyu təhdid edən terror qruplaşmalarını məhv etmək üçün real imkanlar yaranır. Türkiyə bu məsələdə fəal mövqe nümayiş etdirir. Ankara qətiyyətlə PKK və onun İraq və Suriyada uzantılarının kökünü birdəfəlik kəsib atmağa çalışır.**

Bugünlərdə Türkiyənin xarici işlər naziri Hakan Fidan “CNN Türk”ə müsahibəsində deyib ki, Suriya ilə bağlı ölkəsinin iki əsas vəzifəsi var: “Bunlardan birincisi suriyalı qardaşlarımızın vəziyyətidir. İkincisi isə PKK-nın varlığına son qoyulmasıdır. Suriyaya səfərim zamanı bu məsələləri müzakirə etdik. Əhməd əş-Şara rasional siyasətçidir. Ona ümidim var”.

H.Fidan həmçinin qeyd edib ki, Suriya üçün bir nömrəli prioritet ən qısa zamanda həm xalqa xidmət edəcək, həm də beynəlxalq əlaqələri quracaq hökumətin formalaşdırılmasıdır. Əsas məsələlərdən biri rejimin viran qoyduğu, tarixdə bir çox sivilizasiyalara imza atmış bu qədim ölkənin bərpasıdır. Bu istiqamətdə ciddi addımların atılmasına ehtiyac var.

Suriya hazırda iki yol ayrıcındadır. Ədalət naminə demək lazımdır ki, yeni hakimiyyət hər vəchlə ölkədə sabitliyi qorumağa çalışır. Məqsəd Suriya dövlətinin suverenliyini, əhalinin rifahını təmin etməkdir. Yeni iqtidar dünyanın, yaxın-uzaq bütün sivil ölkələrilə sıx əlaqələr yaratmaq üçün açıqdır. Təqdirəlayiq haldır ki, dünya da rəsmi Dəməşqlə əlaqələr qurmaqda maraqlı görünür.

Lakin bir çox xarici dövlətlərdən açıq və gizli dəstək alan PKK, PYD və YPG terrorçuları Suriyanı hələ yaralarını sağaltmamış yenidən xaosa, dərin uçuruma sürükləməyə cəhd edirlər. Təəssüf ki, onları xaricdən dəstəkləyən pozucu güclər də az deyil. Həmin ölkələr Türkiyənin regionda nüfuzunun artmasından narahatdırlar.

Xoşbəxtlikdən Türkiyə bu gün çox güclüdür. Super güclər belə Ankara ilə hesablaşmağa məcburdurlar. Türkiyə haqlı olaraq PKK terrorunu özünün milli maraqları üçün ciddi təhdid hesab edir. Ankara qətiyyətlə tələb edir ki, Suriya və İraq üçün təhdidə çevrilən terrorçular bölgəni tərk etməlidirlər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dünən Ankaradakı Prezident iqamətgahındakı çıxışında bir daha vurğulayıb ki, Suriyada baş verən hadisələr Türkiyəni yaxından maraqlandırır. Suriyanın yenidən bərpası üçün vaxta ehtiyac var. Bu, məlumdur. Bununla bərabər, beynəlxalq ictimaiyyət bu prosesə töhfə verməlidir.

Yeri gəlmişkən, R.T.Ərdoğan çıxışında təkcə Suriyadakı vəziyyətdən danışmayıb, eyni zamanda İsrail–Fələstin münaqişəsi barədə fikirlərini söyləyib. Dövlət başçısı qeyd edib ki, müstəqil, suveren və ərazi bütövlüyü təmin olunan Fələstin dövləti mütləq qurulacaq. Onun sözlərinə görə, bu gün Ankara Qəzza əhalisinin vəziyyətini yüngülləşdirmək üçün tam səfərbərlik ruhu ilə çalışır, diplomatik təmaslarını davam etdirir.

Hörmətli oxucu, yenidən Suriya mövzusuna qayıdaq. Bir çox təhlilçilər Türkiyənin hadisələrə birbaşa hərbi müdaxilə edə biləcəyini istisna etmirlər. Ankara terrorçuların Suriyanın şimalını tərk etmələri ilə bağlı artıq bir neçə dəfə xəbərdarlıq edib. Türkiyə prinsipial mövqeyindən geri çəkilən deyil. Əgər terrorçular ölkəni tərk etməsələr, Ankara böyük ehtimalla hərbi əməliyyata başlayacaq.

Bu arada “Hürriyet” qəzeti belə bir məlumat yayıb ki, Türkiyə və Suriyanın yeni hökumətinin silahlı qüvvələri ən yaxın günlər ərzində Kürdüstan Fəhlə Partiyasının (PKK) yaraqlılarına qarşı genişmiqyaslı hərbi əməliyyat keçirəcək. Əməliyyatın vaxtı açıqlanmayıb.

Yaraqlılar isə bölgədə zorakılıqlar törətməkdən əl çəkmirlər. Terrorçular son günlər tez-tez Suriya Milli Ordusunun mövqelərinə qəfil basqınlar edirlər. Bundan başqa, PKK-çılar əhali arsasında vahimə yaratmaq niyyətilə yerli sakinləri qorxudur, onlardan yaraqlıların sıralarına qoşulmalarını tələb edirlər. Kürd xalqının böyük əksəriyyəti yaraqlılardan cana yığılıblar, onları dəstəkləmirlər.

Bir məqamı da vurğulamağa ehtiyac duyuruq. Son günlər Türkiyə mediasında Azərbaycan Prezidenti İlham Əliyevin qardaş Türkiyə iqtidarının daxili və xarici siyasəti ilə tam həmrəy olduğu dərin razılıq hissi ilə qeyd olunur. Azərbaycan liderinin aşağıdakı sözləri Türkiyənin bir çox nüfuzlu nəşrlərində yer alıbdır: “Biz də Türkiyənin müttəfiqi kimi hər zaman istənilən formada onların yanındayıq və bunu Türkiyə tərəfi bilir. Necə ki, Türkiyə istənilən formada, hər bir məsələdə bizim yanımızdadır, biz də onun yanındayıq. Bizim Müttəfiqlik Bəyannaməmiz hər gün yeni amillərlə zənginləşir və D-8-lə bağlı bax, bayaq verdiyiniz suala qayıtdıqda bizi ən çox dəstəkləyən də yenə Türkiyə olmuşdur və birinci bizi təbrik edən də Türkiyə olmuşdur”.

Türkiyədə ingilis dilndə nəşr olunan “The Daily Sabah Newspaper” qəzeti özünün 8 yanvar tarixli nömrəsində yazır ki, cənab İlham Əliyev Türkiyənin Suriyada oynadığı müsbət rolu yüksək dəyərləndirib. Qəzet həmçinin vurğulayır ki, qardaş ölkənin dövlət başçısı jurnalistlərlə məlum müsahibəsində İsrail–Fələstin münaqişəsinə də toxunub və tərəfləri Qəzzada atəşkəsə nail olmağa səsləyib. Qəzetin gəldiyi qənaət budur ki, Azərbaycan və Türkiyə hər zaman olduğu kimi, bu gün də çəkici eyni zindana vurur.

Dünya Yaxın Şərqdə, xüsusilə Suriyada baş verən olayları diqqətlə izləyir. Bir çox təhlilçilər Suriyanın yeni rəhbərinin ilk xarici səfərini hansı ölkəyə edəcəyi ilə bağlı mülahizələr söyləyirlər. Dünən “Yeni Şafak” qəzeti xəbər verib ki, yaxın günlərdə cənab Əhməd əs-Şara (Culani) ilk xarici səfərini Türkiyəyə edəcək.

Nəşr həmçinin yazır ki, Əhməd əş-Şaranın Ankarada Prezident Rəcəb Tayyib Ərdoğanla görüşü gözlənilir. O, Başər Əsəd rejiminin devrilməsi üçün göstərdiyi köməyə görə Türkiyə liderinə təşəkkür etmək niyyətindədir. Əlbəttə, bir çox aktual regional məsələlər də gündəmdə olacaq.

Xatırladaq ki, Suriyada müxalifət qüvvələrinin hakimiyyətə gəlməsindən sonra Dəməşqə səfər edən ilk xarici rəsmi şəxs Türkiyə kəşfiyyatının rəhbəri İbrahim Kalın olub. Onun ardınca Türkiyənin xarici işlər naziri Hakan Fidan da Suriyanın paytaxtına səfər edib.

*Məsaim ABDULLAYEV,*
*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# “Rabitəbank” ASC səhmdarlarının nəzərinə!

“Rabitəbank” ASC-nin Müşahidə Şurasının 6 yanvar 2025-ci il tarixli, 1 nömrəli qərarına əsasən, 10 fevral 2025-ci il, saat 17.00-da bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

1. Bankın 2024-cü il maliyyə ili üzrə balansının, mənfəət və zərər haqqında hesabatının təsdiq.
2. Bankın audit komitəsinin hesabatının təsdiqi.
3. Bankın səhmdarlarına dividendlərin ödənilməsi.
4. Bankın müşahidə şurası üzvlərinə mükafat ödənilməsi.
5. Təşkilati və cari məsələlər.

Yığıncağın keçiriləcəyi ünvan – Bakı şəhəri, 28 May küçəsi 33 (Rabitəbank ASC-nin inzibati binası).

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin “Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu”

## *PHŞ-nin elm şöbələrində vakant olan vəzifələrin siyahısı*

### Arterial hipertoniya şöbəsi

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 4.0 yer
3.Elmi işçi – 4.0 yer
4.Kiçik elmi işçi – 3.0 yer
5.Böyük laborant – 2.0 yer

### Ritm pozğunluğu şöbəsi

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 3.0 yer
3.Kiçik elmi işçi – 1.0 yer

### Miokard infarktı şöbəsi

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi - 2.0 yer
3.Kiçik elmi işçi – 3.0 yer

### Profilaktik kardiologiya şöbəsi

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 2.0 yer
3.Elmi işçi – 3.0 yer

### Reabilitasiya şöbəsi

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 1.0 yer
3.Elmi işçi – 1.0 yer
4.Kiçik elmi işçi – 3.0 yer

### Ürək çatışmazlığı şöbəsi

1.Şöbə müdiri – 1.0 yer
2.Böyük elmi işçi – 4.0 yer
3.Elmi işçi – 2.0 yer
4.Kiçik elmi işçi – 4.0 yer

Əlaqə nömrələri – (050) 400-18-08, (050) 800-19-00, (012)564-49-09.
tmagayeva@gmail.com
Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi 101.

*Müdiriyyət*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 04 (30698) 10 yanvar 2025-ci il, cümə


# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2025-ci il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*




Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat səksən qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# I Uşaq Teatr Festivalı

**Azərbaycan teatrının yaranmasının 152-ci ildönümü münasibətilə Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə martın 10-dan 17-dək "I Uşaq Teatr Festivalı" keçiriləcək.**




Uşaqlar üçün nəzərdə tutulan festival Azərbaycan xalq nağıllarının yaşadılması və yeni nəslin mədəniyyətə marağının artırılması məqsədilə təşkil olunur.

Festivalın məqsədi mədəni irsimizi qorumaqla yanaşı, uşaqlara komanda şəklində işləmə bacarıqları qazandırmaq, səhnə mədəniyyəti ilə tanış olmalarına və öz istedadlarını nümayiş etdirmələrinə şərait yaratmaqdır.

Layihənin ideya müəllifi Azərbaycan İncəsənət Məktəbinin direktoru Tural Əliyev, rəhbəri Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəzin metodisti Dağlar Yusif Əfəndi, bədii rəhbəri Azərbaycan İncəsənət Məktəbinin təsisçisi Fərid Bağırov və koordinatoru məktəbin meneceri Rübabə Hüseynovadır.

*XQ*

**İdman**

# Kinomuzda idman və olimpizm mövzusu

**Azərbaycan Milli Olimpiya Komitəsi ilə Azərbaycan Respublikası Kino Agentliyi arasında əməkdaşlıq memorandumu imzalanıb.**



Sənəd Olimpiya Komitəsi ilə Kino Agentliyinin idman nailiyyətlərini kino vasitəsi ilə birgə təbliğ etməsini nəzərdə tutur.

Memorandumun imzalanmasının əsas məqsədi Azərbaycan kinosunda idman və olimpizm mövzusunda bədii, sənədli filmlərin ssenarilərini yazılmaq, qısa və tammetrajlı filmlərin çəkilməsi təşəbbüslərini dəstəkləmək, inkişaf etdirmək, beynəlxalq idman filmləri festivalını müntəzəm keçirmək, Azərbaycanın müxtəlif bölgələrində və azad olunmuş ərazilərdə yaşayan vətəndaşlara idman filmlərini, sağlam həyat tərzini, olimpizm prisiplərini təbliğ etmək, müzakirələr və görüşlər təşkil etmək vəzifələrini özündə birləşdirir.

Mərasimdə çıxış edən MOK-nin vitse-prezidenti Çingiz Hüseynzadə idman filmlərinin ölkəmizdə maraqla qarşılandığını bildirib:

– Biz bu işə Milli Olimpiya Komitəsi olaraq, çoxdan başlamışıq. Olimpiya çempionlarımız haqqında bir sıra filmlər çəkilib, paytaxtda və bölgələrdə nümayiş olunub. İşğaldan azad olunmuş ərazilərdə Olimpiya çempionları ilə birlikdə belə filmləri nümayiş etdirmək builki planımıza daxildir. Çalışmalıyıq ki, çempionlarımızı gənc nəslə tanıdaq. Film sahəsində "qadınlar idmanda" mövzusu da hər zaman maraq kəsb edir. Bu gün idmanda və həyatda böyük uğur qazanan qadınlar var. Onların keçdiyi həyat yolunun ekranlaşdırılması da maraqlı olardı. Bir sözlə, mövzular zəngindir. İnanıram ki, bundan sonra birlikdə səmərəli işlər həyata keçirə biləcəyik.

Azərbaycan Kino Agentliyinin baş direktoru vəzifəsini icra edən Orxan Sadıqov isə idman mövzulu filmlərin çəkilməsinin zəruriliyini bildirib. Qurum rəsmisi "Turan" Film Festivalının Laçın şəhərində keçiriləcəyini vurğulayıb. Orxan Sadıqov, həmçinin Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan idmançılardan bəhs edən silsilə sənədli filmlərin ərsəyə gəlməsinin əhəmiyyətindən danışıb.

Çıxışlar başa çatdıqdan sonra Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Azərbaycan Kino Agentliyinin baş direktoru vəzifəsini icra edən Orxan Sadıqov əməkdaşlıq memorandumu imzalayıblar.

*L.QURBANOVA*
*XQ*

**Yaşıl adalar**

# Siz, ey uçan quşlar...



**Mən həyatımda ilk dəfə çox böyük sayda köçəri quşları bir yerə cəm olan halda düz 40 il əvvəl Ağgöl Milli Parkında görmüşəm. O zaman bura Ağgöl Dövlət Təbiət Qoruğu adlandırılırdı. Burada irilixırdalı saysız-hesabsız rəngarəng quşlar var idi və onlar öz quş dillərində ağız-ağıza verib cəh-cəh vururdular.**

Həmin gün mən bura Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin məzunu, yataqxanada qonşu otaqda qalan, universiteti əla qiymətlərlə bitirəndən sonra doğulub boya-başa çatdığı Ağcabədi rayonunun Təzəkənd kənd orta məktəbində müəllimlik edən Teymur Məmmədovla gəlmişdik. Mən o dönəmdə "Bakinskiy raboçiy" qəzetinin Mil-Qarabağ bölgəsi üzrə müxbiri vəzifəsində çalışırdım və təbiət vurğunu dostumla Ağcabədidə tez-tez görüşürdük.

Yadımdadır, həmin gün hər ikimiz həyəcanlı idik. Düzdür, Teymur müəllim buralara əvvəllər də dəfələrlə gəlmişdi və bu dəfə üzünü mənə tutaraq fəxrlə Allahın bu yerlərə lütf etdiyi gözəlliklərə işarə edib dedi ki, əziz dostum, inanıram ki, sən bu mənzərəni həyatın boyu unuda bilməyəcəksən. O haqlı idi!

Bu gün məhz həmin Ağgöl Milli Parkı barədə söz açmaq istəyirəm. Park Azərbaycanın ən məşhur çöl-göl ekosistemi olub, köçəri və yerli quşların və digər heyvanların məskunlaşdığı ərazilərdən biridir. Ağ gölün qorunmasının beynəlxalq əhəmiyyəti var. Bu, ilk növbədə, göldə adları Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahı"sına və Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş quşların məskunlaşması ilə bağlıdır.

Xatırladaq ki, gölün qorunmasında ilk addım 1964-cü ildə 9 min 173 hektar sahədə Ağgöl Dövlət Təbiət Yasaqlığı yaradılarkən atılmışdır. 1978-ci ilin 2 mart tarixində gölün 4 min 400 hektara bərabər olan su ərazisinə ciddi qorunma statusu verilmiş və Ağgöl Dövlət Təbiət Qoruğu yaradılmışdır.

2003-cü ilin 5 iyul tarixində Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Ağgöl Dövlət Təbiət Qoruğunun sahəsi 17 min 924 hektara qədər artırılmış və ərazi Milli Park elan edilmişdir.

Ağgöl Milli Parkının yaradılmasının əsas məqsədi mühüm su-bataqlıq ərazilərini, həmin ərazi yə xas olan yarımsəhra landşaftını, göldə və onun ətrafında məskunlaşmış nəsli kəsilmək təhlükəsi ilə üzləşən fauna növlərini qorumaq, eləcə də ətraf mühitin monitorinqini, əhalinin ekoloji cəhətdən maarifləndirilməsini və ekoturizmin inkişafını təmin etməkdir.

Ağgöl Milli Parkı üçün yarımsəhra, şorlaşmış torpaq və göl şəraitinə uyğunlaşmış bitki örtüyü səciyyəvidir. Ərazidə bitki növlərindən əsasən duzlaq çoğanı, qışotu, qamış, şahsevdi, sarıbaş, qaraşoran, yovşan, qırtıc və s. geniş yayılmışdır. Burada suda-quruda yaşayan heyvanlardan yaşıl quru qurbağası, kiçik Asiya qurbağası və göl qurbağasına rast gəlinir. Ərazidə sürünənlərdən Aralıq dənizi tısbağası, Xəzər tısbağası, koramal, zolaqlı kərtənkələ, adi suilanı, qızıl təlxə, gürzə və s. növlər yayılmışdır.

Ağgöl Milli Parkında quşlardan mərmər cürə, turac, bəzgək, qara leylək, böyük və kiçik qarabatdaqlar, haraycı və fısıldayan qu quşları, Misir vağı, çobanaldadan, böyük su fərəsi, Sultan toyuğu, ərsindimdik, qıvrımlələk qutan, ağquyruq dəniz qartalı, ağgöz dalğıc, adi qızılqaz, yaşılbaş ördək, qazlar (boz, qaşqa və qırmızıdöş) və s. məskunlaşmışdır.

Milli Parkın ərazisində məməli heyvan növlərindən canavar, çaqqal, çöl donuzu, tülkü, dovşan və müxtəlif yarasalara rast gəlinir. Qamışlıqlarda isə heyrətamiz qamış pişiyinin çoxsaylı populyasiyasına təsadüf olunur.

*M.HACIXANLI*
*XQ*

# Şəxsiyyətlər Muzeyi yenilənir

**Xaçmaz şəhərində açıq səma altında yaradılan Şəxsiyyətlər Muzeyində yenidənqurma işləri aparılır. Yenidənqurma işləri çərçivəsində parkın ərazisindən keçən yola asfalt döşənib və Heydər Əliyev prospekti üzrə birbaşa hərəkət təmin olunub. Parkda velosiped yolunun salınması da nəzərdə tutulub.**

Hazırda parkın ərazisinə tamet daşları döşənir. Ardınca yeni işıqlandırma sistemi qurulacaq, dekorativ ağaclar əkiləcək. Muzeydə Azərbaycanın tanınmış ziyalı, şair, yazıçı, mədəniyyət və incəsənət xadimlərinin büstləri qoyulub.

Xaçmaz sakinlərinin və şəhərə gələn qonaqların sevimli məkanlarından olan Şəxsiyyətlər Muzeyi 2006-cı ildə yaradılıb. Ərazidə yerləşən Tarix-Diyarşünaslıq Muzeyinin qarşısına Azərbaycanın dahi şəxsiyyətlərinin – Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Nəsrəddin Tusi, Xurşidbanu Natəvan, Məhsəti Gəncəvi və Hüseyn Cavidin heykəlləri qoyulub.

*S.FİDAN*
*XQ*



**Sağlamlıq**

# Təmiz böyrək – ona nə gərək?

**Alternativ tibb mütəxəssislərinin fikrincə, böyrəklərin işini tənzimləmək və onları təmizləmək üçün pəhrizə saxlamaq balanslı qidalanmaq vacibdir.**



Fitoterapevtlər bildirirlər ki, böyrəklərin işi üçün kalium, maqnezium, C, E, D vitaminli qidalar vacibdir. Böyrək problemi olanlar hər cür qida əlavələrindən, süni, sintetik vitaminlərdən uzaq durmalıdırlar.

Mütəxəssislərin fikrincə, böyrəklər üçün təbii təmizləyici bitki lifləridir, onlar özlərinə duzu, toksinləri hopduraraq orqanizmdən xaric edirlər.

Bunlar təzə, şirəsi çəkilmiş, buxarda bişmiş tərəvəzlər, meyvə və giləmeyvələr, taxıl məmulatları – yulaf, vələmir, təmiz bitki yağları, yağsız kəsmik, qatıq, düyü, qarabaşaq, qarğıdalı və buğda sıyıqları, tumlardan toxumlardan – qarpız, yemiş, balqabaq tumları, kələm, brokkoli, turş alma, kök, göyərtilərdən – şüyüd, cəfəri, nanədir.

Mütəxəssislər faydalı qidalarla yanaşı, böyrəklərin işinə mənfi təsir göstərən soyuq qidalar, kolbasa, sosis, konserv məhsulları, duzlu, acı, turşular, şəkər, konfet, duz, ədviyyat, heyvani yağlar və piydən də uzaq durmağı tövsiyə edirlər.

*Z.HÜSEYNLİ*
*XQ*

# Yenə də yağmursuz, amma dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 10-da Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək.**

Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 5-8°, gündüz 9-14° isti olacaq. Atmosfer təzyiqi 770 mm civə sütunundan 767 mm civə sütununa enəcək, nisbi rütubət gecə 80-85, gündüz 65-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən, yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 3-8° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

*✓ 2020-ci ildə "Odlar Yurdu" Universiteti tərəfindən Abdullayeva Nurida Telman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi Aparatın əməkdaşı Məryəm Həmidovaya atası

**ELXAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2645
SİFARİŞ 10
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00